رئاسة الشؤون الدينية
بالمسجد الحرام والمسجد النبوي

azərbaycanca | أذري | حِصْنُ المُسْلِمِ

# Kitab və Sünnə zikrlərindən “Müsəlmanın qalası”

Uca Allaha möhtac olan
D. Səid bin Əli bin Vəhf əl-Qahtani

Mərhəmətli və Rəhmli Allahın adı ilə.

حِصْنُ المُسْلِمِ

# Kitab və Sünnə zikrlərindən “Müsəlmanın qalası”

د. سَعِيدُ بْنُ عَلِيِّ بْنِ وَهْفٍ الْقَحْطَانِيُّ

Uca Allaha möhtac olan
D. Səid bin Əli bin Vəhf əl-Qahtani

Mərhəmətli və Rəhmli Alla----hın adı ilə.

بِسْمِ اللهِ الرَّحمَنِ الرَّحِيمِ

# Kitab və Sünnə zikrlərindən "Müsəlmanın qalası"

## Müqəddimə

Həqiqətən, həmd Allaha məxsusdur. Biz Ona həmd edirik, Ondan yardım diləyirik, Ondan bağışlanma istəyirik. Nəfislərimizin şərindən və əməllərimizin pisliyindən Allaha sığınırıq. Allah kimi doğru yola yönəldərsə, onu azdıran olmaz. Kimi də zəlalətdə tək başına buraxarsa, ona hidayət verən olmaz. Şahidlik edirəm ki, Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur, O, Təkdir və heç bir şəriki yoxdur. Həmçinin şəhadət verirəm ki, Muhəmməd Onun qulu və elçisidir. Allahın salavatı və çoxlu salamı onun, əhlinin, səhabələrinin və Qiyamət gününə qədər gözəl tərzdə onların ardınca gedənlərin üzərinə olsun. Bundan sonra isə:

Bu, mənim "Kitab və Sünnədən zikr, Dua və Ruqyə ilə müalicə"[1] adlı iki kitabımdan ixtisar etdiyim bir müxtəsərdir. Səfərlərdə daşınması yüngül olsun deyə, bu iki kitabdan zikrlər qismini ixtisar etmişəm.

[1] Zikr edilən əsl nüsxə — Allaha həmd olsun — hədisləri geniş şəkildə təxric edilərək dörd cilddə çap olunmuşdur. "Müsəlmanın qalası" isə onların birinci və ikinci cildindədir.

Mən zikrin yalnız mətnini qeyd etməklə, təxricində isə əsl nüsxədə olan bir və ya iki mənbəni göstərməklə kifayətləndim. Kim səhabəni tanımaq və ya təxric barədə daha geniş məlumat əldə etmək istəsə, əslinə müraciət etsin. Uca və Əzəmətli Allahdan Onun gözəl adları və uca sifətləri ilə bu əməli xalis Öz Kərim Üzü üçün etməsini, onu həm həyatımda, həm də vəfatımdan sonra mənim üçün faydalı etməsini, eləcə də onu oxuyan, çap etdirən və ya yayılmasına səbəb olan hər kəs üçün faydalı etməsini diləyirəm. Həqiqətən, bunu edən və buna qadir olan yalnız Odur. Allahın salatı və salamı Peyğəmbərimiz Muhamməddin, onun ailəsinin, səhabələrinin və Qiya-mət günü-nə-dək gözəl tərzdə onların ar-dın-ca gedən-lərin üzərinə olsun.

Müəllif.

Hicri 1409-cu ilin Səfər ayında yazılmışdır.

## Zikrin fəziləti

Uca Allah buyurur:

﴿فَٱذۡكُرُونِيٓ أَذۡكُرۡكُمۡ وَٱشۡكُرُواْ لِي وَلَا تَكۡفُرُونِ ١٥٢﴾

"Elə isə siz Məni yad edin ki, Mən də sizi yad edim! Mənə şükür edin, Mənə qarşı nankor olmayın!"[1]

﴿يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُواْ ٱذۡكُرُواْ ٱللَّهَ ذِكۡرٗا كَثِيرٗا ٤١﴾

[1] (Bəqərə 2 surəsi, ayə 152).

"Ey iman gətirənlər! Allahı çox zikr edin!"[1]

﴿...وَالذَّاكِرِينَ اللَّهَ كَثِيرًا وَالذَّاكِرَاتِ أَعَدَّ اللَّهُ لَهُم مَّغْفِرَةً وَأَجْرًا عَظِيمًا﴾

"Allahı çox zikr edən kişilər və Allahı çox zikr edən qadınlar üçün Allah bağışlanma və böyük mükafat hazırlamışdır"[2]

﴿وَٱذْكُر رَّبَّكَ فِى نَفْسِكَ تَضَرُّعًا وَخِيفَةً وَدُونَ ٱلْجَهْرِ مِنَ ٱلْقَوْلِ بِٱلْغُدُوِّ وَٱلْآصَالِ وَلَا تَكُن مِّنَ ٱلْغَٰفِلِينَ ﴿٢٠٥﴾﴾

"Səhər-axşam nəfsində (ürəyində) yalvararaq və qorxaraq, səsini qaldırmadan Rəbbini yad et və qafillərdən olma"[3]

Peyğəmbər, sallallahu aleyhi va səlləm, belə buyurmuşdur:

«مَثَلُ الَّذِي يَذْكُرُ رَبَّهُ، وَالَّذِي لَا يَذْكُرُ رَبَّهُ، مَثَلُ الحَيِّ وَالمَيِّتِ».

"Rəbbini zikr edənlə, Rəbbini zikr etməyən kimsənin məsəli, diri ilə ölünün məsəli kimidir"[4].

Peyğəmbər, sallallahu aleyhi va səlləm, belə buyurmuşdur:

«أَلَا أُنَبِّئُكُم بِخَيْرِ أَعْمَالِكُمْ، وَأَزْكَاهَا عِنْدَ مَلِيكِكُمْ، وَأَرْفَعِهَا فِي دَرَجَاتِكُمْ، وَخَيْرٍ لَكُمْ مِنْ إِنْفَاقِ الذَّهَبِ وَالوَرِقِ، وَخَيْرٍ لَكُمْ مِنْ أَنْ تَلْقَوْا عَدُوَّكُمْ فَتَضْرِبُوا

---

1 (Əhzab 33 surəsi, ayə 41).
2 (Əhzab 33 surəsi, ayə 35).
3 (Əraf 7 surəsi, ayə 205).
4 Buxari, "Fəthul-Bari" ilə (11/208), № 6407 və Müslim (1/539), № 779, bu ləfz ilə: "İçində Allah zikr edilən evlə, Allah zikr edilməyən evin məsəli, diri ilə ölünün məsəli kimidir".

أَعْنَاقَهُمْ وَيَضْرِبُوا أَعْنَاقَكُمْ؟» قَالُوا بَلَى. «ذِكْرُ اللَّهِ تَعَالَى».

“Sizə əməllərinizin ən xeyirlisini, Hökmradınızın yanında ən pak olanını, dərəcələrinizi ən çox artıranı, sizin üçün qızıl və gümüş xərcləməkdən daha xeyirlisini və sizin üçün düşməninizlə qarşılaşıb onların boyunlarını vurmaqdan, onların da sizin boynunuzu vurmaqdan daha xeyirli olanını xəbər verimmi?”. Onlar dedilər: “Bəli”. O, dedi: “Uca Allahı zikr etməkdir”[1].

Peyğəmbər, sallallahu aleyhi va səlləm, belə buyurmuşdur:

«يَقُولُ اللَّهُ تَعَالَى: أَنَا عِنْدَ ظَنِّ عَبْدِي بِي، وَأَنَا مَعَهُ إِذَا ذَكَرَنِي، فَإِنْ ذَكَرَنِي فِي نَفْسِهِ، ذَكَرْتُهُ فِي نَفْسِي، وَإِنْ ذَكَرَنِي فِي مَلَأٍ ، ذَكَرْتُهُ فِي مَلَأٍ خَيْرٍ مِنْهُمْ، وَإِنْ تَقَرَّبَ إِلَيَّ شِبْرًا، تَقَرَّبْتُ إِلَيْهِ ذِرَاعًا، وَإِنْ تَقَرَّبَ إِلَيَّ ذِرَاعًا، تَقَرَّبْتُ إِلَيْهِ بَاعًا، وَإِنْ أَتَانِي يَمْشِي أَتَيْتُهُ هَرْوَلَةً».

“Uca Allah buyurur: Mən, qulumun Mənim haqqımdakı zənni necədirsə, eləyəm. Məni xatırladığı müddətcə onun yanında olaram. Əgər o Məni öz nəfsində yad edərsə, Mən də onu Öz nəfsimdə yad edərəm. Əgər o Məni bir toplum içində yad edərsə, Mən onu onlardan daha xeyirli bir toplum (mələklərin) içində yad edərəm. Əgər o

---

[1] Tirmizi (5/459): (3377) və İbn Macə (2/124): (3790). Həmçinin bax: Səhih İbn Macə (2/316) və Səhih Tirmizi (3/139).

Mənə bir qarış yaxınlaşsa, Mən ona bir dirsək yaxınlaşaram. Əgər o Mənə bir dirsək yaxınlaşsa, Mən ona bir qulac yaxınlaşaram. Əgər o Mənə yeriyərək gələrsə, Mən ona qaçaraq gələrəm”[1].

Abdullah ibn Busrdan, Allah ondan razı olsun, rəvayət edilir ki, bir kişi belə dedi: “Ey Allahın Rəsulu, İslamdakı ibadətlər mənim üçün çox oldu, ona görə də mənə möhkəm yapışacağım bir əməl söylə. Peyğəmbər, sallallahu aleyhi və səlləm, ona dedi:

«لَا يَزَالُ لِسَانُكَ رَطْبًا مِنْ ذِكْرِ اللَّهِ».

"Dilin daima Allahı zikr etməklə yaş qalsın"[2].

Peyğəmbər, sallallahu aleyhi va səlləm, başqa bir hədisdə belə buyurmuşdur:

«مَنْ قَرَأَ حَرْفًا مِنْ كِتَابِ اللَّهِ فَلَهُ بِهِ حَسَنَةٌ، وَالحَسَنَةُ بِعَشْرِ أَمْثَالِهَا، لَا أَقُولُ: ﴿الـم﴾ حَرْفٌ، وَلَكِنْ: أَلِفٌ حَرْفٌ، وَلَامٌ حَرْفٌ، وَمِيمٌ حَرْفٌ».

«Kim Allahın kitabından bir hərf oxuyarsa, ona bir həsənə (savab) vardır. Hər bir həsənə üçün isə on mislində savab vardır. Mən demirəm ki, "Əlif, Ləm, Mim" bir hərfdir, lakin "Əlif" bir hərf, "Ləm"

---

[1] Hədisi Buxari (8/171): (7405) və Müslim (4/2061): (2675) rəvayət etmişdir. Hədisin ləfzi Buxariyə aiddir.

[2] Hədisi Tirmizi (5/458): (3375), İbn Maca (2/1246): (3793) rəvayət etmişdir. Albani isə Səhihut-Tirmizi (3/139) və Səhihu İbn Maca (2/317) adlı əsərlərində hədisin səhih olduğunu bildirmişdir.

bir hərf və "Mim" bir hərfdir»[1].

Uqbə bin Amirdən, Allah ondan razı olsun, belə rəvayət edilir: Biz Suffədə ikən Allahın Rəsulu, sallallahu aleyhi və səlləm, yanımıza çıxdı və belə buyurdu:

«أَيُّكُمْ يُحِبُّ أَنْ يَغْدُوَ كُلَّ يَوْمٍ إِلَى بُطْحَانَ، أَوْ إِلَى العَقِيقِ، فَيَأْتِيَ مِنْهُ بِنَاقَتَيْنِ كَوْمَاوَيْنِ فِي غَيْرِ إِثْمٍ وَلَا قَطِيعَةِ رَحِمٍ؟».

"Hansınız istər ki, günah etmədən və qohumluq əlaqələrini kəsmədən hər gün səhər tezdən Buthana yaxud Aqiqə gedib, oradan iki iri hörgəcli dişi dəvə ilə qayıtsın?". Biz dedik: "Ey Allahın Elçisi, biz bunu istəyirik". O, dedi:

«أَفَلَا يَغْدُو أَحَدُكُمْ إِلَى المَسْجِدِ فَيَعْلَمَ، أَوْ يَقْرَأَ آيَتَيْنِ مِنْ كِتَابِ اللَّهِ عَزَّوَجَلَّ خَيْرٌ لَهُ مِنْ نَاقَتَيْنِ، وَثَلَاثٌ خَيْرٌ لَهُ مِنْ ثَلَاثٍ، وَأَرْبَعٌ خَيْرٌ لَهُ مِنْ أَرْبَعٍ، وَمِنْ أَعْدَادِهِنَّ مِنَ الإِبِلِ».

«Sizdən birinizin məscidə gedərək Allahın, Azzə və Cəllə, kitabından iki ayə öyrənməsi və ya oxuması, onun üçün iki dəvədən daha xeyirlidir. Üç ayə üç dəvədən, dörd ayə dörd dəvədən və ayələrin sayı qədər dəvədən daha xeyirlidir»[2].

Peyğəmbər, sallallahu aleyhi va səlləm, belə buyurmuşdur:

---

[1] Hədisi Tirmizi (5/75): (2910) rəvayət etmişdir. Albani isə Səhihut-Tirmizi (3/9) və Səhihul-Camius-Səğir (5/340) adlı əsərlərində hədisin səhih olduğunu bildirmişdir.

[2] Hədisi Müslim (1/553): (803) rəvayət etmişdir.

«مَنْ قَعَدَ مَقْعَدًا لَمْ يَذْكُرِ اللَّهَ فِيهِ، كَانَتْ عَلَيْهِ مِنَ اللَّهِ تِرَةٌ، وَمَنِ اضْطَجَعَ مَضْجِعًا لَمْ يَذْكُرِ اللَّهَ فِيهِ كَانَتْ عَلَيْهِ مِنَ اللَّهِ تِرَةٌ».

«Kim bir yerdə oturar və orada Allahı zikr etməzsə, Allah tərəfindən ona bir peşmançılıq olar. Kim bir yerdə uzanar və orada Allahı zikr etməzsə, Allah tərəfindən ona bir peşmançılıq olar»[1].

Peyğəmbər, sallallahu aleyhi va səlləm, belə buyurmuşdur:

«مَا جَلَسَ قَوْمٌ مَجْلِسًا لَمْ يَذْكُرُوا اللَّهَ فِيهِ، وَلَمْ يُصَلُّوا عَلَى نَبِيِّهِمْ إِلَّا كَانَ عَلَيْهِمْ تِرَةً، فَإِنْ شَاءَ عَذَّبَهُمْ، وَإِنْ شَاءَ غَفَرَ لَهُمْ».

"Bir camaat bir məclisdə oturar və orada Allahı zikr etməzlərsə və Peyğəmbərlərinə salavat gətirməzlərsə, bu onlar üçün bir peşmançılıq olar. Allah istəsə onlara əzab verər, istəsə bağışlayar".[2]

Peyğəmbər, sallallahu aleyhi va səlləm, belə buyurmuşdur:

«مَا مِنْ قَوْمٍ يَقُومُونَ مِنْ مَجْلِسٍ لَا يَذْكُرُونَ اللَّهَ فِيهِ إِلَّا قَامُوا عَنْ مِثْلِ جِيفَةِ حِمَارٍ، وَكَانَ لَهُمْ حَسْرَةً».

"Hər hansı bir toplum oturduqları məclisdən Allahı zikr etmədən qalxarsa, onlar uzunqulaq leşi üzərindən qalxmış kimi olarlar. Və o məclis onlar

---

[1] Əbu Davud (4/264): (4856) və başqaları. Bax: Səhih əl-Cami (5/342).
[2] Tirmizi (5/461): (3380). Bax: Səhih Tirmizi (3/140).

üçün bir peşmançılıq olar"[1].

## 1. Yuxudan oyanarkən edilən zikrlər.

«الحَمْدُ للَّهِ الَّذِي أَحْيَانَا بَعْدَ مَا أَمَاتَنَا، وَإِلَيْهِ النُّشُورُ».

"Bizi öldürdükdən sonra dirildən Allaha həmd olsun. (Ölüb dirildikdən sonra isə) qayı-dış Onadır"[2].

«لَا إِلَهَ إِلَّا اللَّهُ وَحْدَهُ لَا شَرِيكَ لَهُ، لَهُ المُلْكُ وَلَهُ الحَمْدُ، وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ، سُبْحَانَ اللَّهِ، وَالحَمْدُ للَّهِ، وَلَا إِلَهَ إِلَّا اللَّهُ، وَاللَّهُ أَكْبَرُ، وَلَا حَوْلَ وَلَا قُوَّةَ إِلَّا بِاللَّهِ العَلِيِّ العَظِيمِ، رَبِّ اغْفِرْ لِي».

"Allahdan başqa haqq məbud yoxdur. O təkdir. Onun şəriki yoxdur. Mülk Onundur və həmd Onadır və O hər şeyə Qadirdir! Allah pak və müqəddəsdir. Həmd Allaha məxsusdur. Allahdan başqa haqq məbud yoxdur və Allah ən Böyükdür. Qüdrət və güc yalnız Uca və Əzəmətli Allahdadır! Ey Rəbbim, məni bağışla!"[3].

«الحَمْدُ لِلَّهِ الَّذِي عَافَانِي فِي جَسَدِي، وَرَدَّ عَلَيَّ رُوحِي، وَأَذِنَ لِي بِذِكْرِهِ».

"Cismimi salamat edən, ruhumu mənə qaytaran

---

[1] Əbu Davud (4/264): (4855), İmam Əhməd (2/389): (10680) rəvayət etmişdir. Bax: Səhih əl-Cami (5/176).

[2] Hədisi Buxari (əl-Fəth: 11/113): (6314) və Müslim (4/2083): (2711) rəvayət etmişdir.

[3] «Kim bunu deyərsə, bağışlanar. Əgər dua edərsə, duası qəbul olunar. Əgər qalxıb dəstəmaz alar, sonra namaz qılarsa, namazı qəbul olunar». Buxari, Fəthul-Bari ilə: (3/39), (1154) və başqaları. Ləfz İbn Macəyə aiddir. Bax: Səhih İbn Macə: (2/335).

və Onu zikr etməyimə izn verən Allaha həmd olsun!"[1].

﴿إِنَّ فِي خَلۡقِ ٱلسَّمَٰوَٰتِ وَٱلۡأَرۡضِ وَٱخۡتِلَٰفِ ٱلَّيۡلِ وَٱلنَّهَارِ لَأٓيَٰتٖ لِّأُوْلِي ٱلۡأَلۡبَٰبِ ١٩٠
ٱلَّذِينَ يَذۡكُرُونَ ٱللَّهَ قِيَٰمٗا وَقُعُودٗا وَعَلَىٰ جُنُوبِهِمۡ وَيَتَفَكَّرُونَ فِي خَلۡقِ ٱلسَّمَٰوَٰتِ
وَٱلۡأَرۡضِ رَبَّنَا مَا خَلَقۡتَ هَٰذَا بَٰطِلٗا سُبۡحَٰنَكَ فَقِنَا عَذَابَ ٱلنَّارِ ١٩١ رَبَّنَآ إِنَّكَ مَن
تُدۡخِلِ ٱلنَّارَ فَقَدۡ أَخۡزَيۡتَهُۥۖ وَمَا لِلظَّٰلِمِينَ مِنۡ أَنصَارٖ ١٩٢ رَّبَّنَآ إِنَّنَا سَمِعۡنَا مُنَادِيٗا يُنَادِي
لِلۡإِيمَٰنِ أَنۡ ءَامِنُواْ بِرَبِّكُمۡ فَـَٔامَنَّاۚ رَبَّنَا فَٱغۡفِرۡ لَنَا ذُنُوبَنَا وَكَفِّرۡ عَنَّا سَيِّـَٔاتِنَا وَتَوَفَّنَا
مَعَ ٱلۡأَبۡرَارِ ١٩٣ رَبَّنَا وَءَاتِنَا مَا وَعَدتَّنَا عَلَىٰ رُسُلِكَ وَلَا تُخۡزِنَا يَوۡمَ ٱلۡقِيَٰمَةِۖ إِنَّكَ لَا
تُخۡلِفُ ٱلۡمِيعَادَ ١٩٤ فَٱسۡتَجَابَ لَهُمۡ رَبُّهُمۡ أَنِّي لَآ أُضِيعُ عَمَلَ عَٰمِلٖ مِّنكُم مِّن ذَكَرٍ أَوۡ
أُنثَىٰۖ بَعۡضُكُم مِّنۢ بَعۡضٖۖ فَٱلَّذِينَ هَاجَرُواْ وَأُخۡرِجُواْ مِن دِيَٰرِهِمۡ وَأُوذُواْ فِي سَبِيلِي
وَقَٰتَلُواْ وَقُتِلُواْ لَأُكَفِّرَنَّ عَنۡهُمۡ سَيِّـَٔاتِهِمۡ وَلَأُدۡخِلَنَّهُمۡ جَنَّٰتٖ تَجۡرِي مِن تَحۡتِهَا ٱلۡأَنۡهَٰرُ
ثَوَابٗا مِّنۡ عِندِ ٱللَّهِۚ وَٱللَّهُ عِندَهُۥ حُسۡنُ ٱلثَّوَابِ ١٩٥ لَا يَغُرَّنَّكَ تَقَلُّبُ ٱلَّذِينَ كَفَرُواْ فِي
ٱلۡبِلَٰدِ ١٩٦ مَتَٰعٞ قَلِيلٞ ثُمَّ مَأۡوَىٰهُمۡ جَهَنَّمُۖ وَبِئۡسَ ٱلۡمِهَادُ ١٩٧ لَٰكِنِ ٱلَّذِينَ ٱتَّقَوۡاْ رَبَّهُمۡ
لَهُمۡ جَنَّٰتٞ تَجۡرِي مِن تَحۡتِهَا ٱلۡأَنۡهَٰرُ خَٰلِدِينَ فِيهَا نُزُلٗا مِّنۡ عِندِ ٱللَّهِۗ وَمَا عِندَ ٱللَّهِ
خَيۡرٞ لِّلۡأَبۡرَارِ ١٩٨ وَإِنَّ مِنۡ أَهۡلِ ٱلۡكِتَٰبِ لَمَن يُؤۡمِنُ بِٱللَّهِ وَمَآ أُنزِلَ إِلَيۡكُمۡ وَمَآ أُنزِلَ
إِلَيۡهِمۡ خَٰشِعِينَ لِلَّهِ لَا يَشۡتَرُونَ بِـَٔايَٰتِ ٱللَّهِ ثَمَنٗا قَلِيلًاۚ أُوْلَٰٓئِكَ لَهُمۡ أَجۡرُهُمۡ عِندَ رَبِّهِمۡۗ
إِنَّ ٱللَّهَ سَرِيعُ ٱلۡحِسَابِ ١٩٩ يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُواْ ٱصۡبِرُواْ وَصَابِرُواْ وَرَابِطُواْ وَٱتَّقُواْ ٱللَّهَ
لَعَلَّكُمۡ تُفۡلِحُونَ ٢٠٠﴾

"Həqiqətən, göylərin və yerin yaradılışında, gecə ilə gündüzün bir-birini əvəz etməsində ağıl

[1] Tirmizi (5/473): (3401) və bax: Səhih Tirmizi (3/144).

sahibləri üçün dəlillər vardır.

O kəslər ki, ayaq üstə olanda da, oturanda da, uzananda da Allahı yad edər, göylərin və yerin yaradılışı haqqında düşünər (və deyərlər:) “Ey Rəbbimiz! Sən bunları əbəs yerə yaratmamısan. Sən pak və müqəddəssən. Bizi Cəhənnəm əzabından qoru!

Ey Rəbbimiz! Sən Oda saldığın kəsi, əlbəttə, rəzil etmiş olarsan. Zalımların heç bir köməkçisi olmaz.

"Ey Rəbbimiz! Həqiqətən, biz: “Rəbbinizə iman gətirin!”– deyə imana çağıran bir çağırışçını eşidib iman gətirdik. Ey Rəbbimiz! Günahlarımızı bizə bağışla, təqsirlərimizdən keç və canımızı yaxşılarla birgə al!

Ey Rəbbimiz! Öz elçilərinin vasitəsi ilə vəd etdiklərini bizə ver və Qiyamət günü bizi rəzil etmə! Şübhəsiz ki, Sən vədinə xilaf çıxmazsan!

Rəbbi onlara (belə) cavab verdi: “Mən, sizlərdən (yaxşı) işlər görən – istər kişi, istərsə də qadın olsun, – heç bir kəsin əməyini puç etmərəm. Siz bir-birinizdənsiniz (kişi, qadın, savab və cəza baxımında eynidir). Hicrət edənlərin, öz yurdlarından çıxarılanların, Mənim yolumda əziyyətə düçar olanların, vuruşanların və öldürülənlərin, əlbəttə, təqsirlərindən keçəcək və onları (ağacları və qəsrləri) altından çaylar axan cənnətlərə daxil edəcəyəm. (Bu,) Allah tərəfindən bir mükafatdır. Gözəl mükafat məhz Allah

yanındadır.

Qoy kafirlərin (rifah içində) diyarbədiyar gəzib dolaşması səni aldatmasın!

Bu, az bir mənfəətdir. Sonra isə onların gedəcəkləri yer Cəhənnəmdir. Ora necə də pis yataqdır!

Fəqət öz Rəbbindən qorxanlar üçün, Allahdan bir ziyafət olaraq, (ağacları və qəsrləri) altından çaylar axan, içində əbədi qalacaqları cənnətlər vardır. Allah yanında olan (nemətlər) yaxşı əməl sahibləri üçün daha xeyirlidir.

Həqiqətən, Kitab əhlindən elələri də vardır ki, Allaha müti olaraq həm Allaha, həm sizə nazil edilənə, həm də özlərinə nazil edilənə iman gətirər, Allahın ayələrini ucuz qiymətə satmazlar. Məhz onların öz Rəbbi yanında mükafatları vardır. Şübhəsiz ki, Allah tez haqq-hesab çəkəndir.

Ey iman gətirənlər! Səbir edin, (düşmən qarşısında) dözümlü olun, daima keşikdə durun və Allahdan qorxun ki, bəlkə nicat tapasınız!".

[Əli İmran 3 surəsi, ayələr 190-200][1].

## 2- Paltar geyinərkən edilən dua.

«الحَمْدُ للَّهِ الَّذِي كَسَانِي هَذَا (الثَّوْبَ) وَرَزَقَنِيهِ مِنْ غَيْرِ حَوْلٍ مِنِّي وَلَا قُوَّةٍ...».

"Bunu (bu paltarı) mənə geyindirən və özüm

[1] Hədisi Buxari "Fəthlə" birlikdə (8/337): (4569) və Müslim (1/530): (256) rəvayət etmişdir.

heç bir qüdrət və güc sərf etmədən onu mənə bəxş edən Allaha həmd olsun!..."[1].

## 3- Təzə paltar geyinərkən edilən dua.

«اللَّهُمَّ لَكَ الحَمْدُ أَنْتَ كَسَوْتَنِيهِ، أَسْأَلُكَ مِنْ خَيْرِهِ وَخَيْرِ مَا صُنِعَ لَهُ، وَأَعُوذُ بِكَ مِنْ شَرِّهِ وَشَرِّ مَا صُنِعَ لَهُ».

"Allahım, Həmd Sənədir! Bunu mənə Sən geyindirdin. Onun xeyrini və onun istifadəsinin xeyrini Səndən diləyirik! Onun şərindən və onun istifadəsinin şərindən Sənə sığınırıq!"[2].

## 4. Təzə paltar geyinən üçün edilən dua.

«تُبْلِي وَيُخْلِفُ اللَّهُ تَعَالَى».

"(Bunu) köhnəldəsən, Uca Allah da yeni-sini versin!"[3].

«اِلْبَسْ جَدِيدًا، وَعِشْ حَمِيدًا، وَمُتْ شَهِيدًا».

"Yeni geyin, tərifəlayiq yaşa və şəhid olaraq öl"[4].

---

1 Ən-Nəsai istisna olmaqla, "Sünən" kitabların tərtibçiləri tərəfindən nəql olunmuşdur. Bu hədisi Əbu Davud: (4023), Tirmizi: (3458) və İbn Macə: (3285) rəvayət etmişdir. Albani "İrvaul-Ğalil" (7/47) adlı əsərində hədisin "həsən" olduğunu bildirmişdir.

2 Əbu Davud: (4020), Tirmizi: (1767), Bəğəvi (12/40) rəvayət etmişdir. Həmçinin bax: Albaninin “Muxtəsər Şəmail ət-Tirmizi” (səh: 47).

3 Əbu Davud (4020): (4/41) rəvayət etmişdir. Bax: Səhihu Əbi Davud (2/760).

4 İbn Macə (2/1178): (3558), Bəğəvi (41/12). Bax: Səhih İbn Macə (275/2).

## 5. Paltarını çıxartdığı zaman nə deyir?

«بِسْمِ اللَّه».

"Allahın adı ilə!"[1].

## 6. Ayaqyoluna girərkən edilən dua.

«[بِسْمِ اللَّهِ] اللَّهُمَّ إِنِّي أَعُوذُ بِكَ مِنَ الْخُبْثِ وَالْخَبَائِثِ».

"(Allahın adı ilə!) Allahım, pislikdən və pis əməllərdən (erkək və dişi cinlərdən) Sənə sığınıram!"[2].

## 7. Ayaqyolundan çıxarkən edilən dua.

«غُفْرَانَكَ».

"Səndən bağışlanma diləyirəm!"[3].

## 8. Dəstəmazdan əvvəl edilən zikr.

«بِسْمِ اللَّهِ».

"Allahın adı ilə!"[4].

---

1 Tirmizi: (2/505): (606) və başqaları. Həmçinin bax: "İrvaul-Ğəlil", nömrə: (50) və "Səhihul-Cami": (203/3).

2 Hədisi Buxari (1/45): (142) və Müslim (1/283): (375) rəvayət etmişdir. Hədisin əvvəlindəki «Bismilləh» əlavəsini isə Səid bin Mənsur rəvayət etmişdir. Bax: Fəthul-Bari (1/244).

3 Ən-Nəsai istisna olmaqla, "Sünən" kitabların tərtibçiləri tərəfindən nəql olunmuşdur. Hədisi Əbu Davud (30), Tirmizi (7) və İbn Macə (300) rəvayət etmişdir. Nəsai isə hədisi "Aməlul-youm val-leylə" (79) adlı əsərində rəvayət etmişdir. Albani "Səhih Sünən Əbu Davud" (1/19) adlı əsərində hədisin səhih olduğunu bildirmişdir.

4 Hədisi Əbu Davud: (101), İbn Macə: (397), Əhməd: (9418) rəvayət etmişdir. Bax: İrvaul-Ğəlil (1/122).

## 9. Dəstəmazdan sonra edilən zikr.

«أَشْهَدُ أَنْ لَا إِلَهَ إِلَّا اللَّهُ وَحْدَهُ لَا شَرِيكَ لَهُ وَأَشْهَدُ أَنَّ مُحَمَّدًا عَبْدُهُ وَرَسُولُهُ..».

"Mən şəhadət verirəm ki, Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur, O təkdir, Onun şəriki yoxdur və şəhadət verirəm ki, Muhəmməd Onun qulu və elçisidir.."[1].

«اللَّهُمَّ اجْعَلْنِي مِنَ التَّوَّابِينَ وَاجْعَلْنِي مِنَ الْمُتَطَهِّرِينَ».

"Allahım! Məni tövbə edənlərdən və təmizlənənlərdən et!"[2].

«سُبْحانَكَ اللَّهُمَّ وَبِحَمْدِكَ، أَشْهَدُ أَنْ لَا إِلَهَ إِلَّا أَنْتَ، أَسْتَغْفِرُكَ وَأَتوبُ إِلَيْكَ».

"Allahım! Sən pak və müqəddəssən! Sənə həmd olsun! Mən şahidlik edirəm ki, Səndən başqa məbud yoxdur. Səndən bağışlanma diləyir və Sənə tövbə edirəm!"[3].

## 10. Evdən çıxarkən edilən zikr.

«بِسْمِ اللَّهِ، تَوَكَّلْتُ عَلَى اللَّهِ، وَلَا حَوْلَ وَلَا قُوَّةَ إِلَّا بِاللَّهِ».

"Allahın adı ilə! Allaha təvəkkül etdim. Qüdrət və güc yalnız Allahdadir!".[4]

«اللَّهُمَّ إِنِّي أَعُوذُ بِكَ أَنْ أَضِلَّ، أَوْ أُضَلَّ، أَوْ أَزِلَّ، أَوْ أُزَلَّ، أَوْ أَظْلِمَ، أَوْ أُظْلَمَ، أَوْ

---

[1] Hədisi Müslim (1/209): (234) rəvayət etmişdir.

[2] ət-Tirmizi: (1/78): (55). Bax: Səhih ət-Tirmizi: (1/18).

[3] Nəsai "Əməlu-l-Yəumi və-l-Leylə" (səh: 173). Həmçinin bax: "İrvaul-Ğəlil" (1/135): (3/94).

[4] Əbu Davud (4/325): (5095), Tirmizi (5/490): (3426). Bax: Səhih Tirmizi (3/151).

أَجْهَلَ، أَوْ يُجْهَلَ عَلَيَّ».

"Allahım! Doğru yoldan azmaqdan və ya azdırılmaqdan, çaşmaqdan və ya çaşdırılmaqdan, zülm etməkdən və ya zülmə məruz qalmaqdan, cahil olmaqdan və ya mənə qarşı cahillik edilməsindən Sənə sığınıram"[1].

## 11. Evə daxil olarkən edilən zikr.

«بِسْمِ اللَّهِ وَلَجْنَا، وَبِسْمِ اللَّهِ خَرَجْنَا، وَعَلَى اللَّهِ رَبِّنَا تَوَكَّلْنَا، ثُمَّ لِيُسَلِّمْ عَلَى أَهْلِهِ».

"Allahın adı ilə girdik, Allahın adı ilə çıxdıq və Rəb-bimizə təvəkkül etdik!". Sonra da ailəsinə salam versin"[2]

## 12. Məscidə gedərkən edilən dua.

«اللَّهُمَّ اجْعَلْ فِي قَلْبِي نُورًا، وَفِي لِسَانِي نُورًا، وَفِي سَمْعِي نُورًا، وَفِي بَصَرِي نُورًا، وَمِنْ فَوْقِي نُورًا، وَمِنْ تَحْتِي نُورًا، وَعَنْ يَمِينِي نُورًا، وَعَنْ شِمَالِي نُورًا، وَمِنْ أَمَامِي نُورًا، وَمِنْ خَلْفِي نُورًا، وَاجْعَلْ فِي نَفْسِي نُورًا، وَأَعْظِمْ لِي نُورًا، وَعَظِّمْ لِي نُورًا، وَاجْعَلْ لِي نُورًا، وَاجْعَلْنِي نُورًا، اللَّهُمَّ أَعْطِنِي نُورًا، وَاجْعَلْ فِي عَصَبِي نُورًا، وَفِي لَحْمِي نُورًا، وَفِي دَمِي نُورًا، وَفِي شَعْرِي نُورًا، وَفِي بَشَرِي نُورًا».

---

1 "Sünən" kitabların tərtibçiləri tərəfindən nəql olunmuşdur: Əbu Davud (5094), Tirmizi (3427), Nəsai (5501) və İbn Macə (3884) rəvayət etmişdir. Bax: "Səhih ət-Tirmizi" (3/152) və "Səhih İbn Macə" (2/336).

2 Hədisi Əbu Davud (4/325): (5096) rəvayət etmiş, Allamə İbn Baz isə “Tuhfətul-Əxyar” (səh: 28) əsərində onun isnadının həsən olduğunu bildirmişdir. Səhih rəvayətdə isə deyilir: “İnsan evinə daxil olduğu zaman və yeməyə başlayarkən Allahı zikr edərsə, şeytan köməkçilərinə deyər: Sizə bu evdə gecələmək üçün yer və şam yeməyindən pay yoxdur”. (Muslim: 2018).

"Allahım! Qəlbimdə nur, dilimdə nur, qulağımda nur, gözümdə nur, üstümdə nur, altımda nur, sağımda nur, solumda nur, önümdə nur və arxamda nur et! Nəfsimdə nur et! Mənim üçün nuru əzəmətli et, mənim üçün nuru böyük et, mənim üçün nur et və məni nur et! Allahım! Mənə nur ver! Sinirlərimdə nur, ətimdə nur, qanımda nur, saçımda nur və dərimdə nur et!"[1].

«اللَّهُمَّ اجْعَلْ لِي نُورًا فِي قَبْرِي... وَنُورًا فِي عِظَامِي، وَزِدْنِي نُورًا، وَزِدْنِي نُورًا، وَزِدْنِي نُورًا، وَهَبْ لِي نُورًا عَلَى نُورٍ».

«Allahummə ic‘al-li nuran fi qabri... və nuran fi ‘izami» - «Allahım, qəbrimdə bir nur... və sümüklərimdə bir nur et!»[2].

«Va zidni nuran, va zidni nuran, və zidni nuran» - «Və nurumu artır, və nurumu artır, və nurumu artır!»[3].

«Va həb li nuran alə nurin» -
«Və mənə nur üstünə nur bəxş et!»[4].

---

[1] Bütün bu ləfzlər üçün bax: Buxari (11/116): (3166) və Müslim (1/526): (529), (530) və (763).
[2] Hədisi Tirmizi (5/483): (3419) rəvayət etmişdir.
[3] Buxari "əl-Ədəb əl-Müfrəd" əsərində: (695), (səh. 258) rəvayət etmişdir. Albani "Sahih əl-Ədəb əl-Müfrəd" (536) adlı əsərində isnadının səhih olduğunu bildirmişdir.
[4] İbn Həcər "Fəthul-Bari" əsərində (11/118) bunu zikr edib İbn Əbu Asimin "Dua" kitabına nisbət etmiş və belə demişdir: "Müxtəlif rəvayətlərdən iyirmi beş xislət cəm olmuşdur".

## 13. Məscidə daxil olarkən edilən dua.

Sağ ayağı ilə başlayır[1] və deyir:

«أَعُوذُ بِاللَّهِ العَظِيمِ، وَبِوَجْهِهِ الكَرِيمِ، وَسُلْطَانِهِ القَدِيمِ، مِنَ الشَّيْطَانِ الرَّجِيمِ»[2]

[Əuzu billəhil-azıym, va bi-vəchihil-kəriym, va sultanihil-qadiym, minəş-şeytanir-raciym] -

"Qovulmuş şeytandan Əzəmətli Allaha, Onun Kəramətli Üzünə və əzəli hökmranlığına sığınıram!".

«بِسْمِ اللَّهِ، وَالصَّلَاةُ» «وَالسَّلَامُ عَلَى رَسُولِ اللَّهِ»

[Bismilləhi, vas-salətu, vas-sələmu alə rasulilləh]

"Allahın adı ilə! Allah rəsuluna salavat və salam olsun!"[3][4].

«اللَّهُمَّ افْتَحْ لِي أَبْوَابَ رَحْمَتِكَ»[5].

---

[1] Ənəs bin Malik - Allah ondan razı olsun - demişdir: «Məscidə daxil olarkən sağ ayaqla, çıxarkən isə sol ayaqla başlamaq sünnədir». Bu hədisi Hakim (1/218) rəvayət edib Müslimin şərtinə görə səhih saymış, Zəhəbi də onunla razılaşmışdır. Həmçinin Beyhəqi (2/442) rəvayət etmiş, Albani isə "Silsilətul-Əhədisis-Sahihə" (5/624): (2478) əsərində həsən saymışdır.

[2] Əbu Davud: (466). Bax: Səhih əl-Cami: (4591).

[3] Hədisi İbn Sunni: (88) rəvayət etmişdir və Albani "Əs-Səmərul-Mustətab" (səh: 607) əsərində həsən saymışdır.

[4] Hədisi Əbu Davud (1/126): (465) rəvayət etmişdir. Həmçinin bax: Səhih əl-Cami (1/528).

[5] Hədisi Müslim (1/494): (713) rəvayət etmişdir. Həmçinin İbn Macənin "Sünən" əsərində Fatimədən, Allah ondan razı olsun, rəvayət olunan hədisdə deyilir:

[Allahumməğfir liy zunubiy, vaftəh liy əbvabə rahmətikə] - "Allahım! Günahlarımı bağışla və mənim üçün Öz mərhəmət qapılarını aç!".

Albani bu hədisi "şahidlərinə" görə (dəstəkləyici rəvayətlər əsasında) səhih hesab etmişdir. Bax: "Səhih İbn Macə", (1/128): (129).

[Allahumməftəh liy əbvabə rahmətik] -

"Allahım! Öz mərhəmət qapılarını mənim üçün aç!"

## 14. Məsciddən çıxarkən edilən dua.

Sol ayağı ilə başlayaraq[1] deyir:

«بِسْمِ اللَّهِ وَالصَّلَاةُ وَالسَّلَامُ عَلَى رَسُولِ اللَّهِ،

[Bismilləhi, vas-salətu, vas-sələmu alə rasulilləh]

«Allahın adı ilə, Allahın salavatı və salamı Allah rəsulunun üzərinə olsun».

اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ مِنْ فَضْلِكَ.

[Allahummə inni əsəlukə min fadlikə] -

"Allahım! Sənin lütfündən diləyirəm!".

اللَّهُمَّ اعْصِمْنِي مِنَ الشَّيْطَانِ الرَّجِيمِ»[2].

[Allahummə-asimni minəş-şeytanir-racim] -

"Allahım! Məni lənətlənmiş şeytandan qoru".

## 15. Azanın zikirləri.

Müəzzinin dediyi kimi deyər, ancaq “Həyyə aləs-saləh və Həyyə aləl-fələh” sözünün əvəzinə belə deyər:

---

1 Hədisi Hakim (1/218) və Beyhəqi (2/442) rəvayət etmişdir. Albani "Silsilətul-Əhədisis-Sahihə" (5/624): (2478) əsərində həsən saymışdır. Təxrici isə daha əvvəl qeyd edilmişdir.

2 Məscidə daxil olma duasına dair əvvəlki (20-ci) hədisin rəvayətlərinin təxricinə və İbn Macədəki bu əlavəyə bax: [Allahummə-simni minəş-şeytanir-racim] - "Allahım! Məni lənətlənmiş şeytandan qoru". Bax: “Səhih İbn Macə”, (1/129).

«لَا حَوْلَ وَلَا قُوَّةَ إِلَّا بِاللَّهِ».

«Qüdrət və güc yalnız Allahdadır»[1].

Belə deyir:

«وَأَنَا أَشْهَدُ أَنْ لَا إِلَهَ إِلَّا اللَّهُ وَحْدَهُ لَا شَرِيكَ لَهُ وَأَنَّ مُحَمَّدًا عَبْدُهُ وَرَسُولُهُ، رَضِيتُ بِاللَّهِ رَبًّا، وَبِمُحَمَّدٍ رَسُولًا، وَبِالْإِسْلَامِ دِينًا».

«Mən də şəhadət verirəm ki, Allahdan başqa haqq məbud yoxdur, O təkdir, Onun şəriki yoxdur və Muhəmməd Onun qulu və elçisidir. Allahın Rəbb, Muhəmmədin elçi, İslamın isə din olduğuna razı oldum»[2].

Bunu müəzzinin təşəhhüdündən sonra deyər[3].

Müəzzinin dediklərini təkrar etdikdən sonra Peyğəmbərə, sallallahu aleyhi və səlləm, salavat gətirir[4].

Belə buyurur:

«اللَّهُمَّ رَبَّ هَذِهِ الدَّعْوَةِ التَّامَّةِ، وَالصَّلَاةِ القَائِمَةِ، آتِ مُحَمَّدًا الوَسِيلَةَ وَالفَضِيلَةَ، وَابْعَثْهُ مَقَامًا مَحْمُودًا الَّذِي وَعَدْتَهُ، [إِنَّكَ لَا تُخْلِفُ المِيعَادَ]».

«Bu tam dəvətin və qılınacaq namazın Rəbbi olan Allahım! Muhəmmədə vasitəçilik haqqı və fəzilət ver. Onu vəd etdiyin təriflənən mə-qama

[1] Hədisi Buxari (1/152): (611) və (613) və Müslim (1/288): (383) rəvayət etmişdir.
[2] Hədisi Müslim (1/290): (386) rəvayət etmişdir.
[3] İbn Xuzeymə: (1/220).
[4] Hədisi Müslim (1/288): (384) rəvayət etmişdir.

çatdır. Həqiqətən, Sən vədindən dönməzsən»[1].

Azanla iqamə arasında özü üçün dua edər. Çünki həmin vaxt edilən dua rədd edilməz[2].

## 16. "İstiftəh" (namaz açılış) duası.

«اللَّهُمَّ بَاعِدْ بَيْنِي وَبَيْنَ خَطَايَايَ كَمَا بَاعَدْتَ بَيْنَ المَشْرِقِ وَالمَغْرِبِ، اللَّهُمَّ نَقِّنِي مِنْ خَطَايَايَ كَمَا يُنَقَّى الثَّوْبُ الأَبْيَضُ مِنَ الدَّنَسِ، اللَّهُمَّ اغْسِلْنِي مِنْ خَطَايَايَ، بِالثَّلْجِ وَالماءِ وَالبَرَدِ».

«Allahım! Məğriblə məşriqin arasını uzaqlaşdırdığın kimi məni də günahlarımdan uzaqlaşdır! Allahım! Ağ paltar kirdən təmizləndiyi kimi məni də günahlarımdan təmizlə! Allahım! Mənim günahlarımı qar, su və dolu ilə yu!»[3].

«سُبْحانَكَ اللَّهُمَّ وَبِحَمْدِكَ، وَتَبارَكَ اسْمُكَ، وَتَعَالَى جَدُّكَ، وَلَا إِلَهَ غَيْرُكَ».

"Allahım! Sən pak və müqəddəssən. Sənə həmd olsun. Sənin adın mübarək, əzəmətin isə ucadır. Səndən başqa haqq məbud yoxdur!"[4].

«وَجَّهْتُ وَجْهِيَ لِلَّذِي فَطَرَ السَّمَوَاتِ وَالأَرْضَ حَنِيفًا وَمَا أَنَا مِنَ المُشْرِكِينَ، إِنَّ

---

1 Buxari, (1/152): (614). Kvadrat mötərizədəki hissə Beyhəqiyə (1/410) məxsusdur və isnadını Allamə Əbdüləziz bin Baz, Allah ona rəhmət etsin, “Tuhfətul-Əxyar” (səh: 38) kitabında həsən saymışdır.

2 Tirmizi (3594) və (3595), Əbu Davud (525) və İmam Əhməd (12200). Həmçinin bax: İrvaul-Ğəlil (1/262).

3 Hədisi Buxari (1/181): (744) və Müslim (1/419): (598) rəvayət etmişdir.

4 Müslim (399), və dörd "Sünən" kitabların müəllifləri: Əbu Davud (775), Tirmizi (243), İbn Macə (806) və Nəsai (899) rəvayət etmişdir. Həmçinin bax: Səhih Tirmizi (1/77) və Səhih İbn Macə (1/135).

صَلَاتِي، وَنُسُكِي، وَمَحْيَايَ، وَمَمَاتِي لِلَّهِ رَبِّ العَالَمِينَ، لَا شَرِيكَ لَهُ وَبِذَلِكَ أُمِرْتُ وَأَنَا مِنَ المُسْلِمِينَ، اللَّهُمَّ أَنْتَ المَلِكُ لَا إِلَهَ إِلَّا أَنْتَ، أَنْتَ رَبِّي وَأَنَا عَبْدُكَ، ظَلَمْتُ نَفْسِي وَاعْتَرَفْتُ بِذَنْبِي فَاغْفِرْ لِي ذُنُوبِي جَمِيعًا إِنَّهُ لَا يَغْفِرُ الذُّنوبَ إِلَّا أَنْتَ، وَاهْدِنِي لِأَحْسَنِ الأَخْلاقِ لَا يَهْدِي لِأَحْسَنِها إِلَّا أَنْتَ، وَاصْرِفْ عَنِّي سَيِّئَهَا، لَا يَصْرِفُ عَنِّي سَيِّئَهَا إِلَّا أَنْتَ، لَبَّيْكَ وَسَعْدَيْكَ، وَالخَيْرُ كُلُّهُ بِيَدَيْكَ، وَالشَّرُّ لَيْسَ إِلَيْكَ، أَنَا بِكَ وَإِلَيْكَ، تَبارَكْتَ وَتَعَالَيْتَ، أَسْتَغْفِرُكَ وَأَتوبُ إِلَيْكَ».

[Vaccəhtu vachiyə lilləzi fətara-s-səməvati və-l-ərda hənifən və mə ənə min-ə-l-muşrikin, innə saləti va nusuki va məhyəyə və məməti lilləhi Rabbi-l-aləmin, lə şərikə ləhu və bizəlikə umirtu və ənə minə-l-muslimin. Allahummə əntə-l-məliku lə iləhə illə ənt. Əntə Rabbi və ənə abdukə zaləmtu nəfsi va'təraftu bi-zənbi, fəğfir li zunubi cəmian, innəhu lə yəğfiru-z-zunubə illə əntə, vahdi-ni li-əhsəni-l-əxləqi

lə yəhdi liəhsənihə illə əntə, vasrif anni seyyiəhə lə yasrifu anni seyyiəhə illə əntə. Ləbbeykə və səadeykə, və-l-xayru kulluhu biyədəykə, və-ş-şərru leysə ileykə, ənə bikə və ileykə, təbarəktə və təaleytə, əstəğfirukə və ətubu ileykə] -

«Mən, bir hənif olaraq üzümü göyləri və yeri yaradana yönəltdim və mən müşriklərdən deyiləm. Şübhəsiz ki, mənim namazım, ibadətim (qurbanım), həyatım və ölümüm aləmlərin Rəbbi Allah üçündür. Onun şəriki yoxdur. Mənə bu əmr olunmuşdur və mən müsəlmanlardanam. Allahım!

Sən Hökmdarsan, Səndən başqa haqq məbud yoxdur. Sən mənim Rəbbimsən, mən də Sənin qulunam. Nəfsimə zülm etdim və günahımı etiraf etdim. Bütün günahlarımı bağışla! Həqiqətən, günahları Səndən başqa bağışlayan yoxdur. Məni əxlaqın ən gözəlinə yönəlt, onun ən gözəlinə Səndən başqa heç kim yönəltməz. Onun pisini məndən uzaqlaşdır, onun pisini məndən Səndən başqa heç kim uzaqlaşdırmaz. Sənin əmrindəyəm və Sənə itaət etməkdən xoşbəxtəm! Bütün xeyir Sənin Əlindədir, şər isə Sənə aid deyil. Varlığım Səndəndir və dönüşüm Sənədir. Sən mübarəksən və Ucasan. Səndən bağışlanma diləyirəm və Sənə tövbə edirəm»[1].

«اللَّهُمَّ رَبَّ جِبْرَائِيلَ، وَمِيْكَائِيلَ، وَإِسْرَافِيلَ، فَاطِرَ السَّمَوَاتِ وَالأَرْضِ، عَالِمَ الغَيْبِ وَالشَّهَادَةِ أَنْتَ تَحْكُمُ بَيْنَ عِبَادِكَ فِيمَا كَانُوا فِيهِ يَخْتَلِفُونَ، اهْدِنِي لِمَا اخْتُلِفَ فِيهِ مِنَ الحَقِّ بِإِذْنِكَ إِنَّكَ تَهْدِي مَنْ تَشَاءُ إِلَى صِرَاطٍ مُسْتَقِيمٍ».

"Ey Cəbrailin, Mikailin və İsrafilin Rəbbi, göyləri və yeri Yaradan, qeybi və aşkarı Bilən Allahım! Qul-la-rı-nın arasında baş verən ziddiyyətlərlə bağlı hökmü yal-nız Sən ve-rəcəksən! İxtilaf olunan məsələlərdə Öz izninlə məni haqqa yönəlt. Həqiqətən, Sən istədiyin kəsi doğru yola yönəldirsən"[2].

---

1 Hədisi Müslim (1/534): (771) rəvayət etmişdir.
2 Hədisi Müslim (1/534): (770) rəvayət etmişdir.

«اللَّهُ أَكْبَرُ كَبِيرًا، اللَّهُ أَكْبَرُ كَبِيرًا، اللَّهُ أَكْبَرُ كَبِيرًا، وَالحَمْدُ لِلَّهِ كَثِيرًا، وَالحَمْدُ لِلَّهِ كَثِيرًا، وَالحَمْدُ لِلَّهِ كَثِيرًا، وَسُبْحَانَ اللَّهِ بُكْرَةً وَأَصِيلًا».

[Allahu Əkbəru kəbiran, Allahu Əkbəru kəbiran, Allahu Əkbəru kəbiran, va-l-həmdulilləhi kəsiran, va-l-həmdulilləhi kəsiran, va-l-həmdulilləhi kəsiran, va subhənəllahi bukratən va asilən] -

«Allah böyüklükdə ən Böyükdür, Allah böyüklükdə ən Böyükdür, Allah böyüklükdə ən Böyükdür! Allaha çoxlu-çoxlu həmd olsun, Allaha çoxlu-çoxlu həmd olsun, Allaha çoxlu-çoxlu həmd olsun! Səhər-axşam Allaha təriflər olsun!».

Üç dəfə.

«أَعُوذُ بِاللَّهِ مِنَ الشَّيْطَانِ: مِنْ نَفْخِهِ، وَنَفْثِهِ، وَهَمْزِهِ».

[Əuzu billəhi minəş-şeytani: min nəfxihi, va nəfsihi, va həmzihi] -

"Şeytandan: onun təkəbbüründən, sehrindən və vəsvəsəsindən Allaha pənah aparıram!"[1].

«اللَّهُمَّ لَكَ الحَمْدُ، أَنْتَ نُورُ السَّمَوَاتِ وَالأَرْضِ وَمَنْ فِيهِنَّ، وَلَكَ الحَمْدُ أَنْتَ قَيِّمُ السَّمَوَاتِ وَالأَرْضِ وَمَنْ فِيهِنَّ، [وَلَكَ الحَمْدُ أَنْتَ رَبُّ السَّمَوَاتِ وَالأَرْضِ وَمَنْ

[1] Hədisi Əbu Davud (1/203): (764), İbn Macə (1/265): (807), Əhməd (4/85): (16739) rəvayət etmişdir. Şueyb əl-Ərnaut "Müsnəd" əsərinin təhqiqində hədisin "həsən li-ğayrihi" olduğunu bildirmişdir. Əbdülqadir əl-Ərnaut isə İbn Teymiyyənin "əl-Kəlimut-Tayyib" (78) əsərinin təxricində hədisin "şahidləri ilə birlikdə səhih" olduğunu bildirmişdir. Albani bu hədisi "Səhihul-Kəlimit-Tayyib" (62) adlı əsərində zikr etmişdir. Muslim də (1/420): (601) bu hədisə bənzərini İbn Ömərdən rəvayət etmişdir və bu rəvayətdə bir qissə də vardır.

فِيهِنَّ] [وَلَكَ الحَمْدُ لَكَ مُلْكُ السَّمَوَاتِ وَالأَرْضِ وَمَنْ فِيهِنَّ] [وَلَكَ الحَمْدُ أَنْتَ مَلِكُ السَّمَوَاتِ وَالأَرْضِ] [وَلَكَ الحَمْدُ] [أَنْتَ الحَقُّ، وَوَعْدُكَ الحَقُّ، وَقَوْلُكَ الحَقُّ، وَلِقَاؤُكَ الحَقُّ، وَالجَنَّةُ حَقٌّ، وَالنَّارُ حَقٌّ، وَالنَّبِيُّونَ حَقٌّ، وَمُحَمَّدٌ ﷺ حَقٌّ، وَالسَّاعَةُ حَقٌّ] [اللَّهُمَّ لَكَ أَسْلَمتُ، وَعَلَيْكَ تَوَكَّلْتُ، وَبِكَ آمَنْتُ، وَإِلَيْكَ أَنَبْتُ، وَبِكَ خاصَمْتُ، وَإِلَيْكَ حاكَمْتُ. فَاغْفِرْ لِي مَا قَدَّمْتُ، وَمَا أَخَّرْتُ، وَمَا أَسْرَرْتُ، وَمَا أَعْلَنْتُ] [وَمَا أَنْتَ أَعْلَمُ بِهِ مِنِّي] [أَنْتَ المُقَدِّمُ، وَأَنْتَ المُؤَخِّرُ لَا إِلَهَ إِلَّا أَنْتَ] [أَنْتَ إِلَهِي لَا إِلَهَ إِلَّا أَنْتَ] [وَلَا حَوْلَ وَلَا قُوَّةَ إِلَّا بِاللَّهِ]».

«Allahım! Sənə həmd olsun[1], Sən göylərin, yerin və onlarda olanların nurusan. Və Sənə həmd olsun, Sən göylərin, yerin və onlarda olanların Qəyyumusan (idarə edənisən). [Və Sənə həmd olsun, Sən göylərin, yerin və onlarda olanların Rəbbisən]. [Və Sənə həmd olsun, göylərin, yerin və onlarda olanların mülkü Sənə məxsusdur]. [Və Sənə həmd olsun, Sən göylərin və yerin Məlikisən (Hökmdarısan)]. [Və Sənə həmd olsun!] [Sən Haqsan, və Sənin vədin haqdır, və sözün haqdır, və Səninlə qarşılaşmaq haqdır, və Cənnət haqdır, və Cəhənnəm haqdır, və peyğəmbərlər haqdır, və Muhəmməd (sallallahu aleyhi və səlləm) haqdır, və (Qiyamət) Saatı haqdır]. [Allahım! Sənə təslim oldum, və Sənə təvəkkül etdim, və Sənə iman gətirdim, və Sənə üz tutdum (tövbə etdim), və Sənin

[1] Peyğəmbər, sallallahu aleyhi və səlləm, gecə təhəccüd namazına durduqda bunu deyərdi.

(dinimin) sayəsində mübarizə apardım, və Sənin hökmünə müraciət etdim. Odur ki, mənim əvvəlki və sonrakı, gizli və aşkar etdiyim günahlarımı bağışla]. [Və Sənin məndən daha yaxşı bildiyin günahlarımı da (bağışla)]. [Əvvələ keçirən də Sən, axıra saxlayan da Sənsən. Səndən başqa haqq məbud yoxdur]. [Sən mənim İlahımsan, Səndən başqa haqq məbud yoxdur]. [Allahın yardımı olmadan (günahdan) çəkinməyə və (itaət etməyə) qüvvət yoxdur]»[1].

## 17. Rükuda edilən dua.

«سُبْحانَ رَبِّيَ العَظِيمِ».

[Subhənə Rabbiyəl-azim] -
"Əzəmətli Rəbbim pak və müqəddəsdir!".
Üç dəfə[2].

«سُبْحَانَكَ اللَّهُمَّ رَبَّنَا وَبِحَمْدِكَ، اللَّهُمَّ اغْفِرْ لِي».

"Allahım! Sən pak və müqəddəssən. Ey Rəbbimiz! Sənə həmd olsun. Allahım, məni bağışla!"[3].

«سُبُّوحٌ، قُدُّوسٌ، رَبُّ المَلَائِكَةِ وَالرُّوحِ».

---

[1] Hədisi Buxari "Fəthul-Bari" ilə (3/3): (11/116) və (13/371), nömrə: (423), (465), (1120), (6317), (7385), (7442), (7499), Müslim isə oxşar şəkildə ixtisarla (1/532), nömrə: (769) rəvayət etmişdir.

[2] Sünən kitabların tərtibçiləri tərəfindən rəvayət edilmişdir: hədisi Əbu Davud: (870), Tirmizi: (262), Nəsai: (1007), İbn Macə: (897) və Əhməd: (3514) rəvayət etmişdir. Bax: Səhih ət-Tirmizi (1/83).

[3] Hədisi Buxari (1/ 99): (794) və Müslim (1/350): (484) rəvayət etmişdir.

"Pak və Müqəddəsdir, mələklərin və Ruhun Rəbbidir!"[1].

«اللَّهُمَّ لَكَ رَكَعْتُ، وَبِكَ آمَنْتُ، وَلَكَ أَسْلَمْتُ، خَشَعَ لَكَ سَمْعِي، وَبَصَرِي، وَمُخِّي، وَعَظْمِي، وَعَصَبِي، [وَمَا استَقَلَّتْ بِهِ قَدَمِي]».

"Allahım! Sənə rüku etdim. Sənə iman etdim. Sənə təslim oldum. Qulağım, gözüm, beynim, sümüyüm, sinirlərim [və ayaqlarımın daşıdığı bədənim] Sənə boyun əydi"[2].

«سُبْحَانَ ذِي الجَبَرُوتِ، وَالمَلَكُوتِ، وَالكِبْرِيَاءِ، وَالعَظَمَةِ».

«Qüdrət, səltənət, böyüklük və əzəmət Sahibi pak və müqəddəsdir!»[3].

## 18. Rükudan qalxarkən edilən dua.

«سَمِعَ اللَّهُ لِمَنْ حَمِدَهُ».

"Allah Ona həmd edəni eşitdi!"[4].

«رَبَّنَا وَلَكَ الحَمْدُ، حَمْدًا كَثِيرًا طَيِّبًا مُبارَكًا فِيهِ».

"Ey Rəbbimiz! Sənə həmd olsun! (Özü də) çoxlu, xoş, mübarək bir həmd"[5].

---

[1] Müslim (1/ 353): (487), Əbu Davud (1/230): (872).

[2] Hədisi Müslim: (1/534): (771), İbn Macədən başqa dördü Sünən kitabların tərtibçiləri: Əbu Davud: (760, 761), Tirmizi: (3421) və Nəsai: (1049) rəvayət etmişdir. Mötərizə daxilindəki ləfz isə İbn Xuzeyməyə: (607) və İbn Hibbana: (1901) aiddir.

[3] Hədisi Əbu Davud: (1/230): (873), Nəsai: (1131), Əhməd: (23980) rəvayət etmişdir. İsnadı həsəndir.

[4] Hədisi Buxari, "Fəthul-Bari" də/ isə (2/282): (796) rəvayət etmişdir.

[5] Buxari, "əl-Fəth" ilə (2/284): (796).

«مِلْءَ السَّمَوَاتِ وَمِلْءَ الأَرْضِ، وَمَا بَيْنَهُمَا، وَمِلْءَ مَا شِئْتَ مِنْ شَيءٍ بَعْدُ. أَهلَ الثَّناءِ وَالمَجْدِ، أَحَقُّ مَا قَالَ العَبْدُ، وَكُلُّنَا لَكَ عَبْدٌ، اللَّهُمَّ لَا مَانِعَ لِمَا أَعْطَيْتَ، وَلَا مُعْطِيَ لِمَا مَنَعْتَ، وَلَا يَنْفَعُ ذَا الجَدِّ مِنْكَ الجَدُّ».

"Göylər dolusu, yer dolusu, onların arası dolusu və bundan sonra dilədiyin şeylər dolusu. Ey həmd-səna və uca şan-şərəf sahibi! Bəndənin dediyi ən doğru söz budur və hamımız Sənə bəndəyik. Allahım! Sənin verdiyinə mane olacaq, mane olduğunu da verəcək (bir kəs) yoxdur. Heç bir hörmət sahibinə də Sənin yanında hörməti fayda verməz"[1].

## 19. Səcdədə edilən dua.

«سُبْحَانَ رَبِّيَ الأَعْلَى».

[Subhanə Rabbiyəl-əla] -
"Ən Uca Rəbbim pak və müqəddəsdir".
Üç dəfə[2].

«سُبْحَانَكَ اللَّهُمَّ رَبَّنَا وَبِحَمْدِكَ، اللَّهُمَّ اغْفِرْ لِي».

"Allahım! Sən pak və müqəddəssən. Ey Rəbbimiz! Sənə həmd olsun. Allahım, məni bağışla!"[3].

---

1 Müslim: (1/346): (477).
2 Hədisi Sünən kitabların tərtibçiləri: Əbu Davud: (870), Tirmizi: (262), Nəsai: (1007), İbn Macə: (897) və Əhməd: (3514) rəvayət etmişdir. Bax: "Səhih Tirmizi" (1/83).
3 Hədisi Buxari: (794) və Müslim: (484) rəvayət etmişdir, daha öncə (34) nömrədə keçmişdir.

«سُبُّوحٌ، قُدُّوسٌ، رَبُّ المَلَائِكَةِ وَالرُّوحِ».

"Pak və Müqəddəs, Mələklərin və Ruhun (Cəbrailin) Rəbbi!"[1].

«اللَّهُمَّ لَكَ سَجَدْتُ وَبِكَ آمَنْتُ، وَلَكَ أَسْلَمْتُ، سَجَدَ وَجْهِي لِلَّذِي خَلَقَهُ، وَصَوَّرَهُ، وَشَقَّ سَمْعَهُ وَبَصَرَهُ، تَبَارَكَ اللَّهُ أَحْسَنُ الخَالِقِينَ».

"Allahım! Sənə səcdə etdim. Sənə iman etdim. Sənə təslim oldum. Üzüm onu yaradana, ona surət verənə, onda qulaq və göz açana səcdə etdi. Yaradanların ən gözəli olan Allah nə qədər xeyirxahdır!"[2].

«سُبْحَانَ ذِي الجَبَرُوتِ، وَالمَلَكُوتِ، وَالكِبْرِيَاءِ، وَالعَظَمَةِ».

"Qüdrət, səltənət, böyüklük və əzəmət sahibi pak və müqəddəsdir!"[3].

«اللَّهُمَّ اغْفِرْ لِي ذَنْبِي كُلَّهُ: دِقَّهُ وَجِلَّهُ، وَأَوَّلَهُ وَآخِرَهُ، وَعَلَانِيَّتَهُ وَسِرَّهُ».

"Allahım! Günahlarımın hamısını: kiçiyini və böyüyünü, birincisini və axırıncısını, aşkarını və gizlisini bağışla!"[4].

«اللَّهُمَّ إِنِّي أَعُوذُ بِرِضَاكَ مِنْ سَخَطِكَ، وَبِمُعَافَاتِكَ مِنْ عُقوبَتِكَ، وَأَعُوذُ بِكَ

---

1 Müslim (1/533): (487), Əbu Davud (872) daha öncə: (35) nömrədə keçmişdir.
2 Müslim: (1/534): (771) və başqaları.
3 Hədisi Əbu Davud (1/230): (873), Nəsai: (1131) və Əhməd: (23980) rəvayət etmiş, Albani isə "Sahih Əbu Davud" əsərində (1/166) hədisin Səhih olduğunu bildirmişdir. Bu hədisin təxrici daha əvvəl: (37) nömrəsində qeyd edilmişdir.
4 Hədisi Müslim (1/ 230): (483) rəvayət etmişdir.

مِنْكَ، لَا أُحْصِي ثَنَاءً عَلَيْكَ، أَنْتَ كَمَا أَثْنَيْتَ عَلَى نَفْسِكَ».

«Allahım! Sənin qəzəbindən razılığına, cəzandan əfvinə və Səndən Sənə sığınıram. Səni layiqincə tərif edə bilmərəm, Sən Özünü tərif etdiyin kimisən»[1].

## 20. İki səcdə arasında oturduqda edilən dua.

«رَبِّ اغْفِرْ لِي، رَبِّ اغْفِرْ لِي».

«Rəbbim, mənim günahlarımı bağışla, Rəbbim, mənim günahlarımı bağışla!»[2].

«اللَّهُمَّ اغْفِرْ لِي، وَارْحَمْنِي، وَاهْدِنِي، وَاجْبُرْنِي، وَعَافِنِي، وَارْزُقْنِي، وَارْفَعْنِي».

"Allahım, məni bağışla, mənə rəhm et, məni doğru yola yönəlt, mənə lütf et, mənə salamatlıq ver, mənə ruzi bəxş et və məni uca et!"[3].

## 21. Tilavət səcdəsində edilən dua.

«سَجَدَ وَجْهِيَ لِلَّذِي خَلَقَهُ، وَشَقَّ سَمْعَهُ وَبَصَرَهُ بِحَوْلِهِ وَقُوَّتِهِ، فَتَبَارَكَ اللَّهُ أَحْسَنُ الخَالِقِينَ».

"Üzüm onu yaradana, Öz qüdrət və gücü ilə onda göz və qulaq açana səcdə etdi. Yaradanların ən

---

[1] Müslim (1/352): (486).

[2] Hədisi Əbu Davud (1/231): (874) və İbn Məcə: (897) rəvayət etmişdir. Həmçinin bax: Səhih İbn Məcə (1/148).

[3] Hədisi, Nəsai istisna olmaqla, Sünən kitabların tərtibçiləri: Əbu Davud (1/231): (850), Tirmizi: (284, 285) və İbn Macə: (898) rəvayət etmişdir. Bax: “Sahih ət-Tirmizi” (1/90) və “Sahih İbn Macə” (1/148).

gözəli olan Allah nə qədər xeyirxahdır!".

[Muminun 23 surəsi, ayə 14][1].

«اللَّهُمَّ اكْتُبْ لِي بِهَا عِنْدَكَ أَجْرًا، وَضَعْ عَنِّي بِهَا وِزْرًا، وَاجْعَلْهَا لِي عِنْدَكَ ذُخْرًا، وَتَقَبَّلْهَا مِنِّي كَمَا تَقَبَّلْتَهَا مِنْ عَبْدِكَ دَاوُدَ».

"Allahım! Buna görə Öz dərgahında mənə bir əcr yaz, bir günahımı üstümdən qaldır, bunu mənim üçün Öz dərgahında bir xəzinə et və onu qulun Davuddan qəbul etdiyin kimi məndən də qəbul et!"[2].

## 22. Təşəhhüd duası.

«التَّحِيَّاتُ لِلَّهِ، وَالصَّلَوَاتُ، وَالطَّيِّبَاتُ، السَّلَامُ عَلَيْكَ أَيُّهَا النَّبِيُّ وَرَحْمَةُ اللَّهِ وَبَرَكَاتُهُ، السَّلَامُ عَلَيْنَا وَعَلَى عِبَادِ اللَّهِ الصَّالِحِينَ، أَشْهَدُ أَنْ لَا إِلَهَ إِلَّا اللَّهُ وَأَشْهَدُ أَنَّ مُحَمَّدًا عَبْدُهُ وَرَسُولُهُ».

"Salamlar, dualar və gözəl şeylər Allaha aiddir. Ey Peyğəmbər, sənə Allahın salamı, mərhəməti və bərəkəti olsun! Bizə və Allahın əməlisaleh qullarına salam olsun! Mən şahidlik edirəm ki, Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur və şahidlik edirəm ki, Muhəmməd Onun qulu və elçisidir"[3].

---

[1] Hədisi Tirmizi (2/474): (3425), İmam Əhməd (6/30): (24022) və Hakim rəvayət etmişdir. [Hakim] hədisin səhih olduğunu bildirmiş və Zəhəbi də (1/220) onunla razılaşmışdır. Hədisdəki əlavə ona (Hakimə) aiddir.

[2] Hədisi Tirmizi (2/473): (579) və Hakim (1/219) rəvayət etmişdir. Hakim hədisin səhih olduğunu bilirdmişdir və Zəhəbi də onunla razılaşmışdır.

[3] Hədisi Buxari "Fəth" ilə (2/311): (831) və Müslim (1/301): (402) rəvayət etmişdir.

## 23. Təşəhhüddən sonra Peyğəmbərə, Allahın salavatı və salamı onun üzərinə olsun, oxunan salavat.

«اللَّهُمَّ صَلِّ عَلَى مُحَمَّدٍ، وَعَلَى آلِ مُحَمَّدٍ، كَمَا صَلَّيتَ عَلَى إِبْرَاهِيمَ، وَعَلَى آلِ إِبْرَاهِيمَ، إِنَّكَ حَمِيدٌ مَجِيدٌ، اللَّهُمَّ بَارِكْ عَلَى مُحَمَّدٍ وَعَلَى آلِ مُحَمَّدٍ، كَمَا بَارَكْتَ عَلَى إِبْرَاهِيمَ وَعَلَى آلِ إِبْرَاهِيمَ، إِنَّكَ حَمِيدٌ مَجِيدٌ».

"Allahım! İbrahimə və İbrahimin ailəsinə xeyir-dua verdiyin kimi, Muhəmmədə də və Muhəmmədin ailəsinə xeyir-dua ver! Şübhəsiz ki, Sən Tərifəlayiqsən, Şan-şöhrətlisən! Allahım! İbrahimə və İbrahimin ailəsinə bərəkət verdiyin kimi, Muhəmmədə və Muhəmmədin ailəsinə də bərəkət ver! Şübhəsiz ki, Sən Tərifəlayiqsən, Şan-şöhrətlisən!"[1].

«اللَّهُمَّ صَلِّ عَلَى مُحَمَّدٍ وَعَلَى أَزْوَاجِهِ وَذُرِّيَّتِهِ، كَمَا صَلَّيْتَ عَلَى آلِ إِبْرَاهِيمَ، وَبَارِكْ عَلَى مُحَمَّدٍ وَعَلَى أَزْواجِهِ وَذُرِّيَّتِهِ، كَمَا بَارَكْتَ عَلَى آلِ إِبْرَاهِيمَ، إِنَّكَ حَمِيدٌ مَجِيدٌ».

"Allahım! İbrahimin ailə-sinə xeyir-dua verdiyin kimi, Muhammədə və Muhammədin zövcələrinə və övladlarına da xeyir-dua ver! Allahım! İbrahimin ailəsinə bərə-kət verdiyin kimi, Muhammədə və Muhammə-din zövcələrinə və övladlarına da bərəkət ver! Şübhəsiz ki, Sən Tərifəlayiqsən, Şan-

[1] Hədisi Buxari, "Fəthul-Bari" ilə (6/408): (3370) və Müslim: (406) rəvayət etmişdir.

şöh-rətlisən!"[1].

## 24. Axırıncı təşəhhüddən sonra, salamdan əvvəl edilən dua.

«اللَّهُــمَّ إِنِّي أَعُوذُ بِكَ مِنْ عَذَابِ القَبْرِ، وَمِنْ عَذَابِ جَهَنَّمَ، وَمِنْ فِتْنَةِ المَحْيَا وَالمَمَاتِ، وَمِنْ شَرِّ فِتْنَةِ المَسِيحِ الدَّجَّالِ».

"Allahım! Qəbr əzabından, Cəhənnəm əzabından, həyatın və ölümün fitnəsindən və Məsih Əd-Dəccəlin fitnəsinin şərindən Sənə sığınıram"[2].

«اللَّهُمَّ إِنِّي أَعُوذُ بِكَ مِنْ عَذَابِ القَبْرِ، وَأَعُوذُ بِكَ مِنْ فِتْنَةِ المَسِيحِ الدَّجَّالِ، وَأَعُوذُ بِكَ مِنْ فِتْنَةِ المَحْيَا وَالمَمَاتِ، اللَّهُمَّ إِنِّي أَعُوذُ بِكَ مِنَ المَأْثَمِ وَالمَغْرَمِ».

«Allahım! Qəbr əzabından, Məsih Əd-Dəccəlin fitnəsindən, həyatın və ölümün fitnəsindən Sənə sığınıram. Allahım! Günahdan və borcdan Sənə sığınıram»[3].

«اللَّهُمَّ إِنِّي ظَلَمْتُ نَفْسِي ظُلْمًا كَثِيرًا، وَلَا يَغْفِرُ الذُّنُوبَ إِلَّا أَنْتَ، فَاغْفِرْ لِي مَغْفِرَةً مِنْ عِنْدِكَ وَارْحَمْنِي، إِنَّكَ أَنْتَ الغَفُورُ الرَّحِيمُ».

"Allahım! Mən özümə çoxlu zülm etdim. Günahları yalnız Sən bağışlayırsan. Günahımdan keçməklə məni bağışla və mənə rəhm et.

---

[1] Hədisi Əl-Buxari, Fəth ilə (6/407): (3369) və Müslim (1/306): (407) rəvayət etmişdir. Ləfzi isə Müslimə aiddir.

[2] Hədisi Buxari (2/102): (1377) və Müslim (1/412): (588) rəvayət etmişdir. Hədisin ləfzi Müslimə aiddir.

[3] Hədisi Buxari (1/202): (832) və Müslim (1/412): (587) rəvayət etmişdir.

Həqiqətən, Sən Bağış-layan-san, Rəhmlisən!"[1].

«اللَّهُمَّ اغْفِرْ لِي مَا قَدَّمْتُ، وَمَا أَخَّرْتُ، وَمَا أَسْرَرْتُ، وَمَا أَعْلَنْتُ، وَمَا أَسْرَفْتُ، وَمَا أَنْتَ أَعْلَمُ بِهِ مِنِّي، أَنْتَ المُقَدِّمُ، وَأَنْتَ المُؤَخِّرُ لَا إِلَهَ إِلَّا أَنْتَ».

"Allahım! Etdiyim və sonra edəcəyim, gizlin saxladığım və üzə çıxardığım, israfa yol verdiyim və məndən daha yaxşı bildiyin günahlarımı bağışla! Əvvələ çəkən də Sənsən, təxirə salan da Sənsən. Səndən başqa ilah yoxdur"[2].

«اللَّهُمَّ أَعِنِّي عَلَى ذِكْرِكَ، وَشُكْرِكَ، وَحُسْنِ عِبادَتِكَ».

"Allahım! Səni zikr etmək, Sənə şükür etmək və Sənə gözəl şəkildə ibadət etmək üçün mənə yardım et!"[3].

«اللَّهُمَّ إِنِّي أَعُوذُ بِكَ مِنَ البُخْلِ، وَأَعُوذُ بِكَ مِنَ الجُبْنِ، وَأَعُوذُ بِكَ مِنْ أَنْ أُرَدَّ إِلَى أَرْذَلِ العُمُرِ، وَأَعُوذُ بِكَ مِنْ فِتْنَةِ الدُّنْيَا وَعَذَابِ القَبْرِ».

"Allahım! Xəsislikdən, qorxaqlıqdan, ömrün ən rəzil çağına qaytarılmaqdan, dünyanın fitnəsindən və qəbir əzabından Sənə sığınıram"[4].

«اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ الجَنَّةَ وَأَعُوذُ بِكَ مِنَ النَّارِ».

"Allahım! Mən Səndən Cənnəti istəyirəm və

---

[1] Hədisi Buxari (8/168): (834) və Müslim (4/2078): (2705) rəvayət etmişdir.
[2] Hədisi Müslim: (1/534), (771) rəvayət etmişdir.
[3] Hədisi Əbu Davud (2/86): (1522), Nəsai (3/53): (2302) rəvayət etmişdir. Albani "Sahih Əbu Davud" əsərində: (1/284) hədisin səhih olduğunu bildirmişdir.
[4] Hədisi Buxari "əl-Fəth" ilə (6/35): (2822) və (6390) rəvayət etmişdir.

Cəhənnəmdən Sənə sığınıram!"[1].

«اللَّهُمَّ بِعِلْمِكَ الغَيْبَ وَقُدْرَتِكَ عَلَى الخَلقِ أَحْيِنِي مَا عَلِمْتَ الحَيَاةَ خَيْرًا لِي، وَتَوَفَّنِي إِذَا عَلِمتَ الْوَفَاةَ خَيْرًا لِي، اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ خَشْيَتَكَ فِي الغَيْبِ وَالشَّهَادَةِ، وَأَسْأَلُكَ كَلِمَةَ الحَقِّ فِي الرِّضَا وَالغَضَبِ، وَأَسْأَلُكَ القَصْدَ فِي الغِنَى وَالفَقْرِ، وَأَسْأَلُكَ نَعِيمًا لَا يَنْفَدُ، وَأَسْأَلُكَ قُرَّةَ عَيْنٍ لَا تَنْقَطِعُ، وَأَسْأَلُكَ الرِّضَا بَعْدَ القَضَاءِ، وَأَسْأَلُكَ بَرْدَ العَيْشِ بَعْدَ المَوْتِ، وَأَسْأَلُكَ لَذَّةَ النَّظَرِ إِلَى وَجْهِكَ، وَالشَّوْقَ إِلَى لِقَائِكَ فِي غَيرِ ضَرَّاءَ مُضِرَّةٍ، وَلَا فِتْنَةٍ مُضِلَّةٍ، اللَّهُمَّ زَيِّنَا بِزِينَةِ الإِيمَانِ، وَاجْعَلْنَا هُدَاةً مُهْتَدِينَ».

«Allahım! Qeyb elmin və məxluqat üzərindəki qüdrətinlə, həyatın mənim üçün xeyirli olduğunu bildiyin müddətcə məni yaşat, ölümün mənim üçün xeyirli olduğunu bildikdə isə canımı al! Allahım! Mən Səndən gizlində və aşkarda Səndən qorxmağı diləyirəm! Səndən razılıq və qəzəb anında - haqq sözünü diləyirəm! Səndən varlılıq və yoxsulluqda mötədilliyi diləyirəm! Səndən tükənməz nemət diləyirəm! Səndən ardı-arası kəsilməyən göz aydınlığı diləyirəm! Səndən qəzadan sonra razılığı diləyirəm! Səndən ölümdən sonra rahat bir həyat diləyirəm! Səndən Sənin Üzünə baxmağın ləzzətini, zərərverici bir sıxıntı və azdırıcı bir fitnə olmadan Səninlə görüşməyə olan şövqü diləyirəm! Allahım! Bizi iman zinəti ilə zinətləndir və bizi hidayət

[1] Hədisi Əbu Davud: (792), İbn Məcə: (910) rəvayət etmişdir. Bax: Səhih İbn Məcə (2/328).

tapanlardan və hidayətə yönəldənlərdən et!»[1].

«اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ يَا أَللَّهُ بِأَنَّكَ الوَاحِدُ الأَحَدُ الصَّمَدُ الَّذِي لَمْ يَلِدْ وَلَمْ يُولَدْ، وَلَمْ يَكُنْ لَهُ كُفُوًا أَحَدٌ، أَنْ تَغْفِرَ لِي ذُنُوبِي إِنَّكَ أَنْتَ الغَفُورُ الرَّحِيمُ».

"Allahım! Ey Vahid, Əhəd, Saməd olan, doğmayan və doğulmayan, heç bir tayı-bərabəri olmayan Allah! Səndən günahlarımı bağışlamağını diləyirəm. Həqiqətən, Sən Bağışlayansan, Rəhmlisən!"[2].

«اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ بِأَنَّ لَكَ الحَمْدَ لَا إِلَهَ إِلَّا أَنْتَ وَحْدَكَ لَا شَرِيكَ لَكَ، المَنَّانُ، يَا بَدِيعَ السَّمَوَاتِ وَالأَرْضِ يَا ذَا الجَلَالِ وَالإِكْرَامِ، يَا حَيُّ يَا قَيُّومُ إِنِّي أَسْأَلُكَ الجَنَّةَ وَأَعُوذُ بِكَ مِنَ النَّارِ».

«Allahım! Həmd Sənə məxsusdur, Səndən başqa haqq məbud yoxdur. Sən Təksən, Sənin şərikin yoxdur. Ey Nemətlər Bəxş edən, ey göyləri və yeri bənzərsiz Yaradan, ey əzəmət və kərəm sahibi! Ey daima Diri olan, ey Qəyyum! Mən Səndən Cənnəti diləyir, Cəhənnəmdən Sənə sığınıram»[3].

«اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ بِأَنِّي أَشْهَدُ أَنَّكَ أَنْتَ اللَّهُ لَا إِلَهَ إِلَّا أَنْتَ الأَحَدُ الصَّمَدُ الَّذِي

---

[1] Hədisi Nəsai: (3/54): (1304), Əhməd: (4/364): (21666) rəvayət etmişdir. Albani "Sahih Nəsai" adlı əsərində hədisin səhih olduğunu bildirmişdir (1/281).

[2] Hədisi Nəsai (3/52): (1300) və Əhməd: (4/338): (18974) rəvayət etmişdir. Hədisin ləfzi Nəsaiyə aiddir. Albani Səhih ən-Nəsai adlı əsərində hədisin səhih olduğunu bildirmişdir (1/280).

[3] Hədisi dörd "Sünən" kitabların müəllifləri: Əbu Davud: (1495), Tirmizi: (3544), İbn Macə: (3858) və Nəsai: (1299) rəvayət etmişlər. Bax: Səhih İbn Macə (2/329).

لَمْ يَلِدْ وَلَمْ يُولَدْ وَلَمْ يَكُنْ لَهُ كُفُوًا أَحَدٌ».

«Allahım! Mən, Sənin Allah – Səndən başqa məbud olmayan, Əhəd, Saməd, nə doğmuş, nə də doğulmuş və heç bir tayı-bərabəri olmayan olduğuna şahidlik edərək Səndən diləyirəm»[1].

## 25. Salam verib namazı bitirdikdən sonra oxunan zikrlər.

«أَسْتَغْفِرُ اللَّهَ».

«Allahdan günahlarımın bağışlanmasını diləyirəm!

(Üç dəfə)

اللَّهُمَّ أَنْتَ السَّلَامُ، وَمِنْكَ السَّلَامُ، تَبَارَكْتَ يَا ذَا الجَلَالِ وَالإِكْرَامِ».

[Allahummə əntə-s-sələmu va minkə-s-sələmu, təbəraktə yə zə-l-cələli va-l-ikram]

"Allahım! Salam Sənsən və əmin-amanlıq Səndəndir. Ey əzəmət və ehtiram sahibi! Sən xeyirxahsan"[2].

«لَا إِلَهَ إِلَّا اللَّهُ وَحْدَهُ لَا شَرِيكَ لَهُ، لَهُ المُلْكُ وَلَهُ الحَمْدُ وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ».

[Lə ilahə illəllahu vahdəhu lə şərikə ləh, ləhul mulku va ləhul həmd, va huvə əla kulli şeyin qədir]

---

[1] Hədisi Əbu Davud (2/62): (1493), Tirmizi (5/515): (3475), İbn Məcə (2/1267): (3857), Nəsai: (1300) və Əhməd: (18974) rəvayət etmişdir. Hədisin ləfzi Nəsaiyə aiddir. Albani "Sahih Nəsai" (1/280) adlı əsərində hədisin səhih olduğunu bildirmişdir. Həmçinin bax: "Sahih İbn Məcə" (2/329) və "Sahih Tirmizi" (3/163).

[2] Hədisi Müslim (1/414): (591) rəvayət etmişdir.

"Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur. O təkdir. Onun şəriki yoxdur. Mülk Onundur və həmd Onadır. O hər şeyə qadirdir".

[Üç dəfə].

اللَّهُمَّ لَا مَانِعَ لِمَا أَعْطَيْتَ، وَلَا مُعْطِيَ لِمَا مَنَعْتَ، وَلَا يَنْفَعُ ذَا الْجَدِّ مِنْكَ الْجَدُّ».

[Allahummə, lə mənia limə əataytə və la mu'tiyə limə məna'tə va lə yənfəu zə-l-cəddi minkə-l-cəddu] -

"Allahım! Sənin verdiyinə mane olacaq, mane olduğunu da verəcək (bir kəs) yoxdur. Heç bir hörmət sahibinə Sənin yanında hörməti fayda verməz"[1].

«لَا إِلَهَ إِلَّا اللَّهُ وَحْدَهُ لَا شَرِيكَ لَهُ، لَهُ الْمُلْكُ، وَلَهُ الْحَمدُ، وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ، لَا حَوْلَ وَلَا قُوَّةَ إِلَّا بِاللَّهِ، لَا إِلَهَ إِلَّا اللَّهُ، وَلَا نَعْبُدُ إِلَّا إِيَّاهُ لَهُ النِّعْمَةُ وَلَهُ الْفَضْلُ وَلَهُ الثَّنَاءُ الْحَسَنُ، لَا إِلَهَ إِلَّا اللَّهُ مُخْلِصِينَ لَهُ الدِّينَ وَلَوْ كَرِهَ الْكَافِرُونَ».

"Allahdan başqa haqq məbud yoxdur, O təkdir, Onun şəriki yoxdur. Mülk Onundur və həmd Onadır! O hər şeyə Qadirdir! Qüdrət və güc yalnız Allahdadır! Allahdan başqa məbud yoxdur. Biz yalnız Ona ibadət edirik. Nemət Onundur, lütf Onundur və gözəl tərif Onadır. Allahdan başqa məbud yoxdur. Kafirlərə xoş gəlməsə də, biz dini yalnız Ona məxsus edirik!"[2].

---

[1] Hədisi Buxari (1/255): (844) və Müslim (1/414): (593) rəvayət etmişdir. Mötərizə içindəki əlavə isə Buxaridəndir: (6473).

[2] Hədisi Müslim (1/415): (594) rəvayət etmişdir.

«سُبْحَانَ اللَّهِ، وَالْحَمْدُ لِلَّهِ، وَاللَّهُ أَكْبَرُ».

[Subhanəllah, val-həmdülillah, va Allahu Əkbər]

"Allah pak, nöqsansızdır, Ona həmdi-sənalar olsun, və Allah ən böyük və əzəmətlidir".

(Otuz üç dəfə).

لَا إِلَهَ إِلَّا اللَّهُ وَحْدَهُ لَا شَرِيكَ لَهُ، لَهُ الْمُلْكُ وَلَهُ الْحَمْدُ وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ».

[Lə iləhə illə-l-lahu vahdəhu lə şərikə ləhu. Ləhu-l-mulku və ləhul-həmdu və huvə alə kulli şeyin qadir] -

"Allahdan başqa haqq məbud yoxdur, O təkdir, Onun şəriki yoxdur. Mülk Onundur və həmd Onadır! O hər şeyə Qadirdir!"[1].

﴿قُلْ هُوَ ٱللَّهُ أَحَدٌ ۝١ ٱللَّهُ ٱلصَّمَدُ ۝٢ لَمْ يَلِدْ وَلَمْ يُولَدْ ۝٣ وَلَمْ يَكُن لَّهُۥ كُفُوًا أَحَدٌۢ ۝٤﴾

"(Ey Peyğəmbər!) De: “O Allah Təkdir!
Allah Möhtac deyildir.
O, nə doğub, nə də doğulub,
Onun heç bir bənzəri də yoxdur”.
(İxlas 112 surəsi, ayələr 1-4).

﴿قُلْ أَعُوذُ بِرَبِّ ٱلْفَلَقِ ۝١ مِن شَرِّ مَا خَلَقَ ۝٢ وَمِن شَرِّ غَاسِقٍ إِذَا وَقَبَ ۝٣ وَمِن شَرِّ ٱلنَّفَّٰثَٰتِ فِى ٱلْعُقَدِ ۝٤ وَمِن شَرِّ حَاسِدٍ إِذَا حَسَدَ ۝٥﴾

"(Ey Peyğəmbər!) De: “Sığınıram sübhün

[1] Müslim (1/418): (597). Hədisin ləfzi: «Kim bunu hər namazdan sonra deyərsə, xətaları dəniz köpüyü qədər də olsa, bağışlanar».

Rəbbinə!

Xəlq etdiklərinin şərindən,

zülməti çökən gecənin şərindən,

düyünlərə üfürən (cadugər) qadınların şərindən

və həsəd apardığı zaman paxılın şərindən!"

(Fələq 113 surəsi, ayələr 1-5).

﴿قُلْ أَعُوذُ بِرَبِّ ٱلنَّاسِ ١ مَلِكِ ٱلنَّاسِ ٢ إِلَٰهِ ٱلنَّاسِ ٣ مِن شَرِّ ٱلْوَسْوَاسِ ٱلْخَنَّاسِ ٤ ٱلَّذِى يُوَسْوِسُ فِى صُدُورِ ٱلنَّاسِ ٥ مِنَ ٱلْجِنَّةِ وَٱلنَّاسِ ٦﴾

"(Ey Peyğəmbər!) De: “Sığınıram insanların Rəbbinə,

insanların Sahibinə,

insanların İlahına!

Vəsvəsə verən, (Allahın adı çəkiləndə isə qaçıb) gizlənən şeytanın şərindən.

O şeytan ki, insanların sinələrinə (qəlblərinə) vəsvəsə salır,

(O şeytan) cinlərdən də olur, insanlardan da!”

(ən-Nəs 114 surəsi, ayələr 1-6).

Hər namazdan sonra[1].

﴿ٱللَّهُ لَآ إِلَٰهَ إِلَّا هُوَ ٱلْحَىُّ ٱلْقَيُّومُ ۚ لَا تَأْخُذُهُۥ سِنَةٌ وَلَا نَوْمٌ ۚ لَّهُۥ مَا فِى ٱلسَّمَٰوَٰتِ وَمَا فِى ٱلْأَرْضِ ۗ مَن ذَا ٱلَّذِى يَشْفَعُ عِندَهُۥٓ إِلَّا بِإِذْنِهِۦ ۚ يَعْلَمُ مَا بَيْنَ أَيْدِيهِمْ وَمَا خَلْفَهُمْ ۖ

[1] Əbu Davud (2/86): (1523), Tirmizi: (2903) və Nəsai (3/68): (1335). Bax: Səhih ət-Tirmizi (2/8). Bu üç surəyə "əl-Müəvvizət" deyilir. Bax: Fəthul-Bari (9/62).

وَلَا يُحِيطُونَ بِشَيۡءٖ مِّنۡ عِلۡمِهِۦٓ إِلَّا بِمَا شَآءَۚ وَسِعَ كُرۡسِيُّهُ ٱلسَّمَٰوَٰتِ وَٱلۡأَرۡضَۖ وَلَا يَـُٔودُهُۥ حِفۡظُهُمَاۚ وَهُوَ ٱلۡعَلِيُّ ٱلۡعَظِيمُ﴿٢٥٥﴾

"Allahu lə iləhə illə huvə-l-həyyu-l-qayyum. Lə tə'xuzuhu sinətun valə nəvm. Ləhu mə

fi-s-səməvati vamə fi-l-ard. Mən zəlləzi yəşfəu indəhu illə bi iznihi. Yə'ləmu

mə beynə əydihim vamə xalfəhum. Valə yuhitunə bişeyin min ilmihi illə bimə şəə

vasi'ə kursiyyuhu-s-səməvati va-l-ard. Valə yəuduhu hifzuhumə va huvə-l-aliyyu-l-azim" -

[Allah, Özündən başqa (haqq) məbud olmayandır, (əbədi) Yaşayandır, (bütün yaratdıqlarının) Qəyyumudur. Onu nə mürgü, nə də yuxu tutar. Göylərdə və yerdə nə varsa, (hamısı) Ona məxsusdur. Allahın izni olmadan Onun yanında kim şəfaət edə bilər? O, (qullarının) gələcəyini və keçmişini bilir. Onlar Allahın elmindən Onun istədiyindən başqa heç bir şey qavraya bilməzlər. Onun Kürsüsü göyləri və yeri əhatə etmişdir. Bunları qoruyub saxlamaq Ona ağır gəlməz. O, Ucadır, Əzəmətlidir].

[Bəqərə 2 surəsi, ayə 255]. Hər (fərz) namazdan sonra[1].

---

[1] “Kim onu hər (fərz) namazdan sonra oxuyarsa, onun cənnətə girməsinə ölümündən başqa heç nə mane olmaz”. Hədisi Nəsai “Əməlul-yəum vəl-leylə” əsərində: (100) və İbn Sunni: (121) rəvayət etmişlər. Albani

«لَا إِلَهَ إِلَّا اللَّهُ وَحْدَهُ لَا شَرِيكَ لَهُ، لَهُ المُلْكُ وَلَهُ الحَمْدُ يُحْيِي وَيُمِيتُ وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ».

[Lə iləhə illə-l-lahu vəhdəhu lə şərikə ləhu. Ləhu-l-mulku va ləhul-həmdu, yuhyi va yumitu va huvə alə kulli şeyin qadir] -

"Allahdan başqa məbud yoxdur, O təkdir, Onun şəriki yoxdur. Mülk Onundur və həmd Onadır! O, dirildir və öldürür, O hər şeyə Qadirdir!".

Məğrib və sübh namazlarından sonra on dəfə[1].

«اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ عِلْمًا نافِعًا، وَرِزْقًا طَيِّبًا، وَعَمَلًا مُتَقَبَّلًا».

"Allahım! Səndən faydalı elm, pak ruzi və qəbul olunan əməl diləyirəm"

بَعْدَ السَّلَامِ مِنْ صَلَاةِ الفَجْرِ.

Sübh namazında salam verdikdən sonra[2].

## 26. İstixarə namazının duası.

Cabir bin Abdullah, Allah onların hər ikisindən razı olsun, rəvayət edir ki, Allahın Rəsulu, sallallahu aleyhi va səlləm, bizə bütün işlərdə istixarəni, Qurandan bir surə öyrətdiyi kimi öyrədərdi və belə

---

"Səhihul-Cami" (5/339) və "Silsilətul-Əhadisis-Səhihə" (2/697): (972) əsərlərində hədisi səhih saymışdır.

1 Hədisi Tirmizi (5/515); (3474) və İmam Əhməd (4/227); (17990) rəvayət etmişdir. Həmçinin təxrici üçün bax: "Zadul-Məad" (1/300).

2 Hədisi İbn Maca: (925) və Nəsai "Əməlul-yəum vəl-leylə" adlı əsərində: (102) rəvayət etmişdir. Həmçinin bax: "Səhih İbn Maca" (1/152) və "Məcməuz-Zəvaid" (10/111), (95) nömrəsi ilə də gələcəkdir.

deyərdi:

«إِذَا هَمَّ أَحَدُكُمْ بِالأَمْرِ فَلْيَرْكَعْ رَكْعَتَيْنِ مِنْ غَيْرِ الفَرِيضَةِ، ثُمَّ لِيَقُلْ:

"Sizdən biriniz bir iş görmək istədikdə, iki rükət nafilə namaz qılsın və belə dua etsin:"

اللَّهُمَّ إِنِّي أَسْتَخِيرُكَ بِعِلْمِكَ، وَأَسْتَقْدِرُكَ بِقُدْرَتِكَ، وَأَسْأَلُكَ مِنْ فَضْلِكَ العَظِيمِ؛ فَإِنَّكَ تَقْدِرُ وَلَا أَقْدِرُ، وَتَعْلَمُ وَلَا أَعْلَمُ، وَأَنْتَ عَلَّامُ الغُيُوبِ، اللَّهُمَّ إِنْ كُنْتَ تَعْلَمُ أَنَّ هَذَا الأَمْرَ - وَيُسَمِّي حَاجَتَهُ - خَيْرٌ لِي فِي دِينِي وَمَعَاشِي وَعَاقِبَةِ أَمْرِي – أَوْ قَالَ: عَاجِلِهِ وَآجِلِهِ - فَاقْدُرْهُ لِي وَيَسِّرْهُ لِي ثم بَارِكْ لِي فِيهِ، وَإِنْ كُنْتَ تَعْلَمُ أَنَّ هَذَا الْأَمْرَ شَرٌّ لِي فِي دِينِي وَمَعَاشِي وَعَاقِبَةِ أَمْرِي – أَوْ قَالَ: عَاجِلِهِ وَآجِلِهِ – فَاصْرِفْهُ عَنِّي وَاصْرِفْنِي عَنْهُ وَاقْدُرْ لِيَ الخَيْرَ حَيْثُ كَانَ، ثُمَّ أَرْضِنِي بِهِ».

"Allahım! Səndən Öz elminlə mənə kömək etməyi və Öz qüdrətinlə mənə qüdrət verməyi diləyirəm. Səndən, Sənin böyük lütfünü diləyirəm; Sən qadirsən, mən isə qadir deyiləm, Sən bilirsən, mən isə bilmirəm. Sən, qeybləri bilənsən. Allahım! Bu işin - (və ehtiyac duyduğu şeyi dilə gətirsin) - mənim dinim, yaşayışım və aqibətim üçün – yaxud deyir: dünyam və axirətim üçün – xeyirli olduğunu bilirsənsə, onu mənə nəsib et, asanlaşdır, sonra da onu mənim üçün bərəkətli et. Bu işin mənim dinim, yaşayışım və aqibətim üçün – yaxud deyir: dünyam və axirətim üçün – zərərli olduğunu bilirsənsə, onu məndən, məni də ondan uzaq et! Harada olsa, mənə

xeyir nəsib et, sonra məni ondan razı sal!"[1].

Yaradandan xeyirlisini istəyən, möminlərlə məsləhətləşən və öz işində səbat göstərən kəs peşman olmaz. Uca Allah belə buyurur:

﴿...وَشَاوِرۡهُمۡ فِي ٱلۡأَمۡرِۖ فَإِذَا عَزَمۡتَ فَتَوَكَّلۡ عَلَى ٱللَّهِ...﴾.

"...və (görəcəyin) işlər barədə onlarla məsləhətləş, qəti qərara gəldikdə isə Allaha təvəkkül et..."[2]

## 27. Səhər və axşam zikirləri.

«Həmd Tək Allaha məxsusdur! Özündən sonra heç bir peyğəmbər olmayan Muhammədə salavat və salam olsun!»[3].

«Ə‘uzu bi-Lləhi min əş-şeytənir-rəcim» - "Lənətlənmiş şeytandan Allaha sığınıram".

﴿ٱللَّهُ لَآ إِلَٰهَ إِلَّا هُوَ ٱلۡحَيُّ ٱلۡقَيُّومُۚ لَا تَأۡخُذُهُۥ سِنَةٞ وَلَا نَوۡمٞۚ لَّهُۥ مَا فِي ٱلسَّمَٰوَٰتِ وَمَا فِي ٱلۡأَرۡضِۗ مَن ذَا ٱلَّذِي يَشۡفَعُ عِندَهُۥٓ إِلَّا بِإِذۡنِهِۦۚ يَعۡلَمُ مَا بَيۡنَ أَيۡدِيهِمۡ وَمَا خَلۡفَهُمۡۖ وَلَا يُحِيطُونَ بِشَيۡءٖ مِّنۡ عِلۡمِهِۦٓ إِلَّا بِمَا شَآءَۚ وَسِعَ كُرۡسِيُّهُ ٱلسَّمَٰوَٰتِ وَٱلۡأَرۡضَۖ وَلَا

---

1 Hədisi Buxari (7/162): (1162) rəvayət etmişdir.

2 (Ali-İmran 3 surəsi, ayə 159).

3 Ənəs - Allah ondan razı olsun - rəvayət edir ki, Peyğəmbər, sallallahu aleyhi və səlləm, buyurmuşdur: «Sübh namazından günəş çıxanadək Uca Allahı zikr edən bir qövmlə oturmağım, mənim üçün İsmayıl övladlarından dörd nəfəri azad etməkdən daha sevimlidir. Və Əsr namazından günəş batanadək Allahı zikr edən bir qövmlə oturmağım, mənim üçün dörd nəfəri azad etməkdən daha sevimlidir».
Bu hədisi Əbu Davud (3667) nömrəsi ilə rəvayət etmişdir. Albani "Səhih Əbu Davud" (2/698) əsərində bu hədisi həsən saymışdır.

﴿يَـُٔودُهُۥ حِفۡظُهُمَاۚ وَهُوَ ٱلۡعَلِيُّ ٱلۡعَظِيمُ٢٥٥﴾

"Allahu lə iləhə illə huvə-l-həyyu-l-qayyum. Lə tə'xuzuhu sinətun valə nəvm. Ləhu mə fi-s-səməvati vamə fi-l-ard. Mən zəlləzi yəşfəu indəhu illə bi iznihi. Yə'ləmu mə beynə əydihim vamə xalfəhum. Valə yuhitunə bişeyin min ilmihi illə bimə şəə vasi'ə kursiyyuhu-ssəməvati va-l-ard. Valə yəuduhu hifzuhumə va huvə-l-aliyyu-l-azim" -

[Allah Özündən başqa (haqq) məbud olmayandır, (əbədi) Yaşayandır, (bütün yaratdıqlarının) Qəyyumudur. Onu nə mürgü, nə də yuxu tutar. Göylərdə və yerdə nə varsa, (hamısı) Ona məxsusdur. Allahın izni olmadan Onun yanında kim şəfaət edə bilər? O, (qullarının) gələcəyini və keçmişini bilir. Onlar Allahın elmindən Onun istədiyindən başqa heç bir şey qavraya bilməzlər. Onun Kürsüsü göyləri və yeri əhatə etmişdir. Bunları qoruyub saxlamaq Ona ağır gəlməz. O, Ucadır, Əzəmətlidir].

(Bəqərə 2 surəsi, ayə 255).[1]

﴿قُلۡ هُوَ ٱللَّهُ أَحَدٌ١ ٱللَّهُ ٱلصَّمَدُ٢ لَمۡ يَلِدۡ وَلَمۡ يُولَدۡ٣ وَلَمۡ يَكُن لَّهُۥ كُفُوًا أَحَدُۢ٤﴾

[1] «Kim bunu səhər deyərsə, axşama qədər cinlərdən qorunar. Və hər kim bunu axşam deyərsə, səhərə qədər onlardan qorunar». Hədisi Hakim (1/562) rəvayət etmişdir. Albani "Sahih ət-Tərğib vat-Tərhib" (1/273) adlı əsərində hədisin səhih olduğunu bildirmiş, onu Nəsaiyə və Təbəraniyə nisbət etmiş və demişdir: "Təbəraninin isnadı ceyyiddir (yaxşıdır)".

"(Ey Peyğəmbər!) De: “O Allah Təkdir!
Allah Möhtac deyildir.
O, nə doğub, nə də doğulub,
Onun heç bir bənzəri də yoxdur”.
(İxlas 112 surəsi, ayələr 1-4).

﴿قُلْ أَعُوذُ بِرَبِّ ٱلْفَلَقِ۝١ مِن شَرِّ مَا خَلَقَ۝٢ وَمِن شَرِّ غَاسِقٍ إِذَا وَقَبَ۝٣ وَمِن شَرِّ ٱلنَّفَّٰثَٰتِ فِى ٱلْعُقَدِ۝٤ وَمِن شَرِّ حَاسِدٍ إِذَا حَسَدَ۝٥﴾

"(Ey Peyğəmbər!) De: “Sığınıram sübhün Rəbbinə!
Xəlq etdiklərinin şərindən,
zülməti çökən gecənin şərindən,
düyünlərə üfürən (cadugər) qadınların şərindən
və həsəd apardığı zaman paxılın şərindən!
(Fələq 113 surəsi, ayələr 1-5).

﴿قُلْ أَعُوذُ بِرَبِّ ٱلنَّاسِ۝١ مَلِكِ ٱلنَّاسِ۝٢ إِلَٰهِ ٱلنَّاسِ۝٣ مِن شَرِّ ٱلْوَسْوَاسِ ٱلْخَنَّاسِ۝٤ ٱلَّذِى يُوَسْوِسُ فِى صُدُورِ ٱلنَّاسِ۝٥ مِنَ ٱلْجِنَّةِ وَٱلنَّاسِ۝٦﴾

"(Ey Peyğəmbər!) De: “Sığınıram insanların Rəbbinə,
insanların Sahibinə,
insanların İlahına!
Vəsvəsə verən, (Allahın adı çəkiləndə isə qaçıb) gizlənən şeytanın şərindən
O şeytan ki, insanların sinələrinə (qəlblərinə) vəsvəsə salır,

(O şeytan) cinlərdən də olur, insanlardan da!”
(Nəs 114 surəsi, ayələr 1-6). (Üç dəfə)[1].

«أَصْبَحْنَا وَأَصْبَحَ الْمُلْكُ لِلَّهِ، وَالحَمْدُ لِلَّهِ، لَا إِلَهَ إِلَّا اللَّهُ وَحْدَهُ لَا شَرِيكَ لَهُ، لَهُ الْمُلْكُ وَلَهُ الحَمْدُ وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ، رَبِّ أَسْأَلُكَ خَيْرَ مَا فِي هَذَا الْيَوْمِ وَخَيرَ مَا بَعْدَهُ، وَأَعُوذُ بِكَ مِنْ شَرِّ مَا فِي هَذَا الْيَوْمِ وَشَرِّ مَا بَعْدَهُ، رَبِّ أَعُوذُ بِكَ مِنَ الكَسَلِ وَسُوءِ الكِبَرِ، رَبِّ أَعُوذُ بِكَ مِنْ عَذَابٍ فِي النَّارِ وَعَذَابٍ فِي القَبْرِ».

«Sabaha çıxdıq, mülk də Allahın olaraq sabaha çıxdı. Həmd də Allaha məxsusdur, Allahdan başqa ibadətə və itaətə layiq haqq məbud yoxdur, O təkdir və şəriksizdir, Mülk və Həmd onundur və O, hər şeyə qadirdir. Rəbbim, Səndən bu günün xeyrini və bundan sonrakı xeyri diləyirəm. Bu günün şərrindən və bundan sonrakı şərdən Sənə sığınıram. Rəbbim! Tənbəllikdən və pis qocalıqdan Sənə sığınıram, Rəbbim Cəhənnəm əzabından və qəbir əzabından Sənə sığınıram»[2].

Axşam olanda isə belə deyir:

«أَمْسَيْنَا وَأَمْسَى الْمُلْكُ لِلَّهِ، وَالحَمْدُ لِلَّهِ، لَا إِلَهَ إِلَّا اللَّهُ وَحْدَهُ لَا شَرِيكَ لَهُ، لَهُ الْمُلْكُ وَلَهُ الحَمْدُ وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ، رَبِّ أَسْأَلُكَ خَيْرَ مَا فِي هَذِهِ اللَّيْلَةِ، وَخَيْرَ مَا بَعْدَهَا، وَأَعُوذُ بِكَ مِنْ شَرِّ مَا فِي هَذِهِ اللَّيْلَةِ، وَشَرِّ مَا بَعْدَهَا، رَبِّ أَعُوذُ بِكَ مِنَ الكَسَلِ وَسُوءِ الكِبَرِ، رَبِّ أَعُوذُ بِكَ مِنْ عَذَابٍ فِي النَّارِ وَعَذَابٍ فِي القَبْرِ».

---

1 «Kim bunları səhər və axşam üç dəfə desə, (bu,) hər şeyə qarşı ona kifayət edər». Əbu Davud (4/322): (5082) Tirmizi (5/567): (3575). Bax: “Səhih ət-Tirmizi” (3/182).

2 Hədisi Muslim (4/2088): (2723) rəvayət etmişdir.

[Əmsəyna va əmsəl mülkü lilləh, val həmdü lilləh, lə ilahə illəllahu vahdəhu lə şərikə ləh, ləhul mulku va ləhul həmdu va huva alə kulli şeyin qadir, Rəbbi əsəlukə xeyrə ma fi həzihil-ləyləti, va xayrə mə bədəhə, va əuzu bikə min şərri ma fi həzihil ləyləti, va şərri mə bədəhə, rəbbi əuzu bikə minəl kəsəli va suil kibəri, rəbbi əuzu bikə min əzabin fin nari va əzabin fil qəbr].

«Axşama çıxdıq və mülk də Allahın olaraq axşama çıxdı. Həmd də Allaha məxsusdur, Allahdan başqa ibadətə və itaətə layiq haqq məbud yoxdur, O təkdir və şəriksizdir, Mülk və Həmd onundur və O, hər şeyə qadirdir. Rəbbim, Səndən bu gecənin xeyrini və ondan sonrakı xeyri diləyirəm. Bu gecənin şərrindən və ondan sonrakı şərdən Sənə sığınıram. Rəbbim! Tənbəllikdən və pis qocalıqdan Sənə sığınıram, Rəbbim Cəhənnəm əzabından və qəbir əzabından Sənə sığınıram»[1].

«اللَّهُمَّ بِكَ أَصْبَحْنَا، وَبِكَ أَمْسَيْنَا، وَبِكَ نَحْيَا، وَبِكَ نَمُوتُ وَإِلَيْكَ النُّشُورُ».

«Allahım! Sənin sayəndə səhərə çıxdıq, Sənin sayəndə axşama çıxdıq, Sənin sayəndə yaşayırıq, Sənin sayəndə ölürük! Qayıdış isə Sənədir!»[2].

Axşam olduqda isə belə deyir:

«اللَّهُمَّ بِكَ أَمْسَيْنَا، وَبِكَ أَصْبَحْنَا، وَبِكَ نَحْيَا، وَبِكَ نَمُوتُ، وَإِلَيْكَ الْمَصِيرُ».

---

[1] Həmin mənbə.
[2] Tirmizi (5/466), hədis: (3391) və bax: Səhih Tirmizi (3/142).

«Allahummə bikə əmsaynə, va bikə əsbahnə, va bikə nahya, va bikə nəmutu, va iləykəl-masir» - «Allahım! Sənin sayəndə axşama çıxdıq, Sənin sayəndə səhərə çıxdıq, Sənin sayəndə yaşayırıq, Sənin sayəndə ölürük! Dönüş isə Sənədir!»[1].

«اللَّهُمَّ أَنْتَ رَبِّي لَا إِلَهَ إِلَّا أَنْتَ، خَلَقْتَنِي وَأَنَا عَبْدُكَ، وَأَنَا عَلَى عَهْدِكَ وَوَعْدِكَ مَا اسْتَطَعْتُ، أَعُوذُ بِكَ مِنْ شَرِّ مَا صَنَعْتُ، أَبُوءُ لَكَ بِنِعْمَتِكَ عَلَيَّ، وَأَبُوءُ بِذَنْبِي فَاغْفِرْ لِي فَإِنَّهُ لَا يَغْفِرُ الذُّنُوبَ إِلَّا أَنْتَ».

«Allahım, Sən mənim Rəbbimsən, Səndən başqa haqq məbud yoxdur, məni Sən yaratdın və mən Sənin qulunam, bacardığım qədər Sənin əhdinə və vədinə sadiqəm. Etdiklərimin şərrindən Sənə sığınıram, mənə verdiyin neməti etiraf edirəm[2] və günahımı boynuma alıram. Elə isə məni bağışla, çünki Səndən başqa heç kim günahları bağışlamaz»[3].

«اللَّهُمَّ إِنِّي أَصْبَحْتُ أُشْهِدُكَ، وَأُشْهِدُ حَمَلَةَ عَرْشِكَ، وَمَلَائِكَتِكَ، وَجَمِيعَ خَلْقِكَ، أَنَّكَ أَنْتَ اللَّهُ لَا إِلَهَ إِلَّا أَنْتَ وَحْدَكَ لَا شَرِيكَ لَكَ، وَأَنَّ مُحَمَّدًا عَبْدُكَ وَرَسُولُكَ».

«Allahım! Sənin Özündən başqa məbud olmayan, Tək və şəriksiz Allah olduğuna,

[1] Həmin mənbə.
[2] İqrar və etiraf edirəm.
[3] «Hər kim bunu axşam, buna yəqinliklə inanaraq desə və həmin gecə ölsə, Cənnətə daxil olar. Və səhər də eynilə belədir». Buxari rəvayət etmişdir (7/150): (6306).

Muhəmmədin Sənin qulun və rəsulun olduğuna - Səni, Ərşini daşıyanları, mələklərini və bütün yaratdıqlarını şahid tutaraq səhərə çıxdım»

Dörd dəfə[1].

Axşam düşəndə isə belə deyir:

«اللَّهُمَّ إِنِّي أَمْسَيْتُ أُشْهِدُكَ، وَأُشْهِدُ حَمَلَةَ عَرْشِكَ، وَمَلَائِكَتِكَ، وَجَمِيعَ خَلْقِكَ، أَنَّكَ أَنْتَ اللَّهُ لَا إِلَهَ إِلَّا أَنْتَ وَحْدَكَ لَا شَرِيكَ لَكَ، وَأَنَّ مُحَمَّدًا عَبْدُكَ وَرَسُولُكَ».

«Allahummə inni əmsəytu uşhidukə, va uşhidu həmələtə ərşikə, va mələikətikə, va cəmi‘ə xalqikə, ənnəkə əntə-Allahu, lə iləhə illə əntə vəhdəkə lə şərikə lək, va ənnə Muhəmmədən abdukə va rəsulukə» -

"Allahım! Sənin Özündən başqa məbud olmayan, Tək və şəriksiz Allah olduğuna, Muhəmmədin Sənin qulun və rəsulun olduğuna - Səni, Ərşini daşıyanları, mələklərini və bütün yaratdıqlarını şahid tutaraq axşama çıxdım".

Dörd dəfə[2].

«اللَّهُمَّ مَا أَصْبَحَ بِي مِنْ نِعْمَةٍ أَوْ بِأَحَدٍ مِنْ خَلْقِكَ فَمِنْكَ وَحْدَكَ لَا شَرِيكَ لَكَ، فَلَكَ الحَمْدُ وَلَكَ الشُّكْرُ».

---

1 «Kim bunu səhər və ya axşam dörd dəfə desə, Allah onu bütünlüklə Cəhənnəm oddan xilas edər». Bunu Əbu Davud (4/317): (5071), Buxari "əl-Ədəbul-Mufrad" əsərində (1201), Nəsai "Əməlul-yəumi vəl-leylə" əsərində (9) və İbn əs-Sunni (70) rəvayət etmişdir. Şeyx İbn Bəz, Allah ona rəhmət etsin, "Tuhfətul-Əxyar" (səh: 23) kitabında Nəsainin və Əbu Davudun isnadını həsən saymışdır.

2 Həmin mənbə.

«Allahım! Bu səhər mənə və ya yaratdıqlarından hər hansı birinə verdiyin nemət Səndəndir. Sən Təksən, şərikin yoxdur. Həmd Sənədir, şükür Sənədir!»[1].

Axşam olduqda isə deyir:

«اللَّهُمَّ مَا أَمْسَى بِي مِنْ نِعْمَةٍ أَوْ بِأَحَدٍ مِنْ خَلْقِكَ فَمِنْكَ وَحْدَكَ لَا شَرِيكَ لَكَ، فَلَكَ الحَمْدُ وَلَكَ الشُّكْرُ».

«Allahummə mə əmsə bi min ni‘mətin əv bi-əhədin min xəlqikə fə-minkə vəhdəkə lə şərikə lək, fə ləkəl-həmdu va ləkəş-şükür» -

"Allahım! Bu axşam mənə və ya yaratdıqlarından hər hansı birinə verdiyin nemət Səndəndir. Sən Təksən, şərikin yoxdur. Həmd Sənədir, şükür Sənədir!"[2].

«اللَّهُمَّ عَافِنِي فِي بَدَنِي، اللَّهُمَّ عَافِنِي فِي سَمْعِي، اللَّهُمَّ عَافِنِي فِي بَصَرِي، لَا إِلَهَ إِلَّا أَنْتَ، اللَّهُمَّ إِنِّي أَعُوذُ بِكَ مِنَ الكُفْرِ، وَالفَقْرِ، وَأَعُوذُ بِكَ مِنْ عَذَابِ القَبْرِ، لَا إِلَهَ إِلَّا أَنْتَ».

"Allahım! Bədənimi salamat et! Allahım! Qulağımı salamat et! Allahım! Gözümü salamat et! Səndən başqa ilah yoxdur! Allahım! Küfrdən,

---

1 «Kim bunu səhər deyərsə, gününün şükrünü əda etmiş olar. Və kim bunu axşam deyərsə, gecəsinin şükrünü əda etmiş olar». Əbu Davud (4/318) rəqəm (5075), Nəsai “Əməlul-yəumi vəl-leylə”, rəqəm (7), İbn əs-Sunni, rəqəm (41), və İbn Hibban, “Məvarid”, rəqəm (2361) rəvayət etmişdir. İbn Bəz, rahiməhullah, isə “Tuhfətul-əxyar” (səh: 24) kitabında onun isnadını həsən saymışdır.

2 Həmin mənbə.

yoxsulluqdan və qəbir əzabından Sənə sığınıram. Səndən başqa ilah yoxdur!"

Üç dəfə[1].

«حَسْبِيَ اللَّهُ لَا إِلَهَ إِلَّا هُوَ عَلَيْهِ تَوَكَّلْتُ وَهُوَ رَبُّ الْعَرْشِ الْعَظِيمِ».

[Həsbiyə Allahu lə ilahə illə huvə, aleyhi təvəkkəltu va huvə Rabbul-arşil-azim] -

"Allah mənə yetər, Ondan başqa ibadətə layiq məbud yoxdur. Ona təvəkkül etdim və O əzəmətli ərşin Rəbbidir".

Yeddi dəfə[2].

«اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ الْعَفْوَ وَالْعَافِيَةَ فِي الدُّنْيَا وَالْآخِرَةِ، اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ الْعَفْوَ وَالْعَافِيَةَ: فِي دِينِي وَدُنْيَايَ وَأَهْلِي، وَمَالِي، اللَّهُمَّ اسْتُرْ عَوْرَاتِي، وَآمِنْ رَوْعَاتِي، اللَّهُمَّ احْفَظْنِي مِنْ بَيْنِ يَدَيَّ، وَمِنْ خَلْفِي، وَعَنْ يَمِينِي، وَعَنْ شِمَالِي، وَمِنْ فَوْقِي، وَأَعُوذُ بِعَظَمَتِكَ أَنْ أُغْتَالَ مِنْ تَحْتِي».

"Allahım! Dünyada və axirətdə Səndən əfv və salamatlıq diləyirəm! Allahım! Dinim, dünyam, ailəm və malım üçün Səndən əfv və salamatlıq diləyirəm! Allahım! Eyiblərimi ört və

---

[1] Əbu Davud (4/324): (5092), Əhməd (5/42): (20430), Nəsai “Əməlu-l-yəvmi və-l-leylə” əsərində: (22), İbn Sunni: (69), Buxari “Ədəbu-l-mufrad” əsərində: (701), Əllamə İbn Baz, Allah ona rəhmət etsin, isə “Tuhfətu-l-əxyar” kitabında (səh: 26) isnadını həsən hesab etmişdir.

[2] «Kim bunu səhər-axşam yeddi dəfə desə, Allah onu narahat edən dünya və axirət işlərinə qarşı kifayət edər». İbn əs-Sünni "mərfu" olaraq (71) və Əbu Davud "məuquf" olaraq (4/321): (5081) rəvayət etmişdir. Şueyb və Əbdülqadir əl-Ərnaut hədisin isnadını səhih hesab etmişlər. Bax: “Zadul-Məad” (2/376).

qorxularımdan məni əmin-amanlıqda et! Allahım! Məni önümdən, arxamdan, sağımdan, solumdan və başımın üstündən qoru. Ayağımın altının qazılmasından Sənin əzəmətinə sığınıram"[1].

«اللَّهُمَّ عَالِمَ الغَيْبِ وَالشَّهَادَةِ فَاطِرَ السَّمَوَاتِ وَالأَرْضِ، رَبَّ كُلِّ شَيْءٍ وَمَلِيكَهُ، أَشْهَدُ أَنْ لَا إِلَهَ إِلَّا أَنْتَ، أَعُوذُ بِكَ مِنْ شَرِّ نَفْسِي، وَمِنْ شَرِّ الشَّيْطَانِ وَشَرَكِهِ، وَأَنْ أَقْتَرِفَ عَلَى نَفْسِي سُوءًا، أَوْ أَجُرَّهُ إِلَى مُسْلِمٍ».

«Qeybdə və aşkarda olanı Bilən, göyləri və yeri yaradan, Hər şeyin Rəbbi və Hökmdarı olan Allahım! Şahidlik edirəm ki, Səndən başqa ibadətə layiq haqq məbud yoxdur. Nəfsimin şərindən, şeytanın şərrindən və şirkindən, özümə pislik etməkdən yaxud onu bir müsəlmana yetirməkdən Sənə sığınıram»[2].

«بِسْمِ اللَّهِ الَّذِي لَا يَضُرُّ مَعَ اسْمِهِ شَيْءٌ فِي الأَرْضِ وَلَا فِي السَّمَاءِ وَهُوَ السَّمِيعُ العَلِيمُ»

«Adı çəkildikdə nə yerdə, nə də göydə heç bir şeyin zərər vermədiyi Allahın adı ilə! O, Eşidəndir, Bilən-dir!»

Üç dəfə[3].

---

[1] Hədisi Əbu Davud: (5074), İbn Məcə: (3871) rəvayət etmiş. Həmçinin bax: Səhih İbn Məcə (2/332).

[2] Tirmizi (3392) və Əbu Davud (5067) rəvayət etmişdir. Həmçinin bax: Səhih Tirmizi (3/142).

[3] "Kim bunu səhər üç dəfə və axşam üç dəfə deyərsə, ona heç bir şey zərər verməz". Hədisi Əbu Davud (4/323): (5088), Tirmizi (5/465): (3388), İbn Macə (3869) və İmam Əhməd (446) rəvayət etmişdir. Bax: "Sahih İbn

«رَضِيتُ بِاللَّهِ رَبًّا، وَبِالإِسْلَامِ دِينًا، وَبِمُحَمَّدٍ ﷺ نَبِيًّا».

«Allahın Rəbb, İslamın din, Muhammədin ﷺ isə peyğəmbər olduğuna razı oldum»

Üç dəfə[1].

«يَا حَيُّ يَا قَيُّومُ بِرَحْمَتِكَ أَسْتَغِيثُ أَصْلِحْ لِي شَأْنِي كُلَّهُ وَلَا تَكِلْنِي إِلَى نَفْسِي طَرْفَةَ عَيْنٍ».

"Ey (əbədi) Yaşayan, ey Qəyyum (kai-natı yaradan və onu idarə edən, bəndələrinin işlərini yoluna qoyan və on-ları qoruyan)! Mər-həmətinlə Səndən kömək dilə-yirəm! Bütün işlərimi yoluna qoy və məni bir göz qırpımı belə öz nəfsimlə başlı-başına buraxma!"[2].

«أَصْبَحْنَا وَأَصْبَحَ المُلْكُ لِلَّهِ رَبِّ العَالَمِينَ، اللَّهُـمَّ إِنِّي أَسْأَلُكَ خَيْرَ هَذَا اليَوْمِ: فَتْحَهُ، وَنَصْرَهُ، وَنورَهُ، وَبَرَكَتَهُ، وَهُدَاهُ، وَأَعُوذُ بِكَ مِنْ شَرِّ مَا فِيهِ وَشَرِّ مَا بَعْدَهُ».

«Sabaha çıxdıq, mülk də aləmlərin Rəbbi Allaha məxsus olaraq sabaha çıxdı. Allahım! Səndən bu günün fəthini, zəfərini, nurunu, bərəkətini və hidayətini diləyirəm. Bu günün şərrindən və ondan

---

Macə" (2/332). Əllamə İbn Baz, rahiməhullah, "Tuhfətul-Əxyar" (səh: 39) adlı əsərində onun isnadını həsən saymışdır.

[1] "Kim bunu səhər üç dəfə və axşam üç dəfə deyərsə, Qiyamət günü Allahın onu razı etməsi vacib olar". Əhməd (4/337): (18967), Nəsai "Əməlu-l-yəvmi və-l-leylə" əsərində (4), İbn Sunni (68), Əbu Davud (4/318): (1531) və Tirmizi (5/465): (3389) rəvayət etmişdir. İbn Baz, Allah ona rəhmət etsin, "Tuhfətu-l-Əxyar" (səh. 39) əsərində hədisin həsən olduğunu bildirmişdir.

[2] Hədisi Hakim rəvayət etmiş və səhih olduğunu bildirmişdir, Zəhəbi də (1/545) onunla razılaşmışdır. Bax: "Səhihut-Tərğib vat-Tərhib" (1/273).

sonrakı şərdən Sənə sığınıram»[1].

Axşam olduqda isə belə deyir:

«أَمْسَيْنَا وَأَمْسَى المُلْكُ لِلَّهِ رَبِّ العَالَمِينَ، اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ خَيْرَ هَذِهِ اللَّيْلَةِ: فَتْحَهَا، وَنَصْرَهَا، وَنُورَهَا، وَبَرَكَتَهَا، وَهُدَاهَا، وَأَعُوذُ بِكَ مِنْ شَرِّ مَا فِيهَا، وَشَرِّ مَا بَعْدَهَا».

«Əmsaynə va əmsəl-mulku lilləhi Rabbil Aləmin. Allahumma, inni əsəlukə xeyra həzihi-l-leyləti: fəthəhə, va nasrahə, va nurəhə, va bərakətəhə, va hudəhə, va əuzu bikə min şərri mə fihə, va şərri mə bədəhə» -

"Axşama çıxdıq və mülk də aləmlərin Rəbbi olan Allahın olaraq axşama çıxdı. Allahım! Səndən bu gecənin xeyrini: fəthini, zəfərini, nurunu, bərəkətini və hidayətini diləyir, bu gecədə olanın və ondan sonrakının şərrindən Sənə sığınıram"[2].

«أَصْبَحْنا عَلَى فِطْرَةِ الإِسْلَامِ، وَعَلَى كَلِمَةِ الإِخْلَاصِ، وَعَلَى دِينِ نَبِيِّنَا مُحَمَّدٍ ﷺ، وَعَلَى مِلَّةِ أَبِينَا إِبْرَاهِيمَ، حَنِيفًا مُسْلِمًا وَمَا كَانَ مِنَ المُشْرِكِينَ».

«İslam fitrəti üzərində, ixlas kəlməsi üzərində, Peyğəmbərimiz Muhəmmədin (sallallahu aleyhi və səlləm) dini üzərində və hənif müsəlman olub müşriklərdən olmayan atamız İbrahimin dini

---

1 Əbu Davud (4/322): (5084); Şueyb və Abdulqadir əl-Arnaut isə Zədul-Məad kitabının təhqiqində (2/373) isnadını həsən hesab etmişlər.

2 Həmin mənbə.

üzərində səhərə çıxdıq»[1].

Axşam olduqda isə belə deyir:

«أَمْسَيْنَا عَلَى فِطْرَةِ الإِسْلَامِ، وَعَلَى كَلِمَةِ الإِخْلَاصِ، وَعَلَى دِينِ نَبِيِّنَا مُحَمَّدٍ ﷺ، وَعَلَى مِلَّةِ أَبِينَا إِبْرَاهِيمَ، حَنِيفًا مُسْلِمًا وَمَا كَانَ مِنَ الْمُشْرِكِينَ».

«Əmsəynə alə fitrati-l-İsləmi, va alə kəliməti-l-ixlasi, va alə dini nəbiyynə Muhəmmədin (sallallahu aleyhi və səlləm), va alə milləti əbinə İbrahimə, hənifən muslimən va mə kənə minə-l-muşrikın» -

"İslam fitrəti üzərində, ixlas kəlməsi üzərində, Peyğəmbərimiz Muhəmmədin (sallallahu aleyhi və səlləm) dini üzərində və hənif müsəlman olub müşriklərdən olmayan atamız İbrahimin dini üzərində axşama çıxdıq"[2].

«سُبْحَانَ اللَّهِ وَبِحَمْدِهِ».

[Subhənallahi va bihəmdihi] -

"Allah pak və nöqsansızdır və həmd Ona məxsusdur".

Yüz dəfə[3].

«لَا إِلَهَ إِلَّا اللَّهُ وَحْدَهُ لَا شَرِيكَ لَهُ، لَهُ الْمُلْكُ وَلَهُ الْحَمْدُ، وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ».

[Lə iləhə illə-l-lahu vahdəhu lə şərikə ləhu. Ləhu-

---

[1] Hədisi İmam Əhməd "Müsnəd" əsərində (3/406): (407, 15360, 15563) və İbn Sünni "Aməlu-l-yəumi və-l-leyləh" adlı əsərində (34) rəvayət etmişdir. Bax: Səhih əl-Cami (4/209).

[2] Həmin mənbə.

[3] «Kim bunu səhər-axşam yüz dəfə desə, Qiyamət günü heç kəs onun gətirdiyindən daha əfzəl bir şey gətirməz, onun dediyi kimi və ya ondan artıq deyən kimsə istisna olmaqla» Müslim (4/2071), rəqəm (2692).

l-mulku va ləhul-həmdu va huvə alə kulli şeyin qadir] -

"Allahdan başqa məbud yoxdur. O təkdir. Onun şəriki yoxdur. Mülk Onundur və həmd Onadır! O hər şeyə Qadirdir!"

On dəfə[1] və ya tənbəllik zamanı bir dəfə[2].

«لَا إِلَهَ إِلَّا اللَّهُ، وَحْدَهُ لَا شَرِيكَ لَهُ، لَهُ الْمُلْكُ وَلَهُ الْحَمْدُ وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ».

[Lə iləhə illə-l-lahu vahdəhu lə şərikə ləhu. Ləhu-l-mulku va ləhul-həmdu va huvə alə kulli şeyin qadir] -

"Allahdan başqa məbud yoxdur. O təkdir. Onun şəriki yoxdur. Mülk Onundur və həmd Onadır! O hər şeyə Qadirdir!"

Səhər yüz dəfə[3].

«سُبْحَانَ اللَّهِ وَبِحَمْدِهِ: عَدَدَ خَلْقِهِ، وَرِضَا نَفْسِهِ، وَزِنَةَ عَرْشِهِ، وَمِدَادَ كَلِمَاتِهِ».

"Allah pak və müqəddəsdir və Ona həmd olsun, yaratdıqlarının sayı qədər, Özünün razı qalacağı

---

[1] Hədisi Nəsai "Əməlul-yəumi vəl-leylə" (24) adlı əsərində rəvayət etmişdir. Bax: "Səhih ət-Tərğib vət-Tərhib" (1/272) və İbn Bazın, Allah ona rəhmət etsin, "Tuhfətul-Əxyar" (səh: 44). Fəziləti haqqında isə bax: (səh: 146), hədis (255).

[2] Hədisi Əbu Davud: (5077), İbn Məcə: (3798) və Əhməd: (8719) rəvayət etmişdir. Həmçinin bax: Səhih ət-Tərğib vət-Tərhib (1/270), Səhih Əbu Davud (3/957), Səhih İbn Məcə (2/331) və Zədul-Məad (2/377).

[3] «Kim bunu bir gündə yüz dəfə deyərsə, bu, onun üçün on qul azad etməyə bərabər olar, ona yüz həsənət yazılar, yüz günahı silinər və həmin gün axşama qədər şeytandan qorunmaq üçün bir sipər olar. Ondan daha çox əməl edən kimsə istisna olmaqla, heç kəs onun gətirdiyindən daha əfzəl bir şey gətirə bilməz». Buxari (4/95): (3293), Muslim (4/2071): (2691).

qədər, Ərşinin ağırlığı qədər və kəlmələrinin mürəkkəbi qədər"

Səhər üç dəfə[1].

«اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ عِلْمًا نَافِعًا، وَرِزْقًا طَيِّبًا، وَعَمَلًا مُتَقَبَّلًا».

«Allahım! Səndən faydalı elm, halal ruzi və məqbul əməl diləyirəm»

Səhər olanda[2].

«أَسْتَغْفِرُ اللَّهَ وَأَتُوبُ إِلَيْهِ».

[Əstəğfirullahə va ətubu iləyh] -

«Allahdan bağışlanma diləyirəm və Ona tövbə edirəm»

Gündə yüz dəfə[3].

«أَعُوذُ بِكَلِمَاتِ اللَّهِ التَّامَّاتِ مِنْ شَرِّ مَا خَلَقَ».

[Əuzu bikəlimətilləhit-təmməti min şərri mə xaləq] -

"Yaratdıqlarının şərindən Allahın tam kəlmələrinə sığınıram!"

Axşam üç dəfə[4].

---

1 Hədisi Müslim (4/2090): (2726) rəvayət etmişdir.

2 Hədisi İbn əs-Sünni "Əməlu-l-yəumi və-l-leylə" əsərində (54) və İbn Macə (925) rəvayət etmişdir. Abdulqadir və Şueyb əl-Ərnaut "Zadul-Məad" əsərinin təhqiqində (2/375) isnadının həsən olduğunu bildirmişlərdir. Hədis daha əvvəl (73) nömrəsi ilə keçmişdir.

3 Hədisi Buxari Fəth ilə (11/101): (6307) və Müslim (4/2075): (2702) rəvayət etmişdir.

4 «Kim bunu axşam düşəndə üç dəfə desə, o gecənin zəhəri ona zərər verməz». Hədisi Əhməd (2/290): (7898), Nəsai ("Əməlul-yəumi val-leylə"

«اللَّهُمَّ صَلِّ وَسَلِّمْ عَلَى نَبِيِّنَا مُحَمَّدٍ».

[Allahummə salli va səllim alə nəbiyyinə Muhəmmədin] - "Allahım, Peyğəmbərimiz Muhəmmədə salat və salam et".

On dəfə[1].

## 28. Yatarkən edilən zikrlər.

İki ovucunu birləşdirib onların içinə üfürür, sonra da ovcuna aşağıdakıları oxuyur:

﴿قُلْ هُوَ ٱللَّهُ أَحَدٌ ۝١ ٱللَّهُ ٱلصَّمَدُ ۝٢ لَمْ يَلِدْ وَلَمْ يُولَدْ ۝٣ وَلَمْ يَكُن لَّهُۥ كُفُوًا أَحَدٌۢ ۝٤﴾

"(Ey Peyğəmbər!) De: "O Allah Təkdir!
Allah Möhtac deyildir.
O, nə doğub, nə də doğulub,
Onun heç bir bənzəri də yoxdur". (İxlas 112 surəsi, ayələr 1-4).

﴿قُلْ أَعُوذُ بِرَبِّ ٱلْفَلَقِ ۝١ مِن شَرِّ مَا خَلَقَ ۝٢ وَمِن شَرِّ غَاسِقٍ إِذَا وَقَبَ ۝٣ وَمِن شَرِّ ٱلنَّفَّٰثَٰتِ فِى ٱلْعُقَدِ ۝٤ وَمِن شَرِّ حَاسِدٍ إِذَا حَسَدَ ۝٥﴾

"(Ey Peyğəmbər!) De: "Sığınıram sübhün Rəbbinə!
Xəlq etdiklərinin şərindən,

---

(590) və İbn Sünni (68) rəvayət etmişdir. Bax: "Səhih ət-Tirmizi" (3/187), "Səhih İbn Macə" (2/266) və İbn Bazın "Tuhfətul-Əxyar" əsəri (səh: 45).

[1] «Kim səhər on, axşam isə on dəfə mənə salavat gətirərsə, Qiyamət günü şəfaətimə nail olar». Təbərani iki isnadla rəvayət etmişdir: onlardan biri ceyyiddir. Bax: Məcməuz-Zəvaid (10/120) və Səhihut-Tərğib vət-Tərhib (1/273).

zülməti çökən gecənin şərindən,

düyünlərə üfürən (cadugər) qadınların şərindən

və həsəd apardığı zaman paxılın şərindən!”

(Fələq 113 surəsi, ayələr 1-5).

﴿قُلۡ أَعُوذُ بِرَبِّ ٱلنَّاسِ ١ مَلِكِ ٱلنَّاسِ ٢ إِلَٰهِ ٱلنَّاسِ ٣ مِن شَرِّ ٱلۡوَسۡوَاسِ ٱلۡخَنَّاسِ ٤ ٱلَّذِي يُوَسۡوِسُ فِي صُدُورِ ٱلنَّاسِ ٥ مِنَ ٱلۡجِنَّةِ وَٱلنَّاسِ ٦﴾

"(Ey Peyğəmbər!) De: “Sığınıram insanların Rəbbinə,

insanların Sahibinə,

insanların İlahına!

Vəsvəsə verən, (Allahın adı çəkiləndə isə qaçıb) gizlənən şeytanın şərindən

O şeytan ki, insanların sinələrinə (qəlblərinə) vəsvəsə salır,

(O şeytan) cinlərdən də olur, insanlardan da!”

(Nəs 114 surəsi, ayələr 1-6).

(Sonra əlləri ilə, başından, üzündən və bədəninin ön hissəsindən başlayaraq bədəninin bacardığı qədər hissəsinə məsh çəkərdi). (Bunu üç dəfə edərdi)[1].

﴿ٱللَّهُ لَآ إِلَٰهَ إِلَّا هُوَ ٱلۡحَيُّ ٱلۡقَيُّومُۚ لَا تَأۡخُذُهُۥ سِنَةٞ وَلَا نَوۡمٞۚ لَّهُۥ مَا فِي ٱلسَّمَٰوَٰتِ وَمَا فِي ٱلۡأَرۡضِۗ مَن ذَا ٱلَّذِي يَشۡفَعُ عِندَهُۥٓ إِلَّا بِإِذۡنِهِۦۚ يَعۡلَمُ مَا بَيۡنَ أَيۡدِيهِمۡ وَمَا خَلۡفَهُمۡۖ وَلَا يُحِيطُونَ بِشَيۡءٖ مِّنۡ عِلۡمِهِۦٓ إِلَّا بِمَا شَآءَۚ وَسِعَ كُرۡسِيُّهُ ٱلسَّمَٰوَٰتِ وَٱلۡأَرۡضَۖ وَلَا

[1] Hədisi Buxari Fəth ilə (9/62): (5017) və Müslim: (2192) rəvayət etmişdir.

﴿يَـُٔودُهُۥ حِفۡظُهُمَاۚ وَهُوَ ٱلۡعَلِيُّ ٱلۡعَظِيمُ٢٥٥﴾

"Allah Özündən başqa (haqq) məbud olmayandır, (əbədi) Yaşayandır, (bütün yaratdıqlarının) Qəyyumudur. Onu nə mürgü, nə də yuxu tutar. Göylərdə və yerdə nə varsa, (hamısı) Ona məxsusdur. Allahın izni olmadan Onun yanında kim şəfaət edə bilər? O, (qullarının) gələcəyini və keçmişini bilir. Onlar Allahın elmindən Onun istədiyindən başqa heç bir şey qavraya bilməzlər. Onun Kürsüsü göyləri və yeri əhatə etmişdir. Bunları qoruyub saxlamaq Ona ağır gəlməz. O, Ucadır, Əzəmətlidir".

[Bəqərə 2 surəsi, ayə 255],[1].

﴿ءَامَنَ ٱلرَّسُولُ بِمَآ أُنزِلَ إِلَيۡهِ مِن رَّبِّهِۦ وَٱلۡمُؤۡمِنُونَۚ كُلٌّ ءَامَنَ بِٱللَّهِ وَمَلَـٰٓئِكَتِهِۦ وَكُتُبِهِۦ وَرُسُلِهِۦ لَا نُفَرِّقُ بَيۡنَ أَحَدٍ مِّن رُّسُلِهِۦۚ وَقَالُواْ سَمِعۡنَا وَأَطَعۡنَاۖ غُفۡرَانَكَ رَبَّنَا وَإِلَيۡكَ ٱلۡمَصِيرُ٢٨٥ لَا يُكَلِّفُ ٱللَّهُ نَفۡسًا إِلَّا وُسۡعَهَاۚ لَهَا مَا كَسَبَتۡ وَعَلَيۡهَا مَا ٱكۡتَسَبَتۡۗ رَبَّنَا لَا تُؤَاخِذۡنَآ إِن نَّسِينَآ أَوۡ أَخۡطَأۡنَاۚ رَبَّنَا وَلَا تَحۡمِلۡ عَلَيۡنَآ إِصۡرًا كَمَا حَمَلۡتَهُۥ عَلَى ٱلَّذِينَ مِن قَبۡلِنَاۚ رَبَّنَا وَلَا تُحَمِّلۡنَا مَا لَا طَاقَةَ لَنَا بِهِۦۖ وَٱعۡفُ عَنَّا وَٱغۡفِرۡ لَنَا وَٱرۡحَمۡنَآۚ أَنتَ مَوۡلَىٰنَا فَٱنصُرۡنَا عَلَى ٱلۡقَوۡمِ ٱلۡكَـٰفِرِينَ٢٨٦﴾

"Allahın rəsulu öz Rəbbindən ona nazil edilənə iman gətirdi, möminlər də, (iman gətirdilər). Hamısı Allaha, Onun mələklərinə, kitablarına və

---

[1] «Kim onu yatağına girdiyi zaman oxuyarsa, onun üzərində Allah tərəfindən bir qoruyucu mələk olar və səhərə qədər şeytan ona yaxınlaşa bilməz». Buxari, Fəthul-Bari, (4/487): (2311).

elçilərinə iman gətirdilər. (Onlar dedilər): “Biz Onun elçiləri arasında fərq qoymuruq!” (Həmçinin,) dedilər: “Eşitdik və itaət etdik! Ey Rəbbimiz, Səndən bağışlanma diləyirik, dönüş yalnız Sənədir!

Allah hər kəsi yalnız onun qüvvəsi çatdığı qədər mükəlləf edər. Hər kəsin qazandığı xeyir yalnız onun özünə, qazandığı şər də, yalnız öz əleyhinədir. “Ey Rəbbimiz, unutsaq və ya xəta etsək bizi cəzalandırma! Ey Rəbbimiz, bizdən əvvəlkiləri yüklədiyin kimi, bizi ağır yüklə yükləmə! Ey Rəbbimiz, gücümüz çatmayan şeyi daşımağa bizi vadar etmə! Bizi əfv et, bizi bağışla, bizə rəhm et! Sən bizim Himayədarımızsan! Kafir qövmə qalib gəlməkdə bizə yardım et!”

(Bəqərə 2 surəsi, ayələr 285-286)[1].

«بِاسْمِكَ رَبِّي وَضَعْتُ جَنْبِي، وَبِكَ أَرْفَعُهُ، فَإِنْ أَمْسَكْتَ نَفْسِي فَارْحَمْهَا، وَإِنْ أَرْسَلْتَهَا فَاحْفَظْهَا، بِمَا تَحْفَظُ بِهِ عِبَادَكَ الصَّالِحِينَ».

"Rəbbim! Sənin adınla böyrümü yerə qoydum və Səninlə də onu qaldıraram. Əgər canımı alsan, ona rəhm et, yox əgər onu geri qaytarsan, saleh bəndələrini qoruduğunla onu da qoru"[2].[3]

---

1 "Kim onları gecə oxuyarsa, onlar ona yetər". Buxari, Fəthul-Bari (9/94): (4008) və Müslim (1/554): (807).

2 Buxari, Fəthul-Bari, (11/126): (6320) və Müslim (4/2084): (2714).

3 "Sizdən biriniz yatağından qalxıb, sonra ora geri qayıdarsa, izarının ucu ilə yatağını üç dəfə çırpsın və Allahın adını zikr etsin. Çünki o, özündən sonra yatağına nəyin gəldiyini bilmir. Yatağa uzanarkən isə belə desin:.."

«اللَّهُمَّ إِنَّكَ خَلَقْتَ نَفْسِي وَأَنْتَ تَوَفَّاهَا، لَكَ مَمَاتُهَا وَمَحْيَاهَا، إِنْ أَحْيَيْتَهَا فَاحْفَظْهَا، وَإِنْ أَمَتَّهَا فَاغْفِرْ لَهَا، اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ العَافِيَةَ».

«Allahım! Sən nəfsimi yaratdın və onun canını da Sən alırsan. Onun ölümü də, həyatı da Sənə məxsusdur. Əgər onu yaşatsan, onu qoru, əgər onu öldürsən, onu bağışla! Allahım! Səndən salamatlıq diləyirəm!»[1]

«اللَّهُمَّ قِنِي عَذَابَكَ يَوْمَ تَبْعَثُ عِبَادَكَ».

"Allahım! Qullarını dirildəcəyin gün məni Öz əzabından qoru!"[2].[3]

«بِاسْمِكَ اللَّهُمَّ أَمُوتُ وَأَحْيَا».

"Allahım! Sənin adınla ölür və dirili-rəm!"[4].

«سُبْحَانَ اللَّهِ».

[Subhənallah]
"Allah pak və müqəddəsdir!"

(ثَلَاثًا وَثَلَاثِينَ).

---

["Sənifətu izarihi" sözünün mənası: izarın qırağı, ucu deməkdir]. (Ən-Nihəyə fi Ğaribil-Hədis val-Əsər).

1 Hədisi Müslim (4/2083): (2712) və Əhməd bu ləfzlə : (5502) rəvayət etmişdir.

2 Hədisi bu ləfz ilə Əbu Davud (4/311): (5045) və Tirmizi (3398) rəvayət etmişdir. Həmçinin bax: Səhih Tirmizi (3/143) və Səhih Əbu Davud (3/240).

3 «Peyğəmbər, sallallahu aleyhi va səlləm, yataq istədikdə sağ əlini çənəsinin altına qoyardı, sonra belə deyərdi: ...».

4 Hədisi Buxari Fəth ilə (11/113): (6324) və Müslim (4/2083): (2711) rəvayət etmişdir.

(Otuz üç dəfə),

(وَالحَمْدُ لِلَّهِ).

[Val-həmdulilləh] -
"Allaha həmd olsun".

(ثَلاثًا وَثَلاثِينَ).

(Otuz üç dəfə).

(وَاللَّهُ أَكْبَرُ).

[Vallahu Əkbər] -
"Allah ən böyükdür".

(أَرْبَعًا وَثَلاثِينَ).

(Otuz dörd dəfə)[1].

«اللَّهُمَّ رَبَّ السَّمَوَاتِ السَّبْعِ وَرَبَّ الأَرْضِ، وَرَبَّ العَرْشِ العَظِيمِ، رَبَّنَا وَرَبَّ كُلِّ شَيْءٍ، فَالِقَ الحَبِّ وَالنَّوَى، وَمُنْزِلَ التَّوْرَاةِ وَالإِنْجِيلِ، وَالفُرْقَانِ، أَعُوذُ بِكَ مِنْ شَرِّ كُلِّ شَيْءٍ أَنْتَ آخِذٌ بِنَاصِيَتِهِ، اللَّهُمَّ أَنْتَ الأَوَّلُ فَلَيْسَ قَبْلَكَ شَيْءٌ، وَأَنْتَ الآخِرُ فَلَيسَ بَعْدَكَ شَيْءٌ، وَأَنْتَ الظَّاهِرُ فَلَيْسَ فَوْقَكَ شَيْءٌ، وَأَنْتَ البَاطِنُ فَلَيْسَ دُونَكَ شَيْءٌ، اقْضِ عَنَّا الدَّيْنَ وَأَغْنِنَا مِنَ الفَقْرِ».

"Allahım! Ey yeddi göyün Rəbbi, yerin Rəbbi və əzəmətli Ərşin Rəbbi! Rəbbimiz və hər şeyin Rəbbi! Toxumu və çəyirdəyi yaran, Tövratı, İncili və Furqanı (Quranı) nazil edən! Kəkilindən tutduğun

[1] «Kim yatağına girdiyi zaman bunu desə, onun üçün xidmətçidən daha xeyirli olar». Hədisi Buxari, Fəth əl-Bari ilə (7/71): (3705) və Müslim (4/2091): (2726) rəvayət etmişdir.

hər bir şeyin şərrindən Sənə sığınıram. Allahım! Sən Əvvəlsən, Səndən əvvəl heç bir şey yoxdur. Və Sən Axırsan, Səndən sonra heç bir şey yoxdur. Və Sən Zahirsən, Səndən uca heç bir şey yoxdur. Və Sən Batinsən, Səndən daha gizlin (və Yaxın) heç bir şey yoxdur. Bizim borcumuzu ödə və bizi yoxsulluqdan xilas et"[1].

«الحَمْدُ لِلَّهِ الَّذِي أَطْعَمَنَا وَسَقَانَا، وَكَفَانَا، وَآوَانَا، فَكَمْ مِمَّنْ لَا كَافِيَ لَهُ وَلَا مُؤْوِيَ».

"Bizi yedirdən, içirdən, bizə kifayət edən və bizə sığınacaq verən Allaha həmd olsun! Neçə-neçə kimsələr vardır ki, onlara kifayət edən də yoxdur, sığınacaq verən də"[2].

«اللَّهُمَّ عَالِمَ الغَيْبِ وَالشَّهَادَةِ فَاطِرَ السَّمَوَاتِ وَالأَرْضِ، رَبَّ كُلِّ شَيْءٍ وَمَلِيكَهُ، أَشْهَدُ أَنْ لَا إِلَهَ إِلَّا أَنْتَ، أَعُوذُ بِكَ مِنْ شَرِّ نَفْسِي، وَمِنْ شَرِّ الشَّيْطَانِ وَشِرْكِهِ، وَأَنْ أَقْتَرِفَ عَلَى نَفْسِي سُوءًا، أَوْ أَجُرَّهُ إِلَى مُسْلِمٍ».

«Qeybdə və aşkarda olanı Bilən, göyləri və yeri yaradan, Hər şeyin Rəbbi və Hökmdarı olan Allahım! Şahidlik edirəm ki, Səndən başqa ibadətə layiq haqq məbud yoxdur. Nəfsimin şərindən, şeytanın şərrindən və şirkindən, özümə pislik etməkdən yaxud onu bir müsəlmana yetirməkdən

[1] Müslim: (4/2084), (2713).
[2] Hədisi Müslim (4/2085): (2715) rəvayət etmişdir.

Sənə sığınıram»[1].

«يَقْرَأُ ﴿الــم﴾ تَنْزِيلَ السَّجْدَةِ، وَتَبَارَكَ الَّذِي بِيَدِهِ المُلْكُ».

«Səcdə surəsini və Mülk surəsini oxuyar»[2].

«اللَّهُمَّ أَسْلَمْتُ نَفْسِي إِلَيْكَ، وَفَوَّضْتُ أَمْرِي إِلَيْكَ، وَوَجَّهْتُ وَجْهِي إِلَيْكَ، وَأَلْجَأْتُ ظَهْرِي إِلَيْكَ، رَغْبَةً وَرَهْبَةً إِلَيْكَ، لَا مَلْجَأَ وَلَا مَنْجَا مِنْكَ إِلَّا إِلَيْكَ، آمَنْتُ بِكِتَابِكَ الَّذِي أَنْزَلْتَ، وَبِنَبِيِّكَ الَّذِي أَرْسَلْتَ».

"Allahım![3] Nəfsimi Sənə təslim etdim, işimi Sənə həvalə etdim, üzümü Sənə tutdum. Sənin (rəhmətinə) ümid edərək və (əzabından) qorxaraq Sənə arxalandım. Səndən (gələcək bəladan) sığınacaq və xilas yeri ancaq Sənsən. Nazil etdiyin Kitabına və göndərdiyin Peyğəmbərinə iman etdim"[4].

## 29. Gecə yatarkən bir tərəfdən digər tərəfə çevrildikdə edilən dua.

«لَا إِلَهَ إِلَّا اللَّهُ الوَاحِدُ القَهّارُ، رَبُّ السَّمَوَاتِ وَالأَرْضِ وَمَا بَيْنَهُمَا العَزِيزُ الغَفَّارُ».

"Vahid və Qəhhar olan Allahdan başqa məbud

---

[1] Əbu Davud (4/317): (5067), Tirmizi: (3629). Bax: Səhih Tirmizi (3/142).

[2] Hədisi Tirmizi (3404) və Nəsai "Əməlul-yəumi val-leyləh" (707) adlı əsərində rəvayət etmişdir. Həmçinin bax: "Səhihul-Cami" (4/255).

[3] "Yatmaq istədikdə namaz üçün dəstəmaz aldığın kimi dəstəmaz al, sonra sağ böyrün üstə uzan, sonra de: ..."

[4] Peyğəmbər, sallallahu aleyhi və səlləm, bunu deyən şəxsə buyurmuşdur: «Əgər ölsən, fitrət üzərə ölərsən». Hədisi Buxari Fəth ilə (11/113): (6313) və Müslim (4/2081): (2710) rəvayət etmişdir.

yoxdur. O, göylərin, yerin və onların arasında olanların Rəbbi, Əziz və Ğəffardır!"[1].

## 30. Yuxuda qorxanın və vəhşətə düçar olanın duası.

«أَعُوذُ بِكَلِمَاتِ اللَّهِ التَّامَّاتِ مِنْ غَضَبِهِ وَعِقَابِهِ، وَشَرِّ عِبَادِهِ، وَمِنْ هَمَزَاتِ الشَّيَاطِينِ وَأَنْ يَحْضُرُونِ».

"Onun qəzəbindən və cəzasından, qullarının şərindən, şeytanların vəsvəsələrindən və yanıma gəlmələrindən - Allahın tam kəlmələrinə sığınıram!"[2].

## 31. Röya və ya yuxu görən nə etməlidir?

Sol tərəfinə yüngülcə tüpürmək. (Üç dəfə)[3].

Üç dəfə şeytandan və gördüyünün şərindən Allaha sığınar[4].

Bunu heç kəsə danışmır[5].

Üzərində olduğu böyründən çevrilir[6].

Əgər istəsə, qalxıb namaz qılır[7].

---

1 Bu, gecə bir böyründən digər böyrünə çevrildikdə deyilir. Hakim hədisin səhih olduğunu bildirmiş, Zəhəbi də onunla razılaşmışdır (1/540). Nəsai "Aməlul-yovmi vəl-leylə" (202) adlı əsərində və İbn əs-Sunni (757) rəvayət etmişdir. Bax: "Sahih əl-Cami" (4/213).

2 Əbu Davud (4/12): (3893) vəTirmizi: (3528). Bax: Səhih Tirmizi (3/171).

3 Hədisi Müslim (4/1772): (2261) rəvayət etmişdir.

4 Hədisi Müslim (4/1772) (1773): (2261) və (2262) rəvayət etmişdir.

5 Müslim (4/1772): (2261) və (2263) rəvayət etmişdir.

6 Hədisi Müslim (4/1773): (2261) rəvayət etmişdir.

7 Hədisi Müslim (4/1773): (2263) rəvayət etmişdir.

## 32. Vitr namazında edilən qunut duası.

«اللَّهُمَّ اهْدِنِي فِيمَنْ هَدَيْتَ، وَعَافِنِي فِيمَنْ عَافَيْتَ، وَتَوَلَّنِي فِيمَنْ تَوَلَّيْتَ، وَبَارِكْ لِي فِيمَا أَعْطَيْتَ، وَقِنِي شَرَّ مَا قَضَيْتَ؛ فَإِنَّكَ تَقْضِي وَلَا يُقْضَى عَلَيْكَ، إِنَّهُ لَا يَذِلُّ مَنْ وَالَيْتَ، [وَلاَ يَعِزُّ مَنْ عَادَيْتَ]، تَبارَكْتَ رَبَّنا وَتَعَالَيْتَ».

- "Allahım! Hidayət verdiyin kəslərlə birlikdə məni də doğru yola yönəlt! Salamatlıq verdiyin kəslərlə birlikdə mənə də salamatlıq ver! Himayənə götürdüyün kəslərlə birlikdə məni də Öz himayənə götür! Mənə bəxş etdiklərini bərəkətli et! Verdiyin hökmün şərrindən məni qoru! Çünki hökmü Sən verirsən, Sənin haqqında isə hökm verilə bilməz. Həqiqətən, Sənin dostluq etdiyin kəs zəlil olmaz, [Sənin düşmənçilik etdiyin kəs isə izzətli olmaz]. Ey Rəbbimiz, Sən xeyirxah və Ucasan!"[1].

«اللَّهُمَّ إِنِّي أَعُوذُ بِرِضَاكَ مِنْ سَخَطِكَ، وَبِمُعَافَاتِكَ مِنْ عُقُوبَتِكَ، وَأَعُوذُ بِكَ مِنْكَ، لَا أُحْصِي ثَنَاءً عَلَيْكَ، أَنْتَ كَمَا أَثْنَيْتَ عَلَى نَفْسِكَ».

"Allahım! Sənin qəzəbindən razılığına, cəzandan əfvinə sığınıram və Səndən də Sənə sığınıram; Sənə edilən tərifləri sayıb qurtara bilmərəm, Sən Özünü

---

[1] Hədisi dörd "Sünən" kitabların müəllifləri Əbu Davud: (1425), Tirmizi: (464), Nəsai: (1744), İbn Maca: (1178), və Əhməd: (1718), Darimi: (1592), Hakim (3/172) və Beyhəqi (2/209) rəvayət etmişdir. Mötərizə içərisindəki ləfz Beyhəqiyə aiddir. Bax: Sahih Tirmizi: (1/144), Sahih İbn Maca (1/194) və Albaninin İrvaul-Ğalil (2/172).

tərif etdiyin kimisən"[1].

«اللَّهُمَّ إِيَّاكَ نعبُدُ، وَلَكَ نُصَلِّي وَنَسْجُدُ، وَإِلَيْكَ نَسْعَى وَنَحْفِدُ، نَرْجُو رَحْمَتَكَ، وَنَخْشَى عَذَابَكَ، إِنَّ عَذَابَكَ بِالكَافِرِينَ مُلْحِقٌ، اللَّهُمَّ إِنَّا نَسْتَعِينُكَ، وَنَسْتَغْفِرُكَ، وَنُثْنِي عَلَيْكَ الخَيْرَ، وَلَا نَكْفُرُكَ، وَنُؤْمِنُ بِكَ، وَنَخْضَعُ لَكَ، وَنَخْلَعُ مَنْ يَكْفُرُكَ».

«Allahım! Biz yalnız Sənə ibadət edirik, Sənin üçün namaz qılır və səcdə edirik. Sənə təraf tələsir və Sənə xidmət edirik. Sənin rəhmətinə ümid edir və əzabından qorxuruq. Həqiqətən, Sənin əzabın kafirlərə yetişəcəkdir. Allahım! Biz Səndən kömək diləyir, Səndən bağışlanma diləyirik. Səni xeyirlə tərifləyir, Səni inkar etmirik. Sənə iman edir, Sənə boyun əyirik və Səni inkar edəni tərk edirik»[2].

## 33. Vitr namazının salamından sonra edilən zikr.

«سُبْحَانَ المَلِكِ القُدُّوسِ».

[Subhənə-l-Məliki-l-Quddus]
"Müqəddəs Hökmdar pakdır".

ثَلَاث مرَّاتٍ

Üç dəfə.

---

[1] Hədisi dörd "Sünən" kitabların müəllifləri Əbu Davud: (1427), Tirmizi: (3566), Nəsai: (1746), İbn Macə: (1179) və Əhməd: (751) rəvayət etmişdir. Bax: Sahih Tirmizi (3/180), Sahih İbn Macə (1/194) və əl-İrva (2/175).

[2] Hədisi Beyhəqi "Sünən Kubra" əsərində rəvayət etmiş və isnadının səhih olduğunu bildirmişdir (2/211). Şeyx Albani isə "İrvaul-Ğalil" adlı əsərində: "Bu, səhih isnaddır" - demişdir (2/170). Bu, Ömərə aid "mövquf" rəvayətdir.

والثَّالِثَةُ يَجْهَرُ بها ويَمُدُّ بِهَا صَوتَهُ يَقُولُ:

Üçüncü dəfə səsini ucaldır və uzadaraq deyir:

«رَبِّ المَلَائِكَةِ وَالرُّوحِ».

[Rabbi-l-mələikəti var-ruh] -
"Mələklərin və Ruhun (Cəbrailin) Rəbbi"[1].

## 34. Üzüntü və kədər anında oxunan dua.

«اللَّهُمَّ إِنِّي عَبْدُكَ، ابْنُ عَبْدِكَ، ابْنُ أَمَتِكَ، نَاصِيَتِي بِيَدِكَ، مَاضٍ فِيَّ حُكْمُكَ، عَدْلٌ فِيَّ قَضَاؤُكَ، أَسْأَلُكَ بِكُلِّ اسْمٍ هُوَ لَكَ، سَمَّيْتَ بِهِ نَفْسَكَ، أَوْ أَنْزَلْتَهُ فِي كِتَابِكَ، أَوْ عَلَّمْتَهُ أَحَدًا مِنْ خَلْقِكَ، أَوِ اسْتَأْثَرْتَ بِهِ فِي عِلْمِ الغَيْبِ عِنْدَكَ، أَنْ تَجْعَلَ القُرْآنَ رَبِيعَ قَلْبِي، وَنُورَ صَدْرِي، وَجَلَاءَ حُزْنِي، وَذَهَابَ هَمِّي».

"Allahım! Mən Sənin qulunam, Sənin qulunun və kənizinin oğluyam. Kəkilim Sənin əlindədir. Barəmdəki hökmün keçərlidir və haqqımdakı qərarın ədalətlidir. Sənə məxsus olan, Özünü adlandırdığın, Kitabında nazil etdiyin, yaratdıqlarından birinə öyrətdiyin və ya qeyb elmində Özünə saxladığın - hər bir adla Səndən diləyirəm: Quranı qəlbimin baharı, köksümün nuru, hüznümün aradan qalx-ması və kədərimin getməsi

---

[1] Hədisi Nəsai (3/244): (1734), Daraqutni: (2/31) və başqaları rəvayət etmişdir. Mötərizə içərisindəki hissə Daraqutninin (2/31): (2) əlavəsidir və isnadı səhihdir. Bax: "Zadul-Məad" təhqiq: Şueyb əl-Ərnaut və Əbdülqadir əl-Ərnaut, (1/337).

(üçün səbəb) et!"[1].

«اللَّهُمَّ إِنِّي أَعُوذُ بِكَ مِنَ الهَمِّ وَالحَزَنِ، وَالعَجْزِ وَالكَسَلِ، وَالبُخْلِ وَالجُبْنِ، وَضَلَعِ الدَّيْنِ وَغَلَبَةِ الرِّجَالِ».

«Allahım! Qəm və kədərdən, acizlik və tənbəllikdən, xəsislikdən və qorxaqlıqdan, borcun ağırlığından və insanların zülmündən Sənə sığınıram»[2].

## 35. Sıxıntı anında oxunan dua.

«لَا إِلَهَ إِلَّا اللَّهُ العَظِيمُ الحَلِيمُ، لَا إِلَهَ إِلَّا اللَّهُ رَبُّ العَرْشِ العَظِيمِ، لَا إِلَهَ إِلَّا اللَّهُ رَبُّ السَّمَوَاتِ وَرَبُّ الأَرْضِ وَرَبُّ العَرْشِ الكَرِيمِ».

"Əzəmətli və Həlim Allahdan başqa (haqq) məbud yoxdur. Əzəmətli Ərşin Rəbbi olan Allahdan başqa (haqq) məbud yoxdur. Göylərin Rəbbi, yerin Rəbbi və Kərim (şanlı) Ərşin Rəbbi olan Allahdan başqa (haqq) məbud yoxdur!"[3].

«اللَّهُمَّ رَحْمَتَكَ أَرْجُو، فَلَا تَكِلْنِي إِلَى نَفْسِي طَرْفَةَ عَيْنٍ، وَأَصْلِحْ لِي شَأْنِي كُلَّهُ، لَا إِلَهَ إِلَّا أَنْتَ».

"Allahım! Sənin mərhəmətini diləyi-rəm! Məni bir göz qırpımı belə öz nəfsimlə başlı-başına

---

[1] Hədisi Əhməd (1/391): (3712) rəvayət etmişdir. Albani Silsiləh əl-Əhədis əs-Sahihə adlı əsərində hədisin səhih olduğunu bildirmişdir (1/337).

[2] Buxari (7/158): (2893). Peyğəmbər, sallallahu aleyhi və səlləm, bu duanı çox edərdi. Bax: Buxari, Fəthul-Bari (11/173) və (səh: 89) -da (137) nömrəsi ilə gələcək.

[3] Hədisi Buxari (7/154): (6345) və Müslim (4/2092): (2730) rəvayət etmişdir.

buraxma! Bütün işlərimi yoluna qoy! Səndən başqa haqq məbud yoxdur!"[1].

«لَا إِلَهَ إِلَّا أَنْتَ سُبْحَانَكَ إِنِّي كُنْتُ مِنَ الظَّالِمِينَ».

«Səndən başqa haqq məbud yoxdur! Sən paksan, müqəddəssən! Həqiqətən, mən özümə zülm edənlərdən olmuşam!»[2].

«اللَّهُ اللَّهُ رَبِّي لَا أُشْرِكُ بِهِ شَيْئًا».

«Allah, Allah mənim Rəbbimdir və Ona heç bir şeyi şərik qoşmaram»[3].

## 36. Düşmənlə və hakimlə qarşılaşdıqda edilən dua.

«اللَّهُمَّ إِنَّا نَجْعَلُكَ فِي نُحُورِهِم، وَنَعُوذُ بِكَ مِنْ شُرُورِهِمْ».

"Allahım! Onların yaxasını Sənə tap-şı-rırıq və onların şərlərindən Sənə sığınırıq!"[4].

«اللَّهُمَّ أَنْتَ عَضُدِي، وَأَنْتَ نَصِيرِي، بِكَ أَحُولُ وَبِكَ أَصُولُ، وَبِكَ أُقَاتِلُ».

«Allahım! Sən mənim dayağımsan və Sən mənim yardımçımsan. Sənin yardımınla tədbir görürəm,

---

1 Əbu Davud (4/324): (5090), İmam Əhməd (5/42): (20430) rəvayət etmiş, Albani isə "Səhih Əbu Davud" (3/959) əsərində həsən hesab etmişdir.

2 Hədisi Tirmizi (5/529): (3505) və Hakim (1/505) rəvayət etmişdir. Hakim hədisin səhih olduğunu bilirdmiş, Zəhəbi də onunla razılaşmışdır. Bax: Səhih Tirmizi (3/168).

3 Əbu Davud (2/87): (1525), İbn Macə: (3882) rəvayət etmişdir. Bax: Səhih İbn Macə (2/335).

4 Hədisi Əbu Davud: (2/89): (1537) rəvayət etmiş, Hakim isə səhih hesab etmiş, Zəhəbi də (2/142) onunla razılaşmışdır.

Sənin yardımınla hücum edirəm və Sənin yardımınla vuruşuram»[1].

«حَسْبُنَا اللَّهُ وَنِعْمَ الوَكِيلُ».

"Allah bizə bəs edər. O nə gözəl Vəkil-dir!"[2].

## 37. Sultanın zülmündən qorxan kimsənin etdiyi dua.

«اللَّهُمَّ ربَّ السَّمَوَاتِ السَّبْعِ، وَرَبَّ العَرْشِ العَظِيمِ، كُنْ لِي جَارًا مِنْ فُلَانِ بْنِ فُلَانٍ، وَأَحْزَابِهِ مِنْ خَلَائِقِكَ، أَنْ يَفْرُطَ عَلَيَّ أَحَدٌ مِنْهُمْ أَوْ يَطْغَى، عَزَّ جَارُكَ، وَجَلَّ ثَنَاؤُكَ، وَلَا إِلَهَ إِلَّا أَنْتَ».

«Allahım! Ey yeddi göyün Rəbbi və əzəmətli Ərşin Rəbbi! "Filankəs oğlu filankəs"-dən və yaratdıqların arasından olan onun dəstələrindən məni himayə et ki, onlardan heç biri mənə qarşı həddini aşmasın, yaxud zülm etməsin. Sənin himayən əzizdir, Sənin tərifin ucadır və Səndən başqa ilah yoxdur»[3].

«اللَّهُ أَكْبَرُ، اللَّهُ أَعَزُّ مِنْ خَلْقِهِ جَمِيعًا، اللَّهُ أَعَزُّ مِمَّا أَخَافُ وَأَحْذَرُ، أَعُوذُ بِاللَّهِ الَّذِي لَا إِلَهَ إِلَّا هُوَ، المُمْسِكِ السَّمَوَاتِ السَّبْعِ أَنْ يَقَعْنَ عَلَى الأَرْضِ إِلَّا بِإِذْنِهِ، مِنْ شَرِّ عَبْدِكَ فُلَانٍ، وَجُنُودِهِ وَأَتْبَاعِهِ وَأَشْيَاعِهِ، مِنَ الجِنِّ وَالإِنْسِ، اللَّهُمَّ كُنْ لِي جَارًا

[1] Əbu Davud (3/42): (2632) və Tirmizi (5/572): (3584) və bax: Səhih Tirmizi (3/183).

[2] Hədisi Buxari (5/172): (4563) rəvayət etmişdir.

[3] Buxari "əl-Ədəb əl-Müfrəd" əsərində: (707) rəvayət etmişdir. Albani "Sahih əl-Ədəb əl-Müfrəd" (545) adlı əsərində hədisin səhih olduğunu bildirmişdir.

مِنْ شَرِّهِمْ، جَلَّ ثَنَاؤُكَ وَعَزَّ جَارُكَ، وَتَبَارَكَ اسْمُكَ، وَلَا إِلَهَ غَيْرُكَ».

"Allah ən Böyükdür. Allah bütün yaratdıqlarından daha qüdrətlidir. Allah qorxub çəkindiyim hər şeydən daha qüdrətlidir. Ondan başqa haqq məbud olmayan, yeddi göyü Öz izni olmadan yerə düşməkdən saxlayan Allaha pənah aparıram. Sənin "filan" qulunun, onun cinlərdən və insanlardan olan qoşununun, ona tabe olanların və tərəfdarlarının şərindən (Sənə sığınıram). Allahım! Onların şərindən məni qoru. Sənin tərifin ucadır və Sənin himayən qüdrətlidir. Sənin adın mübarəkdir və Səndən başqa haqq məbud yoxdur"

ثَلَاثَ مَرَّاتٍ.

Üç dəfə[1].

## 38. Düşmənə qarşı edilən dua.

«اللَّهُمَّ مُنْزِلَ الكِتَابِ، سَرِيعَ الحِسَابِ، اهْزِمِ الأَحْزَابَ، اللَّهُمَّ اهزِمْهُمْ وَزَلْزِلْهُمْ».

"Ey Kitabı nazil edən, tez haqq-hesab çəkən Allahım! (Düşmən) dəstələrini məğlub et! Allahım, onları məğlub et və onları sarsıt!"[2]

[1] Buxari "əl-Ədəb əl-Müfrəd" əsərində: (708) rəvayət etmişdir. Albani "Sahih əl-Ədəb əl-Müfrəd" (546) adlı əsərində hədisin səhih olduğunu bildirmişdir.

[2] Hədisi Müslim (3/1362): (1742) rəvayət etmişdir.

## 39. Hər hansı bir camaatdan qorxan kimsənin etdiyi dua.

«اللَّهُمَّ اكْفِنِيهِمْ بِمَا شِئْتَ».

«Allahım, istədiyin kimi məni onlardan qoru!»[1].

## 40. İmanında vəsvəsəyə düçar olan kimsənin duası.

(Allaha sığınır)[2]. Belə buyurur:
(أَعُوذُ بِاللَّهِ مِنَ الشَّيطَانِ الرَّجِيمِ)
[Əuzu billəhi minəş-şeytanir-racim]
"Lənətlənmiş şeytandan Allaha sığınıram!".
(Vəsvəsəsinə son qoyur)[3].
Belə deyir:

(آمَنْتُ بِاللَّهِ وَرُسُلِهِ).

[Əməntu bi-lləhi va rusulihi] -
"Allaha və Onun rəsullarına iman gətirdim"[4].
Uca Allahın bu kəlamını oxuyar:

﴿هُوَ ٱلْأَوَّلُ وَٱلْآخِرُ وَٱلظَّاهِرُ وَٱلْبَاطِنُ ۖ وَهُوَ بِكُلِّ شَيْءٍ عَلِيمٌ ۝٣﴾

"O, Əvvəldir, Axırdır, Zahirdir, Batindir. O, hər şeyi biləndir" (Hədid 57 surəsi, ayə 3)[5].

---

[1] Hədisi Müslim (4/2300): (3005) rəvayət etmişdir.
[2] Hədisi Buxari Fəth ilə (6/336): (3276) və Müslim (1/120): (134) rəvayət etmişdir.
[3] Buxari "əl-Fəth" ilə (6/336): (3276) və Müslim (1/120): (134).
[4] Hədisi Müslim (1/119-120): (134) rəvayət etmişdir.
[5] Hədisi Əbu Davud (4/329): (5110) rəvayət etmişdir. Albani isə "Səhih Əbu Davud" əsərində (3/962) hədisi həsən saymışdır.

## 41. Borcun ödənilməsi üçün edilən dua.

«اللَّهُمَّ اكْفِنِي بِحَلَالِكَ عَنْ حَرَامِكَ، وَأَغْنِنِي بِفَضْلِكَ عَمَّنْ سِوَاكَ».

"Allahım! Məni Öz halalınla kifayət-ləndirib haramına möhtac etmə! Məni Öz lüt-fünlə Özündən başqasına möhtac etmə!"[1].

«اللَّهُمَّ إِنِّي أَعُوذُ بِكَ مِنَ الهَمِّ وَالحَزَنِ، وَالعَجْزِ وَالكَسَلِ، وَالبُخْلِ وَالجُبْنِ، وَضَلَعِ الدَّيْنِ وَغَلَبَةِ الرِّجَالِ».

"Allahım! Qəm və kədərdən, acizlik və tənbəllikdən, xəsislik və qorxaqlıqdan, borcun ağırlığından və insanların üstün gəlməsindən Sənə sığınıram"[2].

## 42. Namaz qılarkən yaxud Quran oxu-yarkən gələn vəsvəsəyə qarşı edilən dua.

«أَعُوذُ بِاللَّهِ مِنَ الشَّيطَانِ الرَّجِيمِ».

[Əuzu billəhi minəş-şeytanir-racim]
"Lənətlənmiş şeytandan Allaha sığınıram!".

«وَاتْفُلْ عَلَى يَسَارِكَ (ثَلَاثًا)».

Və sol tərəfinə (üç dəfə, yüngülcə) tüpür»[3].

---

1 Tirmizi (5/560): (3563). Bax: Səhih Tirmizi (3/180).

2 Buxari (7/158) nömrə: (2893), həmçinin (səh: 83), nömrə: (121) altında keçmişdir.

3 Müslim, (4/1729), rəqəm: (2203), Osman ibn Əbul-Asın, Allah ondan razı olsun, hədisində rəvayət olunur ki: "Mən də bunu etdim, Allah da onu məndən uzaqlaşdırdı".

## 43. Bir iş çətinləşən kimsənin etdiyi duası.

«اللَّهُمَّ لَا سَهْلَ إِلَّا مَا جَعَلْتَهُ سَهْلًا، وَأَنْتَ تَجْعَلُ الْحَزْنَ إِذَا شِئْتَ سَهْلًا».

"Allahım! Asan yalnız Sənin asanlaşdırdığındır. Sən istəsən, çətini və mürəkkəbi də asanlaşdırarsan"[1].

## 44. Günah edən kəs nə deməli və nə etməlidir.

«مَا مِنْ عَبْدٍ يُذنِبُ ذَنْبًا فَيُحسِنُ الطُّهُورَ، ثُمَّ يَقُومُ فَيُصَلِّي رَكْعَتَيْنِ، ثُمَّ يَسْتَغْفِرُ اللَّهَ إِلَّا غَفَرَ اللَّهُ لَهُ».

«Əgər bəndə günah edərsə, sonra gözəl dəstəmaz alarsa, ardınca ayağa qalxıb iki rükət namaz qılarsa və nəhayət Allahdan bağışlanma diləyərsə, Allah da onu bağışlayar»[2].

## 45. Şeytanı və onun vəsvəsələrini qovmaq üçün edilən dua.

Ondan Allaha sığınmaq[3].

Əzan vermək:[4].

Zikrlər və Quran oxumaq.

---

1 Hədisi İbn Hibban "Səhih"ində (2427) (Məvarid) və İbn əs-Sunni (351) rəvayət etmişdir. Hafiz bu hədisin səhih olduğunu demiş, Əbdül-Qadir əl-Arnaut isə "Təxricul-Əzkar lin-Nəvəvi" (səh: 106) adlı əsərində hədisin səhih olduğunu bildirmişdir.

2 Əbu Davud, (2/86): (1521), Tirmizi, (2/257): (406). Hədisi əl-Albani "Səhih Əbu Davud" əsərində (1/283) səhih hesab etmişdir.

3 Əbu Davud (1/203) və İbn Macə (1/265): (807). Təxrici: (31) rəqəmində keçmişdir. Bax: Muminun surəsi: [97-98].

4 Hədisi Müslim (1/291): (389) və Buxari (1/151): (608) rəvayət etmişdir.

«لَا تَجْعَلُوا بُيُوتَكُمْ مَقَابِرَ، إِنَّ الشَّيْطَانَ يَنْفِرُ مِنَ الْبَيْتِ الَّذِي تُقْرَأُ فِيهِ سُورَةُ الْبَقَرَةِ».

"Evlərinizi qəbirstanlığa çevirməyin. Həqiqətən şeytan Bəqərə surəsi oxunan evdən qaçır"[1].

Şeytanı qovan amillərdən biri də səhər-axşam zikrləri, yatmazdan əvvəl və yuxudan oyandıqda edilən zikrlər, evə daxil olarkən və evdən çıxarkən edilən zikrlər, məscidə daxil olarkən və məsciddən çıxarkən edilən zikrlər və bu kimi digər şəriətdə varid olan zikrlərdir. Məsələn: Yatmazdan əvvəl Ayətul-Kursini və Bəqərə surəsinin son iki ayəsini oxumaq. Kim desə:

لَا إِلَٰهَ إِلَّا اللَّهُ وَحْدَهُ لَا شَرِيكَ لَهُ، لَهُ الْمُلْكُ وَلَهُ الْحَمْدُ، وَهُوَ عَلَىٰ كُلِّ شَيْءٍ قَدِيرٌ

"Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur. O təkdir. Onun şəriki yoxdur. Mülk Onundur və həmd Onadır. O hər şeyə qadirdir".

مِائَةَ مَرَّةٍ، كانت له حرزًا من الشيطان يومه كله.

Yüz dəfə, bütün günü şeytandan qorunmaq üçün bir sipər olar.[2] Eləcə də azan şeytanı qovur.

## 46. İstəmədiyi bir iş baş verdikdə və ya bir işdə aciz qaldıqda edilən dua.

«قَدَرُ اللَّهُ وَمَا شَاءَ فَعَلَ».

---

[1] Hədisi Müslim (1/539): (780) rəvayət etmişdir.
[2] Hədisi Buxari (4/126): (3293) rəvayət etmişdir.

«Allahın qədəridir və O, istədiyini etdi»[1].

## 47. Övladı olanı təbrik etmək və onun cavabı.

«بَارَكَ اللَّهُ لَكَ فِي المَوْهُوبِ لَكَ، وَشَكَرْتَ الوَاهِبَ، وَبَلَغَ أَشُدَّهُ، وَرُزِقْتَ بِرَّهُ».

"Allah sənə bəxş etdiyini sənin üçün bərəkətli etsin, Bəxş edənə (Allaha) şükür edəsən, (övladın) yetkinlik çağına çatsın və sənə onun xeyirxahlığı nəsib olsun"[2].

Təbrik edilən ona cavab verərək belə deyir:

«بَارَكَ اللَّهُ لَكَ وَبَارَكَ عَلَيْكَ، وَجَزَاكَ اللَّهُ خَيْرًا، وَرَزَقَكَ اللَّهُ مِثْلَهُ، وَأَجْزَلَ ثَوَابَكَ».

"Allah sənə bərəkət versin və üzərinə bərəkət nazil etsin, Allah səni xeyirlə mükafatlandırsın, sənə də onun mislini bəxş etsin və savabını bol etsin"[3].

## 48. Uşaqları qorumaq üçün oxunan dua.

Allahın Rəsulu, sallallahu aleyhi və səlləm,

---

[1] «Güclü mömin zəif mömindən daha xeyirli və Allaha daha sevimlidir. Və hər ikisində də xeyir vardır. Sənə faydalı olan şeylərə həris ol, Allahdan kömək dilə və acizlik göstərmə. Başına bir iş gəlsə: "Əgər belə etsəydim, belə-belə olardı", — demə. Lakin de: "Allahın qədəri idi. O, istədiyini etdi". Çünki "əgər" demək şeytanın əməlinə qapı açır». Müslim (4/2052): (2664).

[2] Bu, Həsən əl-Bəsrinin kəlamı olaraq zikr edilmişdir. Bax: İbn əl-Qeyyimin "Tuhfət əl-Məvdud" (səh: 20) əsəri. O, bu sözü "əl-Əvsat" əsərində İbn əl-Munzirə nisbət etmişdir.

[3] Bunu Nəvəvi "əl-Əzkar" əsərində qeyd etmişdir (səh: 349). Həmçinin bax: Səlim əl-Hilali, "Səhih əl-Əzkar lin-Nəvəvi" (2/713) və tam təxric üçün müəllifin "əz-Zikr vəd-Dua vəl-İlac bir-Ruqa" əsərinə (1/416).

Həsəni və Hüseyni, Allah onların hər ikisindən razı olsun, qorumaq üçün belə dua edərdi:

«أُعِيذُكُمَا بِكَلِمَاتِ اللَّهِ التَّامَّةِ مِنْ كُلِّ شَيْطَانٍ وَهَامَّةٍ، وَمِنْ كُلِّ عَيْنٍ لَامَّةٍ».

"Sizi ikinizi hər bir şeytandan, zərərli məxluqdan və hər bir pis gözdən Allahın tam kəlmələrinə sığındırıram!"[1].

## 49. Xəstəni ziyarət edərkən onun üçün edilən dua.

«لَا بَأْسَ طَهُورٌ إِنْ شَاءَ اللَّهُ».

«Eybi yoxdur, inşallah (günahların) təmizlənir»[2].

«أَسْأَلُ اللَّهَ الْعَظِيمَ رَبَّ الْعَرْشِ الْعَظِيمِ أَنْ يَشْفِيَكَ».

- "Əzəmətli Ərşin Rəbbi olan Əzəmətli Allahdan diləyirəm ki, sənə şəfa versin!"

Yeddi dəfə[3].

## 50. Xəstəni ziyarət etmək fəziləti.

Peyğəmbər, Allahın salavatı və salamı onun üzərinə olsun, belə buyurmuşdur:

«إِذَا عَادَ الرَّجُلُ أَخَاهُ الْمُسْلِمَ مَشَى فِي خِرَافَةِ الْجَنَّةِ حَتَّى يَجْلِسَ، فَإِذَا جَلَسَ

---

1 Hədisi Buxari (4/119): (3371) İbn Abbasdan, Allah ondan və atasından razı olsun, rəvayət etmişdir.

2 Hədisi Buxari, "Fəthul-Bari" (10/118): (3616) rəvayət etmişdir.

3 «Bir müsəlman bəndə əcəli çatmayan bir xəstəni ziyarət edib yeddi dəfə... deyərsə, mütləq şəfa tapar». Hədisi Tirmizi (2083) və Əbu Davud (3106) rəvayət etmişdir. Bax: "Sahih Tirmizi" (2/210) və "Sahih əl-Cami" (5/180).

غَمَرَتْهُ الرَّحْمَةُ، فَإِنْ كَانَ غُدْوَةً صَلَّى عَلَيْهِ سَبْعُونَ أَلْفَ مَلَكٍ حَتَّى يُمْسِيَ، وَإِنْ كَانَ مَسَاءً صَلَّى عَلَيْهِ سَبْعُونَ أَلْفَ مَلَكٍ حَتَّى يُصْبِحَ».

«Bir kəs müsəlman qardaşını ziyarət etdikdə, əyləşənə qədər Cənnət bağlarında gəzmiş olar. O, əyləşdikdə isə onu rəhmət bürüyər. Əgər bu səhər vaxtı olarsa, axşam olana qədər yetmiş min mələk onun üçün dua edər, yox əgər axşam vaxtı olarsa, səhər açılana qədər yetmiş min mələk onun üçün dua edər»[1]."

## 51. Həyatından ümidini kəsmiş xəstə insanın duası.

«اللَّهُمَّ اغْفِرْ لِي، وَارْحَمْنِي، وَأَلْحِقْنِي بِالرَّفِيقِ الأَعْلَى».

"Allahım, məni bağışla, mənə rəhm et və məni ən uca dostlara qovuşdur!"[2].

Peyğəmbər, Allahın salavatı və salamı onun üzərinə olsun, vəfat edərkən əllərini suya salıb üzünü məsh edərdi və deyərdi:

«لَا إِلَهَ إِلَّا اللَّهُ

"Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur"

إِنَّ لِلْمَوْتِ سَكَرَاتٍ».

[1] Hədisi Tirmizi (969), İbn Maca (1442) və İmam Əhməd (975) rəvayət etmişdir. Bax: "Səhih İbn Maca" (1/244) və "Səhih Tirmizi" (1/286). Həmçinin Əhməd Şakir hədisin səhih olduğunu bildirmişdir.

[2] Hədisi Buxari (7/10): (4435) və Müslim (4/1893): (2444) rəvayət etmişdir.

"Həqiqətən, ölümün səkəratları (bihuşluğu) vardır"[1].

«لَا إِلَهَ إِلَّا اللَّهُ وَاللَّهُ أَكْبَرُ، لَا إِلَهَ إِلَّا اللَّهُ وَحْدَهُ، لَا إِلَهَ إِلَّا اللَّهُ وَحْدَهُ لَا شَرِيكَ لَهُ، لَا إِلَهَ إِلَّا اللَّهُ لَهُ الْمُلْكُ وَلَهُ الْحَمْدُ، لَا إِلَهَ إِلَّا اللَّهُ وَلَا حَوْلَ وَلَا قُوَّةَ إِلَّا بِاللَّهِ».

"Allahdan başqa haqq məbud yoxdur və Allah ən Böyükdür. Allahdan başqa haqq məbud yoxdur, O təkdir. Allahdan başqa haqq məbud yoxdur, O təkdir, Onun şəriki yoxdur. Allahdan başqa haqq məbud yoxdur, Mülk Onundur və həmd Onadır. Allahdan başqa haqq məbud yoxdur və qüdrət və güc yalnız Allahdadır!"[2].

## 52. Can verən kimsəyə təlqin edilən dua.

«مَنْ كَانَ آخِرُ كَلَامِهِ

"Kim sonuncu kəlməsi:

لَا إِلَهَ إِلَّا اللَّهُ

"Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur"

دَخَلَ الْجَنَّةَ».

- Cənnətə daxil olar"[3].

---

1 Hədisi Buxari, "Fəthul-Bari", (8/144): (4449) rəvayət etmişdir. Hədisdə misvakın zikri vardır.

2 Hədisi Tirmizi (3430) və İbn Maca (3794) rəvayət etmişdir. Albani hədisin səhih olduğunu bildirmişdir. Bax: Səhih Tirmizi (3/152) və Səhih İbn Macə (2/317).

3 Hədisi Əbu Davud (3/190): (3116) rəvayət etmişdir. Həmçinin bax: Səhih əl-Cami (5/432).

## 53. Müsibətə düçar olmuş kimsənin duası.

«إِنَّا لِلَّهِ وَإِنَّا إِلَيْهِ رَاجِعُونَ، اللَّهُمَّ أْجُرْنِي فِي مُصِيبَتِي، وَأَخْلِفْ لِي خَيْرًا مِنْهَا».

"Biz, Allaha məxsusuq və Ona da qayıdacağıq! Allahım, müsibətimə görə məni mükafatlandır və onun əvəzinə mənə daha xeyirlisini ver!"[1].

## 54. Meyitin gözlərini qapayarkən edilən dua.

«اللَّهُمَّ اغْفِرْ لِفُلَانٍ (بِاسْمِهِ) وَارْفَعْ دَرَجَتَهُ فِي المَهْدِيِّينَ، وَاخْلُفْهُ فِي عَقِبِهِ فِي الغَابِرِينَ، وَاغْفِرْ لَنَا وَلَهُ يَا رَبَّ العَالَمِينَ، وَافْسَحْ لَهُ فِي قَبْرِهِ، وَنَوِّرْ لَهُ فِيهِ».

«Allahım! Filankəsi (adını çəkərək) bağışla, dərəcəsini hidayət olunmuşlar arasında yüksəlt, geridə qalanların arasında nəslinə xələf ol! Ey aləmlərin Rəbbi, bizi və onu bağışla! Onun qəbrini geniş et və oranı onun üçün nurlandır!»[2].

## 55. Cənazə namazında meyit üçün oxunan dua.

«اللَّهُمَّ اغْفِرْ لَهُ وَارْحَمْهُ، وَعَافِهِ، وَاعْفُ عَنْهُ، وَأَكْرِمْ نُزُلَهُ، وَوَسِّعْ مُدْخَلَهُ، وَاغْسِلْهُ بِالمَاءِ وَالثَّلْجِ وَالبَرَدِ، وَنَقِّهِ مِنَ الخَطَايَا كَمَا نَقَّيْتَ الثَّوْبَ الأَبْيَضَ مِنَ الدَّنَسِ، وَأَبْدِلْهُ دَارًا خَيْرًا مِنْ دَارِهِ، وَأَهْلاً خَيْرًا مِنْ أَهْلِهِ، وَزَوْجًا خَيْرًا مِنْ زَوْجِهِ، وَأَدْخِلْهُ الجَنَّةَ، وَأَعِذْهُ مِنْ عَذَابِ القَبْرِ [وَعَذَابِ النَّارِ]».

«Allahım! Onu bağışla, ona rəhm et, ona

[1] Hədisi Müslim: (2/632), (918) rəvayət etmişdir.
[2] Hədisi Müslim (2/634): (920) rəvayət etmişdir.

salamatlıq ver, onu əfv et, onu gözəl tərzdə qarşıla, onun yerini geniş et! Onu su, qar və dolu ilə yu! Ağ paltarı kirdən təmizlədiyin kimi onu da günahlardan təmizlə! Ona evinin əvəzinə daha xeyirli ev, ailəsinin əvəzinə daha xeyirli ailə, zövcəsinin əvəzinə daha xeyirli zövcə ver! Onu Cənnətə daxil et! Onu qəbir əzabından [və Cəhənnəm əzabından] qoru!»[1].

«اللَّهُمَّ اغْفِرْ لِحَيِّنَا وَمَيِّتِنَا، وَشَاهِدِنَا وَغَائِبِنَا، وَصَغِيرِنَا وَكَبِيرِنَا، وَذَكَرِنَا وَأُنْثَانَا، اللَّهُمَّ مَنْ أَحْيَيْتَهُ مِنَّا فَأَحْيِهِ عَلَى الإِسْلَامِ، وَمَنْ تَوَفَّيْتَهُ مِنَّا فَتَوَفَّهُ عَلَى الإِيمَانِ، اللَّهُمَّ لَا تَحْرِمْنَا أَجْرَهُ، وَلَا تُضِلَّنَا بَعْدَهُ».

«Allahım! Dirimizi və ölümüzü, burada olanımızı və olmayanımızı, kiçiyimizi və böyüyümüzü, kişimizi və qadınımızı bağışla! Allahım! Bizdən kimi yaşatsan, müsəlman kimi yaşat! Bizdən kimi öldürsən, mömin kimi öldür! Allahım! Onun əcrindən bizi məhrum etmə və ondan sonra bizi azdırma!»[2].

«اللَّهُمَّ إِنَّ فُلَانَ بْنَ فُلَانٍ فِي ذِمَّتِكَ، وَحَبْلِ جِوَارِكَ، فَقِهِ مِنْ فِتْنَةِ القَبْرِ، وَعَذَابِ النَّارِ، وَأَنْتَ أَهْلُ الوَفَاءِ وَالحَقِّ، فَاغْفِرْ لَهُ وَارْحَمْهُ إِنَّكَ أَنْتَ الغَفُورُ الرَّحِيمُ».

«Allahım! "Filankəs oğlu filankəs" Sənin himayəndə və amanındadır! Onu qəbir fitnəsindən

---

[1] Hədisi Müslim(2/663): (963) rəvayət etmişdir.

[2] Əbu Davud: (3201), Tirmizi: (1024), Nəsai: (1985), İbn Məcə (1/480): (1498) və İmam Əhməd (2/368): (8809) rəvayət etmişdir. Həmçinin bax: Səhih İbn Məcə (1/251).

və Cəhənnəm əzabından qoru! Sən vəfa və haqq əhlisən. Onu bağışla və ona rəhm et! Həqiqətən, Sən Bağışlayansan, Rəhmlisən!»[1].

«اللَّهُمَّ عَبْدُكَ وَابْنُ أَمَتِكَ احْتَاجَ إِلَى رَحْمَتِكَ، وَأَنْتَ غَنِيٌّ عَنْ عَذَابِهِ، إِنْ كَانَ مُحْسِنًا فَزِدْ فِي حَسَنَاتِهِ، وَإِنْ كَانَ مُسِيئًا فَتَجَاوَزْ عَنْهُ».

"Allahım! Sənin qulun və kənizinin oğlu Sənin rəhmətinə möhtacdır. Sən isə ona əzab verməyə ehtiyacsızsan. Əgər o, yaxşı əməl sahibi idisə, onun yaxşı əməllərini artır, yox əgər pis əməl sahibi idisə, onun günahlarından keç!"[2].

## 56. Həddi-büluğa çatmamış uşağın cənazə namazında oxunulan dua.

«اللَّهُمَّ أَعِذْهُ مِنْ عَذَابِ الْقَبْرِ».

«Allahım! Onu qəbir əzabından qoru!»[3].

Əgər belə desə:

«اللَّهُمَّ اجْعَلْهُ فَرَطًا وَذُخْرًا لِوَالِدَيْهِ، وَشَفِيعًا مُجَابًا، اللَّهُمَّ ثَقِّلْ بِهِ مَوَازِينَهُمَا، وَأَعْظِمْ بِهِ أُجورَهُمَا، وَأَلْحِقْهُ بِصَالِحِ الْمُؤْمِنِينَ، وَاجْعَلْهُ فِي كَفَالَةِ إِبْرَاهِيمَ، وَقِهِ

---

1 Hədisi İbn Macə: (1499) və Əbu Davud (3/211), (3202) rəvayət etmişdir. Bax: Səhih İbn Macə (1/251).

2 Hədisi Hakim rəvayət edib səhih saymış, Zəhəbi də onunla razılaşmışdır (1/359). Bax: Albaninin “Əhkamul-Cənaiz” əsəri (səh: 125).

3 (Səid ibn əl-Müseyyib demişdir: Əbu Hureyrənin, Allah ondan razı olsun, arxasında heç bir günah işləməmiş bir uşağın cənazə namazını qıldım və onun belə dediyini eşitdim...). Hədisi Malik “əl-Muvatta” (1/288), İbn Əbi Şeybə “əl-Musənnəf” (3/217) və əl-Beyhəqi (4/9) rəvayət etmiş, Şueyb əl-Ərnaut isə əl-Bəğavinin “Şərhus-Sünnə” əsərinin təhqiqində (5/357) onun isnadını səhih hesab etmişdir.

بِرَحْمَتِكَ عَذَابَ الجَحِيمِ، وَأَبْدِلْهُ دَارًا خَيْرًا مِنْ دَارِهِ، وَأَهْلًا خَيْرًا مِنْ أَهْلِهِ، اللَّهُمَّ اغْفِرْ لِأَسْلَافِنَا، وَأَفْرَاطِنَا، وَمَنْ سَبَقَنَا بِالإِيمَانِ».

«Allahım! Onu valideynləri üçün (Cənnətə girməkdə onları) qabaqlayan, saxlanılan bir nemət və duası qəbul olunan bir şəfaətçi et! Allahım! Onun sayəsində onların (yaxşı əməl) tərəzilərini ağır et və onların mükafatlarını böyük et! Onu əməlisaleh möminlərə qovuşdur, onu İbrahimin (Aleyhi-ssalətu və-ssələm) kəfalətində et və Öz mərhəmətinlə onu Cəhənnəm əzabından qoru! Ona evinin əvəzinə daha xeyirli ev, ailəsinin əvəzinə daha xeyirli ailə ver! Allahım! Sələflərimizi, (Cənnətə girməkdə bizi) qabaqlayanlarımızı və imanda bizdən əvvəl olanları bağışla!»

deyərsə, bu yaxşı olar[1].

«اللَّهُمَّ اجْعَلْهُ لَنَا فَرَطًا، وَسَلَفًا، وَأَجْرًا».

«Allahım! Onu bizim üçün (cənnətə girmək-də bizi) qabaqlayan, sələf və mükafat et!»[2].

## 57. Təziyə (başsağlığı) duası.

«إِنَّ لِلَّهِ مَا أَخَذَ، وَلَهُ مَا أَعْطَى، وَكُلُّ شَيْءٍ عِنْدَهُ بِأَجَلٍ مُسَمًّى... فَلْتَصْبِرْ

---

1 Bax: İbn Qudamə, "əl-Muğni", (3/416), Şeyx Əbdüləziz bin Abdullah bin Baz, Allah ona rəhmət etsin, "Bütün ümmət üçün mühüm dərslər", (səh: 15).

2 Əl-Həsən uşağa Fatihə surəsini oxuyar və deyərdi... hədis. Bunu əl-Bəğavi "Şərhus-Sunnə" əsərində (5/357) və Abdurrazzaq (6588) rəvayət etmişdir. Həmçinin Buxari bunu "əl-Cənaiz" kitabında, (65) "Cənazə üzərinə Fatihə surəsini oxumaq" babında (2/113), (1335) nömrəli hədisdən əvvəl "təliq/ muallәq" olaraq qeyd etmişdir.

وَلْتَحْتَسِبْ».

«Şübhəsiz ki, aldığı da, verdiyi də Allahındır. Onun yanında hər şeyin müəyyən edilmiş bir əcəli vardır... Odur ki, səbr etsin və savabını Allahdan umsun»[1].

Əgər belə desə:

«أَعْظَمَ اللَّهُ أَجْرَكَ، وَأَحْسَنَ عَزَاءَكَ، وَغَفَرَ لِمَيِّتِكَ».

"Allah əcrini artırsın, sənə gözəl səbir versin və mərhumunu bağışlasın!"

gözəldir[2].

## 58. Meyit qəbrə qoyularkən edilən dua.

«بِسْمِ اللَّهِ وَعَلَى سُنَّةِ رَسُولِ اللَّهِ».

"Allahın adı ilə və Allah Rəsulunun sünnəsi üzrə!"[3].

## 59. Meyitin dəfn etdikdən sonra edilən dua.

«اللَّهُمَّ اغْفِرْ لَهُ، اللَّهُمَّ ثَبِّتْهُ».

, «Allahım onu bağışla! Allahım onu sabit et!»[4].

---

[1] Hədisi Buxari (2/80): (1284) və Müslim (2/636): (923) rəvayət etmişdir.

[2] Nəvəvinin "əl-Əzkar" (səh: 126).

[3] Əbu Davud (3/314): (3215) səhih sənədlə və Əhməd: (5234) və (4812) bu ləfzlə:[Bismilləh, və alə milləti Rasu-lil-ləhi] - «Allahın adı ilə və Rəsulullahın dini üzrə!» - sənədi səhihdir.

[4] Peyğəmbər, sallallahu aleyhi və səlləm, meyiti dəfn edib qurtardıqdan sonra qəbrin yanında durar və deyərdi: "Qardaşınız üçün bağışlanma diləyin, Allahdan onu sabit etməsini istəyin. Çünki o indi sorğu-sual olunur". Əbu Davud (3/315): (3223). Hakim rəvayət edib səhih hesab etmiş, Zəhəbi də onunla razılaşmışdır (1/370).

## 60. Qəbrləri ziyarət edərkən oxunan dua.

«السَّلَامُ عَلَيْكُمْ أَهْلَ الدِّيَارِ، مِنَ الْمُؤْمِنِينَ وَالْمُسْلِمِينَ، وَإِنَّا إِنْ شَاءَ اللَّهُ بِكُمْ لَاحِقُونَ، [وَيَرْحَمُ اللَّهُ الْمُسْتَقْدِمِينَ مِنَّا وَالْمُسْتَأْخِرِينَ] أَسْأَلُ اللَّهَ لَنَا وَلَكُمُ الْعَافِيَةَ».

- «Ey (bu) diyarın mömin və müsəlman sakinləri! Sizə salam olsun! Allah istəsə biz də sizə qovuşacağıq. [Allah bizdən əvvəl gedənlə-rə və qalanlara rəhmət etsin!]. Allahdan özü-müzə və sizə salamatlıq diləyirəm!»[1].

## 61. Külək əsərkən edilən dua.

«اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ خَيْرَهَا، وَأَعُوذُ بِكَ مِنْ شَرِّهَا».

"Allahım! Səndən onun xeyrini diləyirəm və onun şərindən Sənə sığınıram!"[2].

«اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ خَيْرَهَا، وَخَيْرَ مَا فِيهَا، وَخَيْرَ مَا أُرْسِلَتْ بِهِ، وَأَعُوذُ بِكَ مِنْ شَرِّهَا، وَشَرِّ مَا فِيهَا، وَشَرِّ مَا أُرْسِلَتْ بِهِ».

"Allahım! Səndən onun (küləyin) xeyrini, onda olan xeyiri və onunla göndərilən xeyiri diləyirəm. Onun şərindən, onda olan şərdən və onunla

[1] Müslim: (2/671): (975) nömrəsi ilə və İbn Macə: (1/494) ləfz isə (1547) nömrəsi ilə ona aiddir, Bureydədən, Allah ondan razı olsun. Mötərizə arasındakı hissə isə Müslimin (2/671): (975) nömrəsi ilə Aişədən, Allah ondan razı olsun, rəvayət etdiyi hədisdəndir.

[2] Əbu Davud: (4/326) (5099), İbn Macə: (2/1228), (3727) rəvayət etmişdir. Həmçinin bax: Səhih İbn Macə (2/305).

göndərilən şərdən Sənə sığınıram"[1].

## 62. Göy guruldayarkən edilən dua.

«سُبْحَانَ الَّذِي يُسَبِّحُ الرَّعْدُ بِحَمْدِهِ وَالمَلَائِكَةُ مِنْ خِيفَتِهِ».

"Göy gurultusunun həmd edərək, mələklərin isə qorxusundan şəninə təriflər dediyi (Allah) pak və müqəddəsdir!"[2].

## 63. Yağışın yağması üçün edilən bəzi dualar.

«اللَّهُمَّ اسْقِنَا غَيْثًا مُغِيثًا مَرِيئًا مَرِيعًا، نَافِعًا غَيْرَ ضَارٍّ، عَاجِلًا غَيْرَ آجِلٍ».

- «Allahım! Bizə dadımıza çatan, bol-bərəkətli, faydalı, zərərsiz, tezliklə, gecikdirmədən yağış endir!»[3].

«اللَّهُمَّ أَغِثْنَا، اللَّهُمَّ أَغِثْنَا، اللَّهُمَّ أَغِثْنَا».

"Allahım, bizə yağış yağdır! Allahım, bizə yağış yağdır! Allahım, bizə yağış yağdır!"[4].

«اللَّهُمَّ اسْقِ عِبَادَكَ، وَبَهَائِمَكَ، وَانْشُرْ رَحْمَتَكَ، وَأَحْيِي بَلَدَكَ المَيِّتَ».

«Allahım! Qullarını və heyvanlarını suvar, Öz

---

[1] Hədisi Buxari: (3206) və (4829) və Müslim (2/666): (899). Hədisin ləfzi Müslimə aiddir.

[2] Abdullah bin Zubeyr, Allah onların hər ikisindən razı olsun, göy gurultusu eşitdiyi zaman söhbəti kəsər və deyərdi:... Bu rəvayət "əl-Muvatta"da (2/992) keçir və Albani "Səhih əl-Kəlim ət-Tayyib" (157) kitabında demişdir: "İsnadı səhih "məvquf" rəvayətdir".

[3] Hədisi Əbu Davud (1/303): (1171) rəvayət etmişdir. Albani "Sahih Əbu Davud" əsərində: (1/216) hədisin Səhih olduğunu bildirmişdir.

[4] Hədisi Buxari (1/224): (1014) və Müslim (2/613): (897) rəvayət etmişdir.

rəhmətini yay və ölmüş torpağını dirilt!»[1].

## 64. Yağışı görərkən edilən dua.

«اللَّهُمَّ صَيِّبًا نَافِعًا».

"Allahım! (Bu yağışı) bol, faydalı et!"[2].

## 65. Yağış yağdıqdan sonra edilən zikr.

«مُطِرْنَا بِفَضْلِ اللَّهِ وَرَحْمَتِهِ».

"Allahın lütfü və mərhəməti ilə bizə yağmur endirildi"[3].

## 66. Havanın açılması üçün edilən dualardan.

«اللَّهُمَّ حَوَالَيْنَا وَلَا عَلَيْنَا، اللَّهُمَّ عَلَى الآكَامِ وَالظِّرَابِ، وَبُطُونِ الأَوْدِيَةِ، وَمَنَابِتِ الشَّجَرِ».

"Allahım! (Yağışı) üstümüzə deyil, ətrafımıza yağdır. Allahım, təpələrə, dağlara, vadilərə və ağac bitən yerlərə (yağdır)!"[4].

## 67. Hilal görünərkən edilən dua.

«اللَّهُ أَكْبَرُ، اللَّهُمَّ أَهِلَّهُ عَلَيْنَا بِالأَمْنِ وَالإِيمَانِ، وَالسَّلَامَةِ وَالإِسْلَامِ، وَالتَّوْفِيقِ لِمَا تُحِبُّ رَبَّنَا وَتَرْضَى، رَبُّنَا وَرَبُّكَ اللَّهُ».

---

[1] Hədisi Əbu Davud: (1/305): (1178) rəvayət etmiş. Albani isə "Səhih Əbu Davud"da (1/218) hədisi həsən saymışdır.

[2] Hədisi Buxari (Fəthul-Bari ilə, 2/518): (1032) rəvayət etmişdir.

[3] Hədisi Buxari (1/205): (846) və Müslim: (71) rəvayət etmişdir.

[4] Hədisi Buxari (1/224): (933) və Müslim (2/614): (897) rəvayət etmişdir.

«Allah ən böyükdür. Allahım! Bu hilalı üzərimizə əmin-amanlıq və imanla, salamatlıq və İslamla və Sənin, ey Rəbbimiz, sevib razı qaldığın əməllərə müvəffəqiyyətlə doğdur. Rəbbimiz və sənin də Rəbbin Allahdır»[1].

## 68. Oruc tutan iftarını açarkən etdiyi dua.

«ذَهَبَ الظَّمَأُ وَابْتَلَّتِ العُرُوقُ، وَثَبَتَ الأَجْرُ إِنْ شَاءَ اللَّهُ».

«Susuzluq getdi, damarlar islandı və əcr sabit oldu, in şə Allah»[2].

«اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ بِرَحْمَتِكَ الَّتِي وَسِعَتْ كُلَّ شَيْءٍ أَنْ تَغْفِرَ لِي».

"Allahım! Hər şeyi əhatə edən rəhmətinlə Səndən məni bağışlamağını diləyirəm!"[3].

## 69. Yeməkdən əvvəl edilən dua.

«إِذَا أَكَلَ أَحَدُكُمْ طَعَامًا فَلْيَقُلْ:

«Sizdən biri yemək yeyərkən belə desin:

بِسْمِ اللَّهِ،

Allahın adı ilə,

فَإِنْ نَسِيَ فِي أَوَّلِهِ فَلْيَقُلْ:

---

[1] Tirmizi (5/504): (3451) və Darimi eyni ləfzlə (1/336). Bax: Səhih Tirmizi (3/157).

[2] Hədisi Əbu Davud (2/306): (2359) və başqaları rəvayət etmişdir. Bax: Səhihul-Cəmi (4/209).

[3] Hədisi İbn Macə: (1/557): (1753) Abdullah bin Amrın, Allah onlardan razı olsun, duasından rəvayət etmişdir. Hafiz "Təxric əl-Əzkar" adlı əsərində bu hədisi həsən saymışdır. Bax: "Şərh əl-Əzkar" (4/342).

Əgər yeməyin əvvəlində deməyi unutsa, belə desin:

بِسْمِ اللَّهِ فِي أَوَّلِهِ وَآخِرِهِ».

"Əvvəlində də, axırında da Allahın adı ilə!"[1].

«مَنْ أَطْعَمَهُ اللَّهُ الطَّعَامَ فَلْيَقُلْ:

"«Allah kimə yemək yedizdirərsə, desin:"

«Allahın ona ruzi olaraq yemək verdiyi kəs belə desin:»

اللَّهُمَّ بَارِكْ لَنَا فِيهِ وَأَطْعِمْنَا خَيْرًا مِنْهُ،

“Allahım, bunu bizim üçün bərəkətli et və bizə ondan daha xeyirlisini yedizdir”

وَمَنْ سَقَاهُ اللَّهُ لَبَنًا فَلْيَقُلْ:

Kimə də Allah süd içizdirərsə, belə desin:

اللَّهُمَّ بَارِكْ لَنَا فِيهِ وَزِدْنَا مِنْهُ».

"Allahım! Bunu bizim üçün bərəkətli et və ondan bizə artır!"[2]."

## 70. Yeməkdən sonra edilən dua.

«الحَمْدُ لِلَّهِ الَّذِي أَطْعَمَنِي هَذَا، وَرَزَقَنِيهِ، مِنْ غَيْرِ حَوْلٍ مِنِّي وَلَا قُوَّةٍ».

"Bunu mənə yedirdən və özüm heç bir qüdrət və güc sərf etmədən onu mənə bəxş edən Allaha həmd

[1] Əbu Davud (3/347): (3767), Tirmizi (4/288): (1858) rəvayət etmişdir. Bax: Səhih Tirmizi (2/167).

[2] Tirmizi (5/506): (3455). Bax: Səhih Tirmizi (3/158).

olsun!"[1].

«الْحَمْدُ لِلَّهِ حَمْدًا كَثِيرًا طَيِّبًا مُبَارَكًا فِيهِ، غَيْرَ [مَكْفِيٍّ وَلَا] مُوَدَّعٍ، وَلَا مُسْتَغْنًى عَنْهُ رَبَّنَا».

«Rəbbimiz Allaha həmd olsun! (Özü də) çoxlu, xoş, mübarək, [heç vaxt] yetərli sayılmayan, [sonsuz], ardı-arası kəsilməyən, onsuz keçinmək mümkün olma-yan bir həmd!»[2].

## 71. Qonağın yemək sahibi üçün etdiyi dua.

«اللَّهُمَّ بَارِكْ لَهُمْ فِيمَا رَزَقْتَهُم، وَاغْفِرْ لَهُمْ وَارْحَمْهُمْ».

"Allahım! Onlara verdiyin ruzini bərəkətli et, onları bağışla və onlara rəhm et!"[3].

## 72. Yemək və ya su istəmək üçün dua ilə eyham vurmaq.

«اللَّهُمَّ أَطْعِمْ مَنْ أَطْعَمَنِي، وَاسْقِ مَنْ سَقَانِي».

- "Allahım! Məni yedirdəni yedirt, mənə içirdəni də içirt!"[4].

## 73. (Başqa evdə) orucunu açan şəxsin ev əhli üçün etdiyi dua.

---

1 Hədisi, Nəsai istisna olmaqla, Sünən kitabların tərtibçiləri: Əbu Davud: (4025), Tirmizi: (3458) və İbn Macə: (3285) rəvayət etmişdir. Bax: Sahih Tirmizi (3/159).

2 Hədisi Buxari (6/214): (5458) və Tirmizi bu ləfzlərlə (5/507): (3456) rəvayət etmişdir.

3 Hədisi Müslim: (3/1615): (2042) rəvayət etmişdir.

4 Hədisi Müslim (3/1626): (2055) rəvayət etmişdir.

«أَفْطَرَ عِنْدَكُمُ الصَّائِمُونَ، وَأَكَلَ طَعَامَكُمُ الأَبْرَارُ، وَصَلَّتْ عَلَيْكُمُ الْمَلَائِكَةُ».

"Süfrənizdə oruc tutanlar iftar açsın, yeməyinizi əməlisalehlər yesin və mələklər sizin üçün dua etsin"[1].

## 74- Oruc tutan şəxsin, yemək süfrəsi açıldığı zaman orucunu pozmaq istəmədikdə etdiyi dua.

«إِذَا دُعِيَ أَحَدُكُمْ فَلْيُجِبْ، فَإِنْ كَانَ صَائِمًا فَلْيُصَلِّ، وَإِنْ كَانَ مُفْطِرًا فَلْيَطْعَمْ».

"Sizdən biriniz dəvət edildiyi zaman qoy dəvəti qəbul etsin. Əgər orucludursa, qoy dəvət edənə xeyir-dua versin, yox, əgər oruclu deyilsə, qoy yesin"[2].

"Fəlyusəlli" sözünün mənası, yəni: qoy dua etsin deməkdir.

## 75. Oruc tutan onu söyən kimsəyə nə deməlidir.

«إِنِّي صَائِمٌ، إِنِّي صَائِمٌ».

---

[1] Hədisi Əbu Davud (3/367): (3856), İbn Macə (1/556): (1747) və Nəsai "Əməlul-yəvm val-leylə" adlı əsərində: (296-298) rəvayət etmişdir. Nəsai, Peyğəmbər, sallallahu aleyhi va səlləm, bunu bir ailənin evində iftar etdiyi zaman söylədiyini bildirmiş, Albani isə "Sahih Əbi Davud" (2/730) adlı əsərində hədisin səhih olduğunu söyləmişdir.

[2] Hədisi Müslim (2/1054): (1150) rəvayət etmişdir.

"Mən orucam, mən orucam"[1].

## 76. İlk barı görərkən edilən dua.

«اللَّهُمَّ بَارِكْ لَنَا فِي ثَمَرِنَا، وَبَارِكْ لَنَا فِي مَدِينَتِنَا، وَبَارِكْ لَنَا فِي صَاعِنَا، وَبَارِكْ لَنَا فِي مُدِّنَا».

«Allahım, bəhrəmizə bərəkət ver, şəhərimizə bərəkət ver, "saamıza" bərəkət ver və "muddumuza" bərəkət ver!»[2].

## 77. Asqırdıqda edilən dua.

«إِذَا عَطَسَ أَحَدُكُم فَلْيَقُلِ:

«Sizdən biriniz asqırdığı zaman qoy belə desin:

الحَمْدُ لِلَّهِ،

Həmd Allaha məxsusdur,

وَلْيَقُلْ لَهُ أَخُوهُ أَوْ صَاحِبُهُ:

Qardaşı və ya dostu isə ona desin:

يَرْحَمُكَ اللَّهُ،

Allah sənə rəhm etsin,

فَإِذَا قَالَ لَهُ: يَرحَمُكَ اللَّهُ، فَلْيَقُلْ:

Əgər o, ona: «يرحمك الله» [Yarhəmukəllah] "Allah sənə rəhm etsin!" deyirsə, o da ona belə deməlidir:

---

1 Hədisi Buxari Fəthi ilə (4/103): (1894) və Müslim (2/806): (1151) rəvayət etmişdir.

2 Hədisi Müslim (2/1000): (1373) rəvayət etmişdir.

يَهْدِيكُمُ اللَّهُ وَيُصْلِحُ بَالَكُم».

"Allah sizi doğru yola yönəltsin və işinizi avand etsin!"[1].

## 78. Asqırıb Allaha həmd edən kafirə nə deyilər.

«يَهْدِيكُمُ اللَّهُ وَيُصْلِحُ بَالَكُمْ».

"Allah sizi doğru yola yönəltsin və işinizi avand etsin!"[2].

## 79. Evlənən üçün edilən dua.

«بَارَكَ اللَّهُ لَكَ، وَبَارَكَ عَلَيْكَ، وَجَمَعَ بَيْنَكُمَا فِي خَيْرٍ».

"Allah sənə bərəkət versin, sənin üzərinə bərəkət yağdırsın və ikinizi xeyir üzərində birləşdirsin!"[3].

## 80. Evlənən və minik heyvanı alanın edəcəyi dua.

"Sizdən biriniz bir qadınla evləndikdə və ya bir xidmətçi aldıqda, belə desin:

«اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ خَيْرَهَا، وَخَيْرَ مَا جَبَلْتَهَا عَلَيْهِ، وَأَعُوذُ بِكَ مِنْ شَرِّهَا، وَشَرِّ مَا

---

1 Hədisi Buxari (7/125): (5870) rəvayət etmişdir.

2 Tirmizi (5/82): (2741), İmam Əhməd (4/400): (19586) və Əbu Davud (4/308): (5040) rəvayət etmişdir. Həmçinin bax: "Səhih Tirmizi" (2/354).

3 Hədisi, Nəsai istisna olmaqla, dörd "Sünən" kitabların müəllifləri: Əbu Davud: (2130), Tirmizi: (1091), İbn Macə: (1905), Nəsai isə "Əməlul-Yəvm val-Leylə" adlı əsərində (259) nəql etmişdir. Bax: Səhih ət-Tirmizi (1/316).

جَبَلْتَهَا عَلَيْهِ،

"Allahım! Səndən həm onun xeyrini, həm də ona verdiyin xilqətin xeyrini diləyirəm. Onun şərindən və ona verdiyin xilqətin şərindən Sənə sığınıram!"

وَإِذَا اشْتَرَى بَعِيرًا فَلْيَأْخُذْ بِذِرْوَةِ سَنَامِهِ وَلْيَقُلْ مِثْلَ ذَلِكَ».

Bir kəs dəvə alarsa, qoy hörgücünün ən hündür yerindən tutub eyni sözləri desin"[1].

## 81. Zövcə ilə yaxınlıqdan əvvəl edilən dua.

«بِسْمِ اللَّهِ، اللَّهُمَّ جَنِّبْنَا الشَّيْطَانَ، وَجَنِّبِ الشَّيْطَانَ مَا رَزَقْتَنَا».

"Allahın adı ilə! Allahım, şeytanı bizdən uzaq et və bizə bəxş etdiyin ruzidən də şeytanı uzaq et!"[2].

## 82. Qəzəblənərkən edilən dua.

«أَعُوذُ بِاللَّهِ مِنَ الشَّيْطَانِ الرَّجِيمِ».

"Lənətlənmiş şeytandan Allaha sığını-ram!"[3].

## 83. Müsibətə düçar olmuş kimsəni görərkən edilən dua.

«الحَمْدُ لِلَّهِ الَّذِي عَافَانِي مِمَّا ابْتَلَاكَ بِهِ، وَفَضَّلَنِي عَلَى كَثِيرٍ مِمَّنْ خَلَقَ تَفْضِيلًا».

- "Sənə üz vermiş müsibətdən məni sala-mat edən və məni yaratdıqlarının çoxun-dan fə-zilətli

[1] Hədisi Əbu Davud (2/248): (2160), İbn Macə: (1918) rəvayət etmişdir. Bax: "Sahih İbn Macə" (1/324).
[2] Hədisi Buxari (6/141): (141) və Müslim (2/1028): (1434) rəvayət etmişdir.
[3] Hədisi Buxari (7/99): (3282) və Müslim (4/2015): (2610) rəvayət etmişdir.

edərək üstün tutan Allaha həmd olsun!"[1].

## 84. Məclisdə nə deyilir.

İbn Ömərdən, Allah ondan razı olsun, rəvayət olunur ki, o, belə demişdir: "Peyğəmbərin, sallallahu aleyhi va səlləm, bir məclisdə ayağa qalxmamışdan əvvəl yüz dəfə (bu sözləri) dediyi sayılardı:

«رَبِّ اغْفِرْ لِي، وَتُبْ عَلَيَّ، إِنَّكَ أَنْتَ التَّوَّابُ الغَفُورُ».

"Rəbbim, məni bağışla və tövbəmi qəbul et! Həqiqətən, Sən tövbələri qəbul edən, Bağışlayansan!"[2].

## 85. Məclisin kəffarəsi.

«سُبْحَانَكَ اللَّهُمَّ وَبِحَمْدِكَ، أَشْهَدُ أَنْ لَا إِلَهَ إِلَّا أَنْتَ، أَسْتَغْفِرُكَ وَأَتُوبُ إِلَيْكَ».

"Allahım! Sən pak və müqəddəssən! Sənə həmd olsun! Mən şahidlik edirəm ki, Sən-dən başqa məbud yoxdur. Səndən bağışlan-ma diləyir və Sənə tövbə edirəm!"[3].

---

[1] Tirmizi (5/494) və (5/493): (3432). Həmçinin bax: Səhih Tirmizi (3/153).

[2] Hədisi Tirmizi: (3434) və İbn Macə: (3814) rəvayət etmişdir. Bax: Sahih Tirmizi (3/153) və Sahih İbn Macə (2/321). Hədisin ləfzi Tirmiziyə aiddir.

[3] Sünən sahibləri: Əbu Davud (4858), Tirmizi (3433), Nəsai (1344). Bax: Səhih ət-Tirmizi (3/153). Aişədən, Allah ondan razı olsun, belə dediyi sabit olmuşdur: «Allah Rəsulu, sallallahu aleyhi və səlləm, nə bir məclisdə oturardı, nə Quran tilavət edərdi, nə də namaz qılardı ki, onu bu kəlmələrlə bitirməsin...». Hədisini Nəsai "Əməlu-l-Yəumi və-l-Leylə" əsərində (308) və Əhməd (6/77): (24486) nömrəsi ilə rəvayət etmişdir. Dr. Fəruq Həmadə Nəsainin "Əməlu-l-Yəumi və-l-Leylə" əsərinə olan təhqiqində (səh: 273) hədisin səhih olduğunu bildirmişdir.

## 86. [Ğafəra-Llahu lək] – “Allah səni bağışlasın!” – deyən kimsə üçün edilən dua.

«وَلَكَ».

- "Və səni"[1].

## 87. Sənə yaxşılıq edən şəxsə edilən dua.

«جَزَاكَ اللَّهُ خَيْرًا».

"Allah səni xeyirlə mükafatlandırsın!"[2].

## 88. Allahın onun vasitəsilə Dəccaldan qoruduğu dualar.

«مَنْ حَفِظَ عَشْرَ آيَاتٍ مِنْ أَوَّلِ سُورَةِ الْكَهْفِ عُصِمَ مِنَ الدَّجَّالِ»،

“Kim Kəhf surəsinin əvvəlindən on ayə əzbərləyərsə, Dəccaldan qorunmuş olar”[3].

Hər namazın son təşəhhüdünün ardınca onun fitnəsindən Allaha sığınmaq[4].

## 89. “Səni Allah üçün sevirəm” deyən kəs üçün edilən dua.

«أَحَبَّكَ الَّذِي أَحْبَبْتَنِي لَهُ».

---

[1] Hədisi Əhməd "Müsnəd" əsərində (5/82): (20778) və Nəsai "Əməlu-l-Yəum və-l-Leylə" əsərində (səh: 218): (421) rəvayət etmişdir. Təhqiq: Dr. Faruq Həmadə.

[2] Hədisi Tirmizi: (2035) rəvayət etmişdir. Bax: Sahihul-Cami (6244) və Sahihut-Tirmizi (2/200).

[3] Bax: bu kitabın (41-ci səhifəsindəki) 55-ci və 56-cı hədislərə.

[4] Hədisi Muslim (1/555): (809) rəvayət etmişdir. Başqa rəvayətdə isə Kəhf surəsinin sonundan (1/556): (809).

«Məni kimə görə sevdinsə, O da səni sevsin»[1].

**90. Malını sənə təklif edən kimsə üçün edilən dua.**

«بَارَكَ اللَّهُ لَكَ فِي أَهْلِكَ وَمَالِكَ».

"Allah sənin ailənə və malına bərəkət versin!"[2].

**91. Borcu qaytararkən borc verənə edilən dua.**

«بَارَكَ اللَّهُ لَكَ فِي أَهْلِكَ وَمَالِكَ، إِنَّمَا جَزَاءُ السَّلَفِ الحَمْدُ وَالأَدَاءُ».

"Allah əhlinə və malına bərəkət versin! Həqiqətən, borcun əvəzi təşəkkür və ödəmədir"[3].

**92. Allaha şərik qoşmaqdan qorxanın edəcəyi dua.**

«اللَّهُمَّ إِنِّي أَعُوذُ بِكَ أَنْ أُشْرِكَ بِكَ وَأَنَا أَعْلَمُ، وَأَسْتَغْفِرُكَ لِمَا لَا أَعْلَمُ».

"Allahım! Bilərəkdən Sənə şərik qoşmaqdan Sənə sığınıram və bilmədiklərimə görə Səndən bağışlanma diləyirəm"[4].

---

1 Hədisi Əbu Davud (4/333): (5125) rəvayət etmişdir. Albani, Səhihu Sünəni Əbi Davud (3/965) adlı əsərində hədisin həsən olduğunu bildirmişdir.

2 Buxari "Fəthul-Bari" ilə (4/288): (2049).

3 Hədisi Nəsai, Aməlul-Yəum vəl-Leylə əsərində (səh: 300) və İbn Macə (2/809): (2424) rəvayət etmişdir. Bax: Səhih İbn Macə (2/55).

4 Əhməd "Müsnəd" əsərində: (4/403): (19606) və Buxari "əl-Ədəb əl-Müfrəd" əsərində: (716) rəvayət etmişdirlər. Bax: "Sahih əl-Cami" (3/233) və Albaninin "Sahih ət-Tərğib vət-Tərhib" (1/19) əsərinə.

## 93. "Allah sənə bərəkət versin" - deyən kimsəyə edilən dua.

«وَفِيكَ بَارَكَ اللَّهُ».

"Allah sənə də bərəkət versin!"[1].

## 94. Pis əlamətə qarşı edilən dua.

«اللَّهُمَّ لَا طَيْرَ إِلَّا طَيْرُكَ، وَلَا خَيْرَ إِلَّا خَيْرُكَ، وَلَا إِلَهَ غَيْرُكَ».

«Allahım! Sənin təqdirindən başqa uğursuzluq yoxdur, Sənin xeyrindən başqa xeyir yoxdur və Səndən başqa haqq məbud yoxdur»[2].

## 95. Minik vasitəsinə minərkən edilən dua.

«بِسْمِ اللَّهِ، وَالْحَمْدُ لِلَّهِ

«Allahın adi ilə və Allaha həmd olsun».

﴿سُبْحَانَ الَّذِي سَخَّرَ لَنَا هَذَا وَمَا كُنَّا لَهُ مُقْرِنِينَ

"Bunu bizə ram edən Allah pakdır,

---

1 Hədisi İbn əs-Sünni (səh: 138): (278) rəvayət etmişdir. Həmçinin bax: İbn əl-Qeyyimin "əl-Vabil əs-Sayyib" əsərinə (səh: 304) Təhqiq: Bəşir Muhəmməd Uyun.

2 İmam Əhməd "Müsnəd" (2/220): (7045) əsərində və İbn əs-Sunni (292) rəvayət etmişdir. Albani "Silsilətul-Əhadis əs-Səhihə" (3/54): (1065) əsərində hədisin səhih olduğunu bildirmişdir. Xoş əlamət (fə'l) isə Peyğəmbərin, Allahın salavatı və salamı onun üzərinə olsun, xoşuna gələrdi. Buna görə də o, bir kişidən xoş bir söz eşidib bəyəndi və dedi: «Ağzından (çıxan bu sözü) yaxşı bir əlamət olaraq qəbul etdik». Hədisi Əbu Davud (3719) və İmam Əhməd (9040) rəvayət etmişdir. Albani "Silsilətul-Əhadis əs-Səhihə" (2/363) əsərində hədisin səhih olduğunu bildirmişdir. Həmçinin Əbu əş-Şeyx "Əxlaqun-Nəbi ﷺ" (səh: 270) əsərində rəvayət etmişdir.

müqəddəsdir. Yoxsa bizim ona gücümüz çatmazdı.

وَإِنَّا إِلَى رَبِّنَا لَمُنقَلِبُونَ﴾،

Şübhəsiz ki, biz Rəbbimizə qayıdacağıq”.

الحَمْدُ لِلَّهِ، الحَمْدُ لِلَّهِ، الحَمْدُ لِلَّهِ، اللَّهُ أَكْبَرُ، اللَّهُ أَكْبَرُ، اللَّهُ أَكْبَرُ، سُبْحَانَكَ اللَّهُمَّ إِنِّي ظَلَمْتُ نَفْسِي فَاغْفِرْ لِي؛ فَإِنَّهُ لَا يَغْفِرُ الذُّنُوبَ إِلَّا أَنْتَ».

"Allaha həmd olsun! Allaha həmd olsun! Allaha həmd olsun! Allah ən Böyükdür, Allah ən Böyükdür, Allah ən Böyükdür. Allahım, Sən pak və müqəddəssən! Mən özümə zülm etdim. Məni bağışla! Şübhəsiz ki, günahları ancaq Sən bağışlayırsan"[1].

## 96. Səfər duası.

«اللَّهُ أَكْبَرُ، اللَّهُ أَكْبَرُ، اللَّهُ أَكْبَرُ،

- "Allah ən Böyükdür" (üç dəfə).

سُبْحَانَ الَّذِي سَخَّرَ لَنَا هَذَا وَمَا كُنَّا لَهُ مُقْرِنِينَ

"Bunu bizə ram edən Allah pakdır, müqəddəsdir. (Yoxsa) bizim ona gücümüz çatmazdı.

وَإِنَّا إِلَى رَبِّنَا لَمُنقَلِبُونَ،

Şübhəsiz ki, biz Rəbbimizə qayıdacağıq”.

اللَّهُمَّ إِنّا نَسْأَلُكَ فِي سَفَرِنَا هَذَا البِرَّ وَالتَّقْوَى، وَمِنَ العَمَلِ مَا تَرْضَى، اللَّهُمَّ هَوِّنْ

[1] Əbu Davud (3/34): (2602) və Tirmizi (5/501): (3446). Bax: Səhih Tirmizi (3/156) [Zuxruf 43 surəsi, ayələr 13-14].

عَلَيْنَا سَفَرَنَا هَذَا وَاطْوِ عَنَّا بُعْدَهُ، اللَّهُمَّ أَنْتَ الصَّاحِبُ فِي السَّفَرِ، وَالْخَلِيفَةُ فِي الأَهْلِ، اللَّهُمَّ إِنِّي أَعُوذُ بِكَ مِنْ وَعْثَاءِ السَّفَرِ، وَكَآبَةِ الْمَنْظَرِ، وَسُوءِ الْمُنْقَلَبِ فِي الْمَالِ وَالأَهْلِ»،

"Allahım! Bu səfərimiz-də Səndən yaxşı-lıq, Allah qorxusu və razı qalaca-ğın əməl diləyirik. Alla-hım! Bu səfərimizi bi-zim üçün rahat et və onun uzaq-lığını bizə ya-xın et. Allahım! Səfərdə dost və ailə-miz üçün hami Sənsən. Allahım! Səfərin məşəqqətindən, məyus edən mənzərədən, malda və ailədə xo-şa-gəl-məz dönüşdən Sənə pənah aparıram".

Səfərdən qayıdanda isə, həmin duanı oxuyub ona aşağıdakı sözləri də əlavə etmək lazımdır:

«آيِبُونَ، تائِبُونَ، عَابِدُونَ، لِرَبِّنَا حَامِدُونَ».

"(Biz) geri dönənlər, tövbə edənlər, ibadət edənlər, Rəbbimizə həmd edənlərik!"[1].

## 97. Kəndə və ya şəhərə daxil olarkən edilən dua.

«اللَّهُمَّ رَبَّ السَّمَوَاتِ السَّبْعِ وَمَا أَظْلَلْنَ، وَرَبَّ الأَرَضِينَ السَّبْعِ وَمَا أَقْلَلْنَ، وَرَبَّ الشَّيَاطِينِ وَمَا أَضْلَلْنَ، وَرَبَّ الرِّيَاحِ وَمَا ذَرَيْنَ، أَسْأَلُكَ خَيْرَ هَذِهِ الْقَرْيَةِ، وَخَيْرَ أَهْلِهَا، وَخَيْرَ مَا فِيهَا، وَأَعُوذُ بِكَ مِنْ شَرِّهَا، وَشَرِّ أَهْلِهَا، وَشَرِّ مَا فِيهَا».

"Allahım! Ey yeddi göyün və onların kölgə

[1] Hədisi Müslim (2/978): (1342) rəvayət etmişdir.

saldıqlarının Rəbbi, yeddi yerin və onların daşıdıqlarının Rəbbi, şeytanların və onların azdırdıqlarının Rəbbi, küləklərin və onların sovurduqlarının Rəbbi! Səndən bu kəndin xeyirini, onun əhalisinin xeyirini və onun içində olanların xeyirini diləyirəm. Onun şərrindən, onun əhalisinin şərrindən və onun içində olanların şərrindən də Sənə sığınıram"[1].

## 98. Bazara daxil olarkən edilən dua.

«لَا إِلَٰهَ إِلَّا اللَّهُ وَحْدَهُ لَا شَرِيكَ لَهُ، لَهُ الْمُلْكُ، وَلَهُ الْحَمْدُ، يُحْيِي وَيُمِيتُ، وَهُوَ حَيٌّ لَا يَمُوتُ، بِيَدِهِ الْخَيْرُ، وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ».

"Allahdan başqa məbud yoxdur, O təkdir, Onun şəriki yoxdur. Mülk Onundur və həmd Onadır! O, dirildir və öldürür, O, diridir, ölməzdir, xeyir Onun əlindədir və O hər şeyə Qadirdir!"[2].

## 99. Minik vasitəsi büdrədikdə edilən dua.

«بِسْمِ اللَّهِ».

---

[1] Hədisi Hakim rəvayət edərək səhih saymış, Zəhəbi (2/100) də onunla razılaşmışdır. Onu həmçinin İbnus-Sunni (524) rəvayət etmiş, Hafiz İbn Həcər isə "Təxricul-Əzkar" (5/154) adlı əsərində həsən saymışdır. Allamə İbn Baz, Allah ona rəhmət etsin, Nəsainin hədisi həsən isnadla rəvayət etdiyini bildirmişdir. Bax: "Tuhfətul-Əxyar" (səh: 37).

[2] Hədisi Tirmizi (3428), İbn Macə (5/291): (3860) və Hakim (1/538) rəvayət etmişdir. Albani, Sahih İbn Macə (2/21) və Sahih Tirmizi (3/152) adlı əsərlərində hədisin həsən olduğunu bildirmişdir.

"Allahın adı ilə!"[1].

## 100. Müsafirin sakinlər üçün etdiyi dua.

«أَسْتَوْدِعُكُمُ اللَّهَ الَّذِي لَا تَضِيعُ وَدَائِعُهُ».

"Sizi (Özünə həvalə edilmiş) əmanətləri itməyən Allaha əmanət edirəm!"[2].

## 101. Sakinlərin müsafir üçün etdiyi dua.

«أَسْتَوْدِعُ اللَّهَ دِينَكَ، وَأَمَانَتَكَ، وَخَوَاتِيمَ عَمَلِكَ».

"Sənin dinini, sədaqətini və əməllərinin aqibətini Allaha əmanət edirəm!"[3].

«زَوَّدَكَ اللَّهُ التَّقْوَى، وَغَفَرَ ذَنْبَكَ، وَيَسَّرَ لَكَ الخَيْرَ حَيْثُ ما كُنْتَ».

"Allah sənə təqva bəxş etsin, günahını bağışlasın və harada olsan xeyirli olanı sənin üçün asanlaşdırsın!"[4].

## 102. Səfər zamanı təkbir və zikr etmək.

Cabir, Allah ondan razı olsun, belə demişdir: «Biz (səhabələr) yüksək bir yerə qalxdıqda: “Allahu Əkbər” deyər, Belə deyir: (Allah ən böyükdür) (Hər

---

1 Hədisi Əbu Davud (4/296): (4982) rəvayət etmişdir. Albani "Sahih Əbu Davud" əsərində: (3/941) hədisin səhih olduğunu bildirmişdir.
2 Hədisi Əhməd (2/403): (9230) və İbn Macə (2/943): (2825) rəvayət etmişdir. Həmçinin bax: "Səhih İbn Macə" (2/133).
3 Hədisi İmam Əhməd (2/7): (4524), Tirmizi (5/499): (3443) rəvayət etmişdir. Albani Səhih Sünən Tirmizi adlı əsərində hədisin səhih olduğunu bildirmişdir (3/419).
4 Hədisi Tirmizi: (3444) rəvayət etmişdir. Həmçinin bax: Səhih Tirmizi (3/155).

hansı bir vadiyə) endikdə isə “Subhənəllah!” – deyərdik»[1].

Belə buyurur: (Allah pak və müqəddəsdir!)

## 103. Müsafirin səhərə yaxın etdiyi dua.

«سَمَّعَ سَامِعٌ بِحَمْدِ اللَّهِ، وَحُسْنِ بَلَائِهِ عَلَيْنَا، رَبَّنَا صاحِبْنَا، وَأَفْضِلْ عَلَيْنَا، عَائِذًا بِاللَّهِ مِنَ النَّارِ».

"Eşidən, Allaha həmdimizə və Onun bizə olan gözəl lütfünə şahid olsun! Ey Rəbbimiz, bizimlə ol və bizə lütf et! (Cəhənnəm) odundan Allaha sığınıram!"[2].

## 104. Səfərdə və ya başqa bir yerdə mənzil başına çatdıqda edilən dua.

«أَعُوذُ بِكَلِمَاتِ اللَّهِ التَّامَّاتِ مِنْ شَرِّ مَا خَلَقَ».

"Yaratdıqlarının şərindən Allahın tam kəlmələrinə sığınıram!"[3].

## 105. Səfərdən qayıdarkən edilən zikr.

«يُكَبِّرُ عَلَى كُلِّ شَرَفٍ ثَلَاثَ تَكْبِيرَاتٍ ثُمَّ يَقُولُ:

"Hər bir hündür yerdə üç dəfə təkbir edir, sonra

---

[1] Buxari, "əl-Fəth" ilə (6/135): (2993).

[2] Müslim: (4/2086): (2718). “Səmməa samiun” ifadəsinin mənası: Yəni: Bir şahid Allah Təalanın nemətlərinə və gözəl sınağına görə Ona həmd etməyimizə şahidlik etsin. Həmçinin mənası belədir: Eşidən kəs səhər vaxtı zikrə və duaya təşviq üçün bu sözümü başqasına çatdırsın və onun bənzərini söyləsin. Nəvəvinin “Səhih Müslim” şərhi: (17/39).

[3] Hədisi Müslim (4/2080): (2709) rəvayət etmişdir.

deyir:"

لَا إِلَهَ إِلَّا اللَّهُ وَحْدَهُ لَا شَرِيكَ لَهُ، لَهُ الْمُلْكُ، وَلَهُ الْحَمْدُ، وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ، آيِبُونَ، تَائِبُونَ، عَابِدُونَ، لِرَبِّنَا حَامِدُونَ، صَدَقَ اللَّهُ وَعْدَهُ، وَنَصَرَ عَبْدَهُ، وَهَزَمَ الأَحْزَابَ وَحْدَهُ».

"Allahdan başqa haqq məbud yoxdur. O təkdir, Onun şəriki yoxdur. Mülk Onundur və həmd Onadır! O hər şeyə Qadirdir. (Biz) geri dönənlər, tövbə edənlər, ibadət edənlər, Rəbbimizə həmd edənlərik! Allah vədinə sadiq oldu, quluna kömək etdi və (düşmənlərdən olan) dəstələri tək Özü məğlub etdi!"[1]."

## 106. Sevindirici və ya xoşagəlməyən bir işlə rastlaşan şəxs nə deməlidir.

Peyğəmbər, sallallahu aleyhi və səlləm, sevincli bir xəbər gəldikdə belə deyərdi:

«الْحَمْدُ لِلَّهِ الَّذِي بِنِعْمَتِهِ تَتِمُّ الصَّالِحَاتُ»

"Neməti sayəsində yaxşı işlər tamamlanan Allaha həmd olsun!".

Peyğəmbər, sallallahu aleyhi və səlləm, xoşuna gəlməyən bir xəbər gəldikdə isə belə deyərdi:

«الْحَمْدُ لِلَّهِ عَلَى كُلِّ حَالٍ».

[1] Peyğəmbər, sallallahu aleyhi və səlləm, bunu döyüşdən və ya Həccdən qayıtdıqda deyərdi. Buxari (7/163): (1797) və Müslim (2/980): (1344).

"Hər bir halda Allaha həmd olsun!"[1].

## 107. Peyğəmbərə, Allahın salavatı və salamı onun üzərinə olsun, salavat gətirməyin fəziləti.

Peyğəmbər, Allahın salavatı və salamı onun üzərinə olsun, belə buyurmuşdur:

«مَنْ صَلَّى عَلَيَّ صَلَاةً صَلَّى اللَّهُ عَلَيْهِ بِهَا عَشْرًا».

«Kim mənə bir salavat gətirsə, Allah ona bunun üçün on salavat söyləyər (göndərər)»[2]. Məsələn, bu sözləri deməsi kimi: "Allahım! Peyğəmbərimiz Muhəmmədə salavat və salam yetir!"."

Peyğəmbər, sallallahu aleyhi va səlləm, başqa bir hədisdə belə buyurmuşdur:

«لَا تَجْعَلُوا قَبْرِي عِيدًا وَصَلُّوا عَلَيَّ؛ فَإِنَّ صَلَاتَكُم تَبْلُغُنِي حَيْثُ كُنْتُمْ».

«Qəbrimi ziyarətgaha çevirməyin, mənə salavat (salallahu aleyhi va səlləm) deyin, siz harada olsanız belə, sizin mənə dediyiniz salavatlar çatar»[3].

Peyğəmbər, sallallahu aleyhi va səlləm, başqa bir hədisdə belə buyurmuşdur:

---

1 Hədisi İbn Sünni "Aməlul-yəum val-leylə" adlı əsərində (377) və Hakim (1/499) rəvayət etmiş və səhih saymışdır. Albani Sahihul-Cami (4/201) adlı əsərində də hədisin səhih olduğunu bildirmişdir.

2 Hədisi Müslim (1/288): (384) rəvayət etmişdir.

3 Hədisi Əbu Davud: (2/218), (2044) və Əhməd: (2/367), (8804) rəvayət etmişdir. Albani "Sahih Əbu Davud" əsərində: (2/383) hədisin səhih olduğunu bildirmişdir.

«الْبَخِيلُ مَنْ ذُكِرْتُ عِنْدَهُ فَلَمْ يُصَلِّ عَلَيَّ».

"Əsil paxıl, yanında adım anıldığı (çəkildiyi) zaman mənə salavat gətirməyəndir"[1].

Peyğəmbər, sallallahu aleyhi va səlləm, başqa bir hədisdə belə buyurmuşdur:

«إِنَّ لِلَّهِ مَلَائِكَةً سَيَّاحِينَ فِي الْأَرْضِ يُبَلِّغُونِي مِنْ أُمَّتِي السَّلَامَ».

“Həqiqətən də, Allahın yer üzündə səyahət edən mələkləri vardır ki, ümmətimin salamını mənə çatdırırlar”[2].

Peyğəmbər, sallallahu aleyhi va səlləm, başqa bir hədisdə belə buyurmuşdur:

«مَا مِنْ أَحَدٍ يُسَلِّمُ عَلَيَّ إِلَّا رَدَّ اللَّهُ عَلَيَّ رُوحِي حَتَّى أَرُدَّ عَلَيْهِ السَّلَامَ».

"Kim mənə salam verərsə, Allah ruhumu mənə qaytarar ki, mən də onun salamını qaytarım"[3].

## 108. Salamı yaymaq.

Allahın Elçisi, Allahın salavatı və salamı onun üzərinə olsun, buyurur:

«لَا تَدْخُلُوا الْجَنَّةَ حَتَّى تُؤْمِنُوا، وَلَا تُؤْمِنُوا حَتَّى تَحَابُّوا، أَوَلَا أَدُلُّكُمْ عَلَى شَيْءٍ إِذَا فَعَلْتُمُوهُ تَحَابَبْتُمْ، أَفْشُوا السَّلَامَ بَيْنَكُمْ».

---

[1] Tirmizi (5/551): (3546) və başqaları. Həmçinin bax: Səhih əl-Cami (3/25) və Səhih Tirmizi (3/177).

[2] Hədisi Nəsai (3/43): (1282), Hakim (2/421) rəvayət etmişdir. Albani isə "Səhih Nəsai" adlı əsərində (1/274) onu səhihləmişdir ("səhih" olduğunu bildirmişdir).

[3] Hədisi Əbu Davud: (2041) rəvayət etmişdir. Albani isə “Səhih Əbu Davud” əsərində (1/383) onu həsən hesab etmişdir.

"İman gətirməyincə Cənnətə girə bilməzsiniz. Biri-birinizi sevməyincə iman gətirmiş olmazsınız. Sizə elə bir şey öyrədimmi ki, onu etdikdə biri-birinizi sevəsiniz? Aranızda salamı yayın!"[1].

«ثَلَاثٌ مَنْ جَمَعَهُنَّ فَقَدْ جَمَعَ الإِيمَانَ: الإِنْصَافُ مِنْ نَفْسِكَ، وَبَذْلُ السَّلَامِ لِلْعَالَمِ، وَالإِنْفَاقُ مِنَ الإِقْتَارِ».

"Üç xüsusiyyəti özündə cəmləyən şəxs imanı cəm etmişdir: Nəfsinə qarşı ədalətli olmaq, bütün insanlara salam vermək və özü möhtac olduğu halda ehtiyacı olanlara yardım etmək"[2].

Abdullah bin Ömərdən, Allah onlardan razı olsun, rəvayət edilir ki, bir nəfər Peyğəmbərdən, sallallahu əleyhi və səlləm, soruşdu: "İslamın hansı əməli daha xeyirlidir?". O buyurdu:

«تُطْعِمُ الطَّعَامَ، وَتَقْرَأُ السَّلَامَ عَلَى مَنْ عَرَفْتَ وَمَنْ لَمْ تَعْرِفْ».

"Yemək yedirtməyin, tanıdığın və tanımadığın hərkəsə salam verməyin"[3].

## 109. Kafir salam verdikdə, onun salamının cavabı necə qaytarılır?

«إِذَا سَلَّمَ عَلَيْكُمْ أَهْلُ الكِتَابِ فَقُولُوا: وَعَلَيْكُمْ».

---

[1] Hədisi Müslim: (1/74): (54) və Əhməd: (1430) rəvayət etmişdir. Hədisin ləfzi Əhmədə aiddir. Müslimin ləfzi isə: «لَا تَدْخُلُونَ...».

[2] Buxari, "əl-Fəth" ilə (1/82): (28), Ammardan, Allah ondan razı olsun, "mövquf" və "müəlləq" olaraq rəvayət etmişdir.

[3] Buxari "əl-Fəth" ilə (1/55): (12) və Müslim (1/65): (39).

«Kitab əhli sizə salam verdikdə, siz də onlara: "Va aleykum" - deyin»[1].

## 110. Xoruzun banlamasını və eşşəyin anqırtısını eşitdikdə edilən dua.

«إِذَا سَمِعْتُمْ صِيَاحَ الدِّيَكَةِ فَاسْأَلُوا اللَّهَ مِنْ فَضْلِهِ؛ فَإِنَّهَا رَأَتْ مَلَكًا،

"Xoruzların banlamasını eşitdikdə Allahdan Onun lütfünü istəyin, çünki o, mələk görmüşdür".

Məsələn, bu sözləri deməsi kimi: Allahım! Sənin lütfündən diləyirəm!

وَإِذَا سَمِعْتُمْ نَهِيقَ الحِمَارِ فَتَعَوَّذُوا بِاللَّهِ مِنَ الشَّيطَانِ؛ فَإِنَّهُ رَأَى شَيْطَانًا».

"Uzunqulağın anqırtısını eşitdikdə şeytandan Allaha sığının, çünki o, şeytan görmüşdür"[2]. Məsələn, bu sözləri deməsi kimi: "Lənətlənmiş şeytandan Allaha sığınıram!".

## 111. Gecə itlərin hürməsini eşidərkən edilən dua.

«إِذَا سَمِعْتُمْ نُبَاحَ الكِلَابِ وَنَهِيقَ الحَمِيرِ بِاللَّيْلِ فَتَعَوَّذُوا بِاللَّهِ مِنْهُنَّ؛ فَإِنَّهُنَّ يَرَيْنَ مَا لَا تَرَوْنَ».

"Gecə itlərin hürməsini və uzunqulaqların anqırmasını eşitsəniz, onlardan Allaha sığının.

---

[1] Hədisi Buxari Fəth ilə (11/42): (6258) və Müslim (4/1705): (2163) rəvayət etmişdir.

[2] Hədisi Buxari "əl-Fəth" (6/350): (3303) və Müslim (4/2092): (2729) rəvayət etmişdir.

Çünki onlar sizin görmədiklərinizi görürlər”[1].

Məsələn, bu sözləri deməsi kimi: "Lənətlənmiş şeytandan Allaha sığınıram!".

## 112. Söydüyün şəxs üçün edəcəyin dua.

Peyğəmbər, Allahın salavatı və salamı onun üzərinə olsun, belə buyurmuşdur:

«اللَّهُمَّ فَأَيُّمَا مُؤْمِنٍ سَبَبْتُهُ فَاجْعَلْ ذَلِكَ لَهُ قُرْبَةً إِلَيْكَ يَوْمَ القِيَامَةِ».

«Allahım! Hər hansı bir mömini təhqir etmişəmsə, bunu Qiyamət günü onun üçün Sənə bir yaxınlıq et»[2].

## 113. Müsəlman, müsəlmanı tərif etdikdə nə deməlidir?

Peyğəmbər, Allahın salavatı və salamı onun üzərinə olsun, belə buyurmuşdur:

«إِذَا كَانَ أَحَدُكُم مَادِحًا صَاحِبَهُ لَا مَحَالَةَ فَلْيَقُلْ: أَحْسِبُ فُلَانًا وَاللَّهُ حَسِيبُهُ، وَلَا أُزَكِّي عَلَى اللَّهِ أَحَدًا، أَحْسِبُهُ –إِنْ كَانَ يَعْلَمُ ذَاكَ – كَذَا وَكَذَا».

«Sizdən biriniz dostunu mütləq tərifləməli olsa, desin: “Hesab edirəm ki, filankəs belədir, onun haqq-hesabını çəkən isə Allahdır. Mən Allah qarşısında heç kəsi təmizə çıxarmıram. Hesab

---

[1] Əbu Davud (4/327): (5105) və Əhməd (3/306): (14283) rəvayət etmişdir. Albani "Sahih Əbu Davud" əsərində: (3/961) hədisin səhih olduğunu bildirmişdir.

[2] Hədisi Buxari "əl-Fəth" (11/171): (6361) və Müslim (4/2007): (396) rəvayət etmişdir. Müslimin ləfzi belədir: «Onu onun üçün təmizlik və rəhmət et».

edirəm ki, o, – əgər bunu bilirsə – belə və belədir"»[1].

**114. Müsəlman tərif olunduqda nə deməlidir?**

«اللَّهُمَّ لَا تُؤَاخِذْنِي بِمَا يَقُولُونَ، وَاغْفِرْ لِي مَا لَا يَعْلَمُونَ، [وَاجْعَلْنِي خَيْرًا مِمَّا يَظُنُّونَ]».

"Allahım! Onların dediklərinə görə məni məzəmmət etmə, haqqımda bilmədiklərini bağışla və [məni onların zənn etdiklərindən daha xeyirli et]!"[2].

**115. Həcc və ya ümrə ziyarəti əsnasın-da ihramda olan şəxs necə təlbiyə etməlidir?**

«لَبَّيْكَ اللَّهُمَّ لَبَّيْكَ، لَبَّيْكَ لَا شَرِيكَ لَكَ لَبَّيْكَ، إِنَّ الحَمْدَ، وَالنِّعْمَةَ، لَكَ وَالمُلْكَ، لَا شَرِيكَ لَكَ».

«Hüzurundayam Allahım, hüzurundayam. Hüzurundayam, Sənin heç bir şərikin yoxdur, hüzurundayam. Həmd, nemət və mülk tək Sənə məxsusdur, Sənin şərikin yoxdur!»[3].

---

[1] Hədisi Müslim (4/2296): (3000) rəvayət etmişdir.
[2] Buxari "əl-Ədəb əl-Müfrəd" əsərində: (761) rəvayət etmiş, Albani isə "Sahih əl-Ədəb əl-Müfrəd" (585) adlı əsərində onun isnadının səhih olduğunu bildirmişdir. Kvadrat mötərizədəki hissə isə Beyhəqinin "Şuəbul-İman" (4/228) əsərində başqa bir isnadla etdiyi əlavədir.
[3] Hədisi Buxari Fəth ilə (3/408): (1549) və Müslim (2/841): (1184) rəvayət etmişdir.

## 116. Həcərul-Əsvədə çatdıqda təkbir demək.

«طَافَ النَّبِيُّ ﷺ بِالْبَيْتِ عَلَى بَعِيرٍ كُلَّمَا أَتَى الرُّكْنَ أَشَارَ إِلَيْهِ بِشَيْءٍ عِنْدَهُ وَكَبَّرَ».

«Peyğəmbər, sallallahu aleyhi və səlləm, Evi (Kəbəni) dəvənin üzərində təvaf edər, hər dəfə (qara daş yerləşən) küncə gəlib çatanda əlindəki bir şeylə ona işarə edər və təkbir gətirərdi»[1].

## 117. Yəmən küncü ilə Həcərul-əsvəd arasında edilən dua.

﴿...رَبَّنَآ ءَاتِنَا فِى ٱلدُّنْيَا حَسَنَةً وَفِى ٱلْءَاخِرَةِ حَسَنَةً وَقِنَا عَذَابَ ٱلنَّارِ﴾.

"Ey Rəbbimiz! Bizə həm (bu) dünyada, həm də axirətdə gözəl nemətlər ver və bizi (Cəhənnəm) odunun əzabından qoru!".[2]

## 118. Səfa və Mərvə dağı üzərində dayandıqda edilən dua.

Peyğəmbər, sallallahu aleyhi və səlləm, Səfa təpəsinə yaxınlaşanda bu ayəni oxudu:

«إِنَّ الصَّفَا وَالْمَرْوَةَ مِنْ شَعَآئِرِ اللَّهِ...، أَبْدَأُ بِمَا بَدَأَ اللَّهُ بِهِ»

1 Buxari "Fəthul-Bari" (3/476): (1613) və "şey" sözündən məqsəd: əl-mihcəndir (yəni: baş hissəsi əyri əsa). Bax: Buxari "Fəthul-Bari" (3/472).

2 Hədisi Əbu Davud (2/179): (1894), Əhməd (3/411): (15398) və Bəğavi "Şərhus-Sunnə" əsərində (7/128) rəvayət etmiş, Albani isə "Sahih Əbu Davud" əsərində (1/354) həsən hesab etmişdir. [Bəqərə 2 surəsi, ayə 201].

“Həqiqətən, Səfa və Mərvə Allahın əlamətlərindəndir (ibadət nişanələrindəndir)... Mən, Allahın başladığı ilə başlayıram!”.

Səfadan başladı, Kəbəni görənə qədər onun üstünə qalxdı, qibləyə yönəldi, Allahın tək olduğunu təsdiq etdi və təkbir gətirərək belə dedi:

«لَا إِلَهَ إِلَّا اللَّهُ وَحْدَهُ لَا شَرِيكَ لَهُ، لَهُ الْمُلْكُ وَلَهُ الْحَمْدُ وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ، لَا إِلَهَ إِلَّا اللَّهُ وَحْدَهُ، أَنْجَزَ وَعْدَهُ، وَنَصَرَ عَبْدَهُ، وَهَزَمَ الْأَحْزَابَ وَحْدَهُ،

"Allahdan başqa haqq məbud yoxdur, O təkdir, Onun şəri-ki yoxdur. Mülk Onundur və həmd Onadır! O hər şeyə Qadirdir. Allahdan başqa haqq məbud yoxdur, O təkdir. Allah vədini yerinə yetirdi, quluna kömək etdi və (düşmənlərdən olan) dəstələri tək Özü məğlub etdi!"

ثُمَّ دَعَا بَيْنَ ذلكَ، قَالَ مِثْلَ هَذَا ثَلَاثَ مَرَّاتٍ»

Sonra aralarında dua etdi, bunu bu cür üç dəfə təkrar etdi» Hədisdə belə deyilir: Mərvada da Səfada etdiyi kimi etdi[1].

## 119. Ərafa günü edilən dua.

Peyğəmbər, Allahın salavatı və salamı onun üzərinə olsun, belə buyurmuşdur:

«خَيْرُ الدُّعَاءِ دُعَاءُ يَوْمِ عَرَفَةَ، وَخَيْرُ مَا قُلْتُ أَنَا وَالنَّبِيُّونَ مِنْ قَبْلِي:

«Duaların ən xeyirlisi Arafa günü edilən duadır,

[1] Hədisi Müslim (2/888): (1218). (Bəqərə 2 surəsi, ayə 158).

mənim və məndən əvvəlki peyğəmbərlərin dediyi ən xeyirli söz isə budur:

«لَا إِلَهَ إِلَّا اللَّهُ وَحْدَهُ لَا شَرِيكَ لَهُ، لَهُ الْمُلْكُ وَلَهُ الْحَمْدُ وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ».

"Allahdan başqa məbud yoxdur. O təkdir. Onun şəriki yoxdur. Mülk Onundur və həmd Onadır! O hər şeyə Qadirdir!"[1]. «Peyğəmbər, sallallahu aleyhi və səlləm, Qasvaya minib Məşərülharama gəldi, üzünü qibləyə çevirdi (Allaha dua etdi, təkbir gətirdi, təhlil gətirdi və Onu təkləşdirdi) və dan yeri tam ağarana qədər dayandı. Sonra günəş çıxmamışdan əvvəl yola düşdü»[2]. «Üç camarata atdığı hər daşla təkbirlər gətirir, sonra birinci və ikinci camaradan sonra irəliləyib, qibləyə yönələrək dayanıb, əllərini qaldırıb dua edir. Amma Camaratul-Əqəbəyə (böyük camarata) gəlincə, ona daş atır, hər daşla təkbirlər gətirir və yanında dayanmadan oradan ayrılır»[3].

## 120. Məşərul-Haramda [müzdəlifə vadisində] edilən zikr.

## 121. Cəməratda hər daşı atarkən təkbir gətirmək.

---

[1] Hədisi Tirmizi: (3585) rəvayət etmişdir. Əlbani bu hədisi “Səhih Tirmizi” (3/184) və “Silsilətul-Əhadisis-Səhihə” əsərində (4/6) həsən saymışdır.

[2] Hədisi Müslim (2/891): (1218) rəvayət etmişdir.

[3] Buxari "Fəthul-Bari" ilə (3/583), hədis: (1751), və oradakı ləfzinə bax. Həmçinin Buxari "Fəthul-Bari" ilə (3/583), (3/584) və (3/581), hədis: (1753). Hədisi Müslim də: (1218) rəvayət etmişdir.

## 122. Təəccüblənərkən və ya sevinərkən edilən dua.

«سُبْحَانَ اللَّهِ!».

"Allah pak və müqəddəsdir!"[1].

«اللَّهُ أَكْبَرُ!».

«Allah ən böyükdür!»[2].

## 123. Sevindirici hadisə ilə rastlaşan kimsə nə etməlidir?

«كَانَ النَّبِيُّ ﷺ إِذَا أَتَاهُ أَمْرٌ يَسُرُّهُ أَوْ يُسَرُّ بِهِ خَرَّ سَاجِدًا شُكْرًا لِلَّهِ تَبَارَكَ وَتَعَالَى».

«Peyğəmbər, sallallahu aleyhi və səlləm, sevincli bir xəbər eşidəndə, Allah təbarəkə və təaləyə şükür səcdəsi edərdi»[3].

## 124. Bədənində ağrı hiss edən kimsənin nə etməli və nə deməlidir?

«ضَعْ يَدَكَ عَلَى الَّذِي تَأَلَّمَ مِنْ جَسَدِكَ وَقُلْ:

"Əlini bədəninin ağrıyan yerinə qoyub üç dəfə:

---

1 Hədisi Buxari "Fəthul-Bari" ilə (1/210, 390, 414): (115), (3599) və (6218) və Müslim: (1674) rəvayət etmişdir.

2 Buxari, "əl-Fəth" ilə (8/441), №: (4741) və (3062), Tirmizi: (2180), Nəsai "əl-Kubra" əsərində: (11185). Həmçinin bax: "Səhih Tirmizi" (2/103) və (2/235), "Müsnəd Əhməd" (5/218), rəqəm: (21900).

3 Hədisi, Nəsai istisna olmaqla, Sünən kitabların tərtibçiləri: Əbu Davud: (2774), Tirmizi: (1578), İbn Macə: (1394) rəvayət etmişdir. Bax: "Sahih İbn Macə" (1/233) və "İrvaul-Ğəlil" (2/226).

بِسْمِ اللَّهِ،

Allahın adı ilə,

ثَلَاثًا،

Üç dəfə,

وَقُلْ سَبْعَ مَرَّاتٍ:

Və yeddi dəfə de:

أَعُوذُ بِاللَّهِ وَقُدْرَتِهِ مِنْ شَرِّ مَا أَجِدُ وَأُحَاذِرُ».

"Hiss etdiyim və çəkindiyim şeylərin şərindən Allaha və Onun qüdrətinə sığınıram!"[1].

## 125. Özünün göz dəyməsi ilə bir şeyə zərər toxunmasından qorxan kimsənin duası.

«إِذَا رَأَى أَحَدُكُم مِنْ أَخِيهِ، أَوْ مِنْ نَفْسِهِ، أَوْ مِنْ مَالِهِ مَا يُعْجِبُهُ [فَلْيَدْعُ لَهُ بِالْبَرَكَةِ] فَإِنَّ العَيْنَ حَقٌّ».

"Sizdən biriniz qardaşında, özündə yaxud malında xoşuna gəldiyi bir şey gördüyü zaman onun mübarəkli olması üçün dua etsin ("maşallah", "bərəkə-Llah" kimi sözlər söyləsin). Cünki göz dəyməsi haqqdır"[2].

[1] Hədisi Müslim (4/1728): (2202) rəvayət etmişdir.

[2] Hədisi Əhməd, əl-Müsnəd adlı əsərində (4/447): (15700), İbn Maca (3508) və Malik (3/118-119) rəvayət etmişdir. Albani, Sahihul-Cami adlı əsərdə (1/212) hədisin səhih olduğunu bildirmişdir. Bax: Zadul-Məad, Ərnautun təhqiqi (4/170).

## 126. Qorxu zamanı deyilən zikr.

«لَا إِلَهَ إِلَّا اللَّهُ!».

«Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur!»[1].

## 127. Qurban kəsərkən nə deyilir?

«بِسْمِ اللَّهِ وَاللَّهُ أَكْبَرُ [اللَّهُمَّ مِنْكَ وَلَكَ] اللَّهُمَّ تَقَبَّلْ مِنِّي».

«Allahın adı ilə! Allah ən böyükdür! [Allahım! Bu Səndəndir və Sənin üçündür]. Allahım! Məndən qəbul et!»[2].

## 128. Azğın şeytanların hiyləsini dəf etmək üçün nə deyilir?

«أَعُوذُ بِكَلِمَاتِ اللَّهِ التَّامَّاتِ الَّتِي لَا يُجَاوِزُهُنَّ بَرٌّ وَلَا فَاجِرٌ: مِنْ شَرِّ مَا خَلَقَ، وَبَرَأَ وَذَرَأَ، وَمِنْ شَرِّ مَا يَنْزِلُ مِنَ السَّمَاءِ، وَمِنْ شَرِّ مَا يَعْرُجُ فِيهَا، وَمِنْ شَرِّ مَا ذَرَأَ فِي الْأَرْضِ، وَمِنْ شَرِّ مَا يَخْرُجُ مِنْهَا، وَمِنْ شَرِّ فِتَنِ اللَّيْلِ وَالنَّهَارِ، وَمِنْ شَرِّ كُلِّ طَارِقٍ إِلَّا طَارِقًا يَطْرُقُ بِخَيْرٍ يَا رَحْمَنُ».

"Heç bir salehin və ya günahkarın həddini aşa bilmədiyi Allahın tam kəlmələrinə sığınıram: Yaratdığı, xəlq etdiyi və törətdiyi şeylərin şərindən, göydən enənlərin və oraya yüksələnlərin şərindən, yerdə törətdiyi və ondan çıxanların şərindən,

---

1 Buxari, "Fəthul-Bari" (6/381): (3346) və Müslim (4/2208): (2880).

2 Müslim (3/1557), rəqəm: (1967) və Beyhəqi (9/287). Mötərizə içərisindəki hissə Beyhəqiyə (9/287) və başqalarına aiddir. Son cümlə isə mənasına görə Müslimin rəvayətindən götürülmüşdür.

gecənin və gündüzün fitnələrindən və xeyirlə gələn istisna olmaqla, gecə gələn hər bir şeyin şərindən, ey Rəhman!"[1].

## 129. Bağışlanma diləmək və tövbə etmək.

Allahın Elçisi, Allahın salavatı və salamı onun üzərinə olsun, buyurur:

«وَاللَّهِ إِنِّي لَأَسْتَغْفِرُ اللَّهَ وَأَتُوبُ إِلَيْهِ فِي الْيَوْمِ أَكْثَرَ مِنْ سَبْعِينَ مَرَّةٍ».

«Allaha and olsun ki, mən gündə yetmiş dəfədən çox Allahdan bağışlanma diləyir və Ona tövbə edirəm»[2].

Peyğəmbər, sallallahu aleyhi va səlləm, belə buyurmuşdur:

«يَا أَيُّهَا النَّاسُ تُوبُوا إِلَى اللَّهِ فَإِنِّي أَتُوبُ فِي الْيَوْمِ إِلَيْهِ مِائَةَ مَرَّةٍ».

"Ey insanlar! Allaha tövbə edin. Həqiqətən də mən, Ona gündə yüz dəfə tövbə edirəm"[3].

Peyğəmbər, sallallahu aleyhi va səlləm, başqa bir hədisdə belə buyurmuşdur:

«مَنْ قَالَ:

«Kim belə deyərsə:

أَسْتَغْفِرُ اللَّهَ الْعَظِيمَ الَّذِي لَا إِلَهَ إِلَّا هُوَ الْحَيُّ الْقَيُّومُ وَأَتُوبُ إِلَيْهِ،

---

[1] Hədisi Əhməd (3/419): (15461) səhih isnadla, İbn əs-Sünni (637) rəvayət etmiş, Arnaut isə "Təhəviyyə" əsərinin təxricində (səh: 133) isnadının səhih olduğunu bildirmişdir. Bax: "Məcməuz-Zəvəid" (10/127).
[2] Buxari, Fəthul-Bari ilə (11/101): (6307).
[3] Hədisi Müslim (4/2076): (2702) rəvayət etmişdir.

Özündən başqa haqq məbud olmayan, əbədi Yaşayan və bütün yaradılanların Qəyyumu olan Əzəmətli Allahdan bağışlanma diləyir və Ona tövbə edirəm.

غَفَرَ اللَّهُ لَهُ وَإِنْ كَانَ فَرَّ مِنَ الزَّحْفِ».

Döyüş meydanından qaçsa belə Allah onu bağışlayar»[1].

Peyğəmbər, sallallahu aleyhi va səlləm, başqa bir hədisdə belə buyurmuşdur:

«أَقْرَبُ مَا يَكُونُ الرَّبُّ مِنَ العَبْدِ فِي جَوْفِ اللَّيْلِ الآخِرِ فَإِنِ اسْتَطَعْتَ أَنْ تَكُونَ مِمَّنْ يَذْكُرُ اللَّهَ فِي تِلْكَ السَّاعَةِ فَكُنْ».

"Rəbbin qula ən yaxın olan vaxtı gecənin sonudur, əgər sən o vaxt Allahı zikr edənlərdən ola bilirsənsə, ol"[2].

Peyğəmbər, sallallahu aleyhi va səlləm, belə buyurmuşdur:

«أَقْرَبُ مَا يَكُونُ العَبْدُ مِنْ رَبِّهِ وَهُوَ سَاجِدٌ فَأَكْثِرُوا الدُّعَاءَ».

"Qulun Allaha ən yaxın olduğu an, səcdədə olduğu məqamdır. Səcdədə olarkən duanı

---

[1] Əbu Davud (2/85), rəqəm (1517), Tirmizi (5/569), rəqəm (3577), Hakim (1/511) hədisi səhih hesab etmiş və Zəhəbi də onunla razılaşmış, Albani isə hədisi səhih saymışdır. Bax: Səhih ət-Tirmizi (3/182) və Arnautun təhqiqi ilə Camiul-Usul li-Əhadisir-Rasul (ﷺ) (4/389-390).

[2] Hədisi Tirmizi (3579), Nəsai (1/279, 572) və Hakim (1/309) rəvayət etmişdir. Bax: "Səhih Tirmizi" (3/183) və "Camiul-Usul" Arnautun təhqiqi, (4/144).

çoxaldın"[1].

Peyğəmbər, sallallahu aleyhi va səlləm, belə buyurmuşdur:

«إِنَّهُ لَيُغَانُ عَلَى قَلْبِي وَإِنِّي لأَسْتَغْفِرُ اللَّهَ فِي اليَوْمِ مِائَةَ مَرَّةٍ».

«Həqiqətən, mənim qəlbimə də pərdə çəkilir və mən gündə yüz dəfə Allahdan bağışlanma diləyirəm»[2].

**130. "Subhənallah", "Əlhəmdulilləh", "Lə iləhə illallah" və "Allahu Əkbər" deməyin fəziləti.**

Peyğəmbər, sallallahu aleyhi va səlləm, belə demişdir:

«مَنْ قَالَ:

«Kim belə deyərsə:

سُبْحَانَ اللَّهِ وَبِحَمْدِهِ

"Allah pak və nöqsansızdır və həmd Ona məxsusdur."

فِي يَوْمٍ مِائَةَ مَرَّةٍ حُطَّتْ خَطَايَاهُ وَلَوْ كَانَتْ مِثْلَ زَبَدِ البَحْرِ».

«Gün ərzində yüz dəfə (bu zikri) deyərsə,

---

[1] Hədisi Müslim (1/350): (482) rəvayət etmişdir.

[2] Müslim (4/2075): (2702) rəvayət etmişdir. İbn əl-Əsir belə demişdir: «لَيُغَانُ عَلَى قَلْبِي», yəni: qəlbim örtülür və pərdələnir. Burada məqsəd səhv etməkdir. Çünki Peyğəmbər, sallallahu aleyhi və səlləm, daim zikr etməyə, (Allaha) yaxınlaşmağa və Onu daimi müşahidə etməyə davam edirdi. O, bəzən bunlardan birində səhv edər və ya unudardısa, bunu özü üçün günah sayar və dərhal istiğfar edərdi. Bax: Camiul-Usul (4/386).

günahları dənizin köpüyü qədər olsa belə, bağışlanar (silinər)»[1]

Peyğəmbər, sallallahu aleyhi va səlləm, başqa bir hədisdə belə buyurmuşdur:

«مَنْ قَالَ:

«Kim belə deyərsə:

لَا إِلَهَ إِلَّا اللَّهُ وَحْدَهُ لَا شَرِيكَ لَهُ، لَهُ المُلْكُ، وَلَهُ الحَمْدُ، وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ

Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur. O təkdir. Onun şəriki yoxdur. Mülk Onundur və həmd Onadır. O hər şeyə qadirdir.

عَشْرَ مِرَارٍ، كَانَ كَمَنْ أَعْتَقَ أَرْبَعَةَ أَنْفُسٍ مِنْ وَلَدِ إِسْمَاعِيلَ».

On dəfə söylərsə, İsmayıl nəslindən dörd qul azad etmiş kimi olar"[2].

Peyğəmbər, sallallahu aleyhi va səlləm, başqa bir hədisdə belə buyurmuşdur:

«كَلِمَتَانِ خَفِيفَتَانِ عَلَى اللِّسَانِ، ثَقِيلَتَانِ فِي المِيزَانِ، حَبِيبَتَانِ إِلَى الرَّحْمَنِ:

«İki kəlmə vardır ki, dilə yüngül, tərəzidə ağır və Rəhmana sevimlidir:»

سُبْحَانَ اللَّهِ وَبِحَمْدِهِ، سُبْحَانَ اللَّهِ العَظِيمِ».

---

1 Hədisi Buxari (7/168): (6405) və Müslim (4/2071): (2691) rəvayət etmişdir. Həmçinin bax: Bu kitabdan “Səhər-axşam yüz dəfə onu deyənin fəziləti” (səh: 65).

2 Buxari: (7/67): (6404) və Müslim, eyni ləfz ilə: (4/2071): (2693). Həmçinin bax: “Bunu gündə yüz dəfə deyənin fəziləti”. Bu kitabdan (93) nömrəli dua (səh: 66).

"Allah pak və nöqsansızdır və həmd Ona məxsusdur, Əzəmətli Allah pak və nöqsansızdır"[1].

Peyğəmbər, sallallahu aleyhi va səlləm, başqa bir hədisdə belə buyurmuşdur:

«لَأَنْ أَقُولَ:

«Mənim bu sözləri deməyim:

سُبْحَانَ اللَّهِ، وَالْحَمْدُ لِلَّهِ، وَلَا إِلَهَ إِلَّا اللَّهُ، وَاللَّهُ أَكْبَرُ،

"Allah pakdır (nöqsansızdır), həmd Allaha məxsusdur, Allahdan başqa heç bir haqq məbud yoxdur və Allah ən böyükdür."

أَحَبُّ إِلَيَّ مِمَّا طَلَعَتْ عَلَيْهِ الشَّمسُ».

günəşin üzərinə doğduğu hər şeydən mənə sevimlidir»[2].

Peyğəmbər, sallallahu aleyhi və səlləm, belə buyurmuşdur:

«أَيَعْجِزُ أَحَدُكُم أَنْ يَكْسِبَ كُلَّ يَوْمٍ أَلْفَ حَسَنَةٍ»

"Sizdən biriniz hər gün min savab qazanmaqdan acizdirmi?". Bu zaman Rəsulullahın, sallallahu aleyhi va səlləm, ətrafında oturanlardan biri ondan soruşdu: "Bizdən biri min savabı necə qazana bilər?". Rəsulullah, sallallahu aleyhi va səlləm, belə buyurdu:

---

1 Hədisi Buxari (7/168): (6404) və Müslim (4/2072): (2694) rəvayət etmişdir.

2 Hədisi Müslim (4/2072): (2695) rəvayət etmişdir.

«يُسَبِّحُ مِائَةَ تَسْبِيحَةٍ، فَيُكْتَبُ لَهُ أَلْفُ حَسَنَةٍ أَوْ يُحَطُّ عَنْهُ أَلْفُ خَطِيئَةٍ».

«Yüz dəfə «Sübhənallah» deyir, ona (bundan dolayı) min savab yazılır yaxud onun min günahı silinir»[1].

«مَنْ قَالَ:

«Kim belə deyərsə:

سُبْحَانَ اللَّهِ العَظِيمِ وَبِحَمْدِهِ

Əzəmətli Allah pak və nöqsansızdır və həmd Ona məxsusdur.

غُرِسَتْ لَهُ نَخْلَةٌ فِي الجَنَّةِ».

Onun üçün Cənnətdə bir xurma ağacı əkilər"[2].

Peyğəmbər, sallallahu aleyhi va səlləm, belə buyurmuşdur:

«يَا عَبْدَ اللَّهِ بْنَ قَيْسٍ أَلَا أَدُلُّكَ عَلَى كَنْزٍ مِنْ كُنُوزِ الجَنَّةِ؟»

«Ey Abdullah bin Qeys, sənə Cənnət xəzinələrindən bir xəzinə göstərimmi?». Mən dedim: “Bəli, ey Allahın Rəsulu”. O, sallallahu aleyhi və səlləm), isə buyurdu:

«قُلْ:

«De:

[1] Hədisi Müslim (4/2073): (2698) rəvayət etmişdir.

[2] Hədisi Tirmizi (5/511): (3464), Hakim (1/501) rəvayət etmişdir. Hakim hədisin səhih olduğunu bildirmiş və Zəhəbi də onunla razılaşmışdır. Bax: Səhihul-Cami (5/531) və Səhihu Tirmizi (3/160).

لَا حَوْلَ وَلَا قُوَّةَ إِلَّا بِاللَّهِ».

«Lə havlə va lə quvvatə illə billəh» -
«Qüdrət və güc yalnız Allahdadır»[1].

Peyğəmbər, sallallahu aleyhi va səlləm, başqa bir hədisdə belə buyurmuşdur:

«أَحَبُّ الْكَلَامِ إِلَى اللَّهِ أَرْبَعٌ:

«Allaha ən sevimli sözlər dörddür:»

سُبْحَانَ اللَّهِ، وَالْحَمْدُ لِلَّهِ، وَلَا إِلَهَ إِلَّا اللَّهُ، وَاللَّهُ أَكْبَرُ،

"Allah pakdır (nöqsansızdır), həmd Allaha məxsusdur, Allahdan başqa heç bir haqq məbud yoxdur və Allah ən böyükdür".

لَا يَضُرُّكَ بِأَيِّهِنَّ بَدَأْتَ».

«Onlardan hansından başlamağın sənə heç bir zərər verməz»[2].

Bir bədəvi ərəb Allah Rəsulunun, Allahın salavatı və salamı onun üzərinə olsun, yanına gəldi və dedi: "Mənə söyləməyə zikr öyrət". Allah Rəsulu, Allahın salavatı və salamı onun üzərinə olsun, dedi:

«قُلْ:

«De:

لَا إِلَهَ إِلَّا اللَّهُ وَحْدَهُ لَا شَرِيكَ لَهُ، اللَّهُ أَكْبَرُ كَبِيرًا، وَالْحَمْدُ لِلَّهِ كَثِيرًا، سُبْحَانَ

1 Hədisi Buxari Fəth ilə (11/213): (4206) və Müslim (4/2076): (2704) rəvayət etmişdir.

2 Hədisi Müslim (3/1685): (2137) rəvayət etmişdir.

اللَّهِ رَبِّ العَالَمِينَ، لَا حَوْلَ وَلَا قُوَّةَ إِلَّا بِاللَّهِ العَزِيزِ الحَكِيمِ»

Allahdan başqa məbud yoxdur, O təkdir, Onun şəriki yoxdur. Allah ən Böyükdür və çoxlu həmd Allaha məxsusdur. Aləmlərin Rəbbi olan Allah pak və müqəddəsdir. Qüdrət və güc yalnız Əziz və Hakim olan Allahdadır!».

O dedi: "Bunlar Rəbbim üçündür, bəs mənə nə?". O da dedi:

«قُلْ:

«De:

اللَّهُمَّ اغْفِرْ لِي، وَارْحَمْنِي، وَاهْدِنِي، وَارْزُقْنِي».

"Allahım, məni bağışla, mənə rəhm et, məni doğru yola yönəlt və mənə ruzi bəxş et!"[1].

Bir kişi İslamı qəbul etdiyi zaman Peyğəmbər, sallallahu aleyhi və səlləm, ona namazı öyrədərdi, sonra da bu kəlimələrlə dua etməsini əmr edərdi:

«اللَّهُمَّ اغْفِرِ لِي، وَارْحَمْنِي، وَاهْدِنِي، وَعَافِنِي وَارْزُقْنِي».

"Allahım, məni bağışla, mənə rəhm et, məni doğru yola yönəlt, mənə salamatlıq ver və mənə ruzi bəxş et!"[2].

---

[1] Hədisi Müslim (4/2072): (2696) rəvayət etmişdir. Əbu Davud isə (1/220): (832) əlavə etmişdir: Bədəvi üzünü çevirib gedəndə Peyğəmbər, sallallahu aleyhi və səlləm, buyurdu: «Həqiqətən, o, əlini xeyirlə doldurdu».

[2] Hədisi Müslim (4/2073): (3697) rəvayət etmişdir. Onun başqa bir rəvayətində də deyilir: «Çünki bunlar sənin üçün dünyanı və axirətini cəm edir».

«إِنَّ أَفْضَلَ الدُّعَاءِ

«Duanın ən fəzilətlisi

الحَمْدُ لِلَّهِ،

Həmd Allaha məxsusdur.

وَأَفْضَلَ الذِّكْرِ

Və zikrin ən fəzilətlisi

لَا إِلَهَ إِلَّا اللَّهُ».

"Lə iləhə illəllah" -

«Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur»[1].

«البَاقِيَاتُ الصَّالِحَاتُ:

"Qalıcı saleh əməllər:"

سُبْحَانَ اللَّهِ، وَالحَمْدُ لِلَّهِ، وَلَا إِلَهَ إِلَّا اللَّهُ، وَاللَّهُ أَكْبَرُ، وَلَا حَوْلَ وَلَا قُوَّةَ إِلَّا بِاللَّهِ».

«Allah pak və müqəddəsdir, həmd Allaha məxsusdur, Allahdan başqa haqq məbud yoxdur və Allah ən Böyükdür. Qüdrət və güc yalnız Allahdadır!»[2].

---

[1] Hədisi Tirmizi (5/462): (3383), İbn Maca (2/1249): (3800) və Hakim (1/503) rəvayət etmişdir. Hakim hədisin səhih olduğunu bildirmiş, Zəhəbi də onunla razılaşmışdır. Həmçinin bax: Sahihul-Cami (1/362).

[2] Əhməd: (513) Əhməd Şakirin tərtibatına görə. Həmçinin bax: "Məcməuz-Zəvaid" (1/297). İbn Həcər "Bulughul-Məram" adlı əsərində Əbu Səiddən gələn rəvayəti Nəsaiyə "Kubra" (10617) əsərinə nisbət etmiş və İbn Hibbanın: (840) və Hakimin: (1/541) hədisi səhih saydıqlarını bildirmişdir.

## 131. Peyğəmbər, sallallahu aleyhi va səlləm, necə təsbeh edərdi?

Abdullah bin Amr, Allah onların hər ikisindən razı olsun, demişdir:

«رَأَيْتُ النَّبِيَّ ﷺ يَعْقِدُ التَّسْبِيحَ» وفي زيادةٍ: «بِيَمِينِهِ».

«Mən Peyğəmbəri, sallallahu aleyhi və səlləm, təsbihi (yəni: zikri və sübhənallah kəlməsini) sayarkən gördüm». Bir əlavədə isə: «sağ əli ilə»[1].

## 132. Müxtəlif xeyir əməllər və hərtərəfli ədəb qaydaları.

Peyğəmbər, Allahın salavatı və salamı onun üzərinə olsun, belə buyurmuşdur:

«إِذَا كَانَ جُنْحُ اللَّيْلِ – أَوْ أَمْسَيْتُم – فَكُفُّوا صِبْيَانَكُم، فَإِنَّ الشَّيَاطِينَ تَنْتَشِرُ حِينَئِذٍ، فَإِذَا ذَهَبَ سَاعَةٌ مِنَ اللَّيلِ فَخَلُّوهُمْ، وَأَغْلِقُوا الأَبْوَابَ وَاذْكُرُوا اسْمَ اللَّهِ؛ فَإِنَّ الشَّيطَانَ لَا يَفْتَحُ بَابًا مُغلَقًا، وَأَوْكُوا قِرَبَكُمْ، وَاذْكُرُوا اسْمَ اللَّهِ، وَخَمِّرُوا آنِيَتَكُم، وَاذْكُرُوا اسْمَ اللَّهِ، وَلَوْ أَنْ تَعْرُضُوا عَلَيْهَا شَيْئًا، وَأَطْفِئُوا مَصَابِيحَكُمْ».

"Gecənin qaranlığı düşdükdə – və ya axşamladığınız zaman – uşaqlarınızı bayıra buraxmayın, çünki o zaman şeytanlar ətrafa yayılırlar. Gecədən bir müddət keçdikdən sonra isə onları sərbəst buraxın. Qapıları bağlayın və Allahın

---

[1] Hədisi Əbu Davud (bu ləfzlə) (2/81): (1502) və Tirmizi (5/521): (3486) rəvayət etmişdir. Həmçinin bax: "Sahih əl-Cami" (4/271): (4865). Albani "Sahih Sunən Əbu Davud" (1/411) adlı əsərində hədisin səhih olduğunu bildirmişdir.

adını zikr edin, çünki şeytan bağlı qapını açmaz. Su tuluqlarınızın ağzını bağlayın və Allahın adını zikr edin. Qablarınızın üstünü, hətta üzərinə bir şey qoymaqla belə olsa, örtün və Allahın adını zikr edin. Çıraqlarınızı da söndürün"[1].

Allahın salatı, salamı və bərəkəti peyğəmbərimiz Muhəmmədin, onun ailəsinin və bütün səhabələrinin üzərinə olsun.

❋❋❋

[1] Hədisi Buxari Fəth ilə (10/88): (5623) və Müslim (3/1595): (2012) rəvayət etmişdir.

# Mündəricat

Kitab və Sünnə zikrlərindən “Müsəlmanın qalası”.............. 2
Müqəddimə. ........................................................................ 2
Zikrin fəziləti. ..................................................................... 3
1. Yuxudan oyanarkən edilən zikrlər. ..................................... 9
2- Paltar geyinərkən edilən dua. ........................................ 12
3- Təzə paltar geyinərkən edilən dua. ................................ 13
4. Təzə paltar geyinən üçün edilən dua. .............................. 13
5. Paltarını çıxartdığı zaman nə deyir? ................................ 14
6. Ayaqyoluna girərkən edilən dua. ..................................... 14
7. Ayaqyolundan çıxarkən edilən dua. .................................. 14
8. Dəstəmazdan əvvəl edilən zikr. ....................................... 14
9. Dəstəmazdan sonra edilən zikr. ....................................... 15
10. Evdən çıxarkən edilən zikr. ............................................ 15
11. Evə daxil olarkən edilən zikr. ......................................... 16
12. Məscidə gedərkən edilən dua. ........................................ 16
13. Məscidə daxil olarkən edilən dua. ................................... 18
14. Məsciddən çıxarkən edilən dua. ...................................... 19
15. Azanın zikirləri. ............................................................ 19
16. "İstiftəh" (namaz açılış) duası. ........................................ 21
17. Rükuda edilən dua. ....................................................... 26
18. Rükudan qalxarkən edilən dua. ....................................... 27
19. Səcdədə edilən dua. ...................................................... 28
20. İki səcdə arasında oturduqda edilən dua. ......................... 30
21. Tilavət səcdəsində edilən dua. ......................................... 30
22. Təşəhhüd duası. ............................................................ 31
23. Təşəhhüddən sonra Peyğəmbərə, Allahın salavatı və salamı onun üzərinə olsun, oxunan salavat. ............................. 32

24. Axırıncı təşəhhüddən sonra, salamdan əvvəl edilən dua. .......... 33
25. Salam verib namazı bitirdikdən sonra oxunan zikrlər. .......... 37
26. İstixarə namazının duası. .......... 42
27. Səhər və axşam zikirləri. .......... 44
28. Yatarkən edilən zikrlər. .......... 59
29. Gecə yatarkən bir tərəfdən digər tərəfə çevrildikdə edilən dua. .......... 66
30. Yuxuda qorxanın və vəhşətə düçar olanın duası. .......... 67
31. Röya və ya yuxu görən nə etməlidir? .......... 67
32. Vitr namazında edilən qunut duası. .......... 68
33. Vitr namazının salamından sonra edilən zikr. .......... 69
34. Üzüntü və kədər anında oxunan dua. .......... 70
35. Sıxıntı anında oxunan dua. .......... 71
36. Düşmənlə və hakimlə qarşılaşdıqda edilən dua. .......... 72
37. Sultanın zülmündən qorxan kimsənin etdiyi dua. .......... 73
38. Düşmənə qarşı edilən dua. .......... 74
39. Hər hansı bir camaatdan qorxan kimsənin etdiyi dua. .......... 75
40. İmanında vəsvəsəyə düçar olan kimsənin duası. .......... 75
41. Borcun ödənilməsi üçün edilən dua. .......... 76
42. Namaz qılarkən yaxud Quran oxu-yarkən gələn vəsvəsəyə qarşı edilən dua. .......... 76
43. Bir iş çətinləşən kimsənin etdiyi duası. .......... 77
44. Günah edən kəs nə deməli və nə etməlidir. .......... 77
45. Şeytanı və onun vəsvəsələrini qovmaq üçün edilən dua. .......... 77
46. İstəmədiyi bir iş baş verdikdə və ya bir işdə aciz qaldıqda edilən dua. .......... 78

47. Övladı olanı təbrik etmək və onun cavabı. .................... 79
48. Uşaqları qorumaq üçün oxunan dua. .............................. 79
49. Xəstəni ziyarət edərkən onun üçün edilən dua. .......... 80
50. Xəstəni ziyarət etmək fəziləti. .......................................... 80
51. Həyatından ümidini kəsmiş xəstə insanın duası. ....... 81
52. Can verən kimsəyə təlqin edilən dua. ............................ 82
53. Müsibətə düçar olmuş kimsənin duası. .......................... 83
54. Meyitin gözlərini qapayarkən edilən dua. .................... 83
55. Cənazə namazında meyit üçün oxunan dua. ................. 83
56. Həddi-büluğa çatmamış uşağın cənazə namazında oxunulan dua. ....................................................................... 85
57. Təziyə (başsağlığı) duası. .................................................. 86
58. Meyit qəbrə qoyularkən edilən dua. ............................... 87
59. Meyitin dəfn etdikdən sonra edilən dua. ....................... 87
60. Qəbrləri ziyarət edərkən oxunan dua. ............................ 88
61. Külək əsərkən edilən dua. .................................................. 88
62. Göy guruldayarkən edilən dua. .......................................... 89
63. Yağışın yağması üçün edilən bəzi dualar. ..................... 89
64. Yağışı görərkən edilən dua. ................................................ 90
65. Yağış yağdıqdan sonra edilən zikr. ................................. 90
66. Havanın açılması üçün edilən dualardan. ...................... 90
67. Hilal görünərkən edilən dua. .............................................. 90
68. Oruc tutan iftarını açarkən etdiyi dua. ........................... 91
69. Yeməkdən əvvəl edilən dua. ................................................ 91
70. Yeməkdən sonra edilən dua. ................................................ 92
71. Qonağın yemək sahibi üçün etdiyi dua. ........................... 93
72. Yemək və ya su istəmək üçün dua ilə eyham vurmaq. ....................................................................................................... 93
73. (Başqa evdə) orucunu açan şəxsin ev əhli üçün etdiyi

dua. ........................................................................................ 93
74- Oruc tutan şəxsin, yemək süfrəsi açıldığı zaman orucunu pozmaq istəmədikdə etdiyi dua. .................................. 94
75. Oruc tutan onu söyən kimsəyə nə deməlidir. ............. 94
76. İlk barı görərkən edilən dua. ......................................... 95
77. Asqırdıqda edilən dua...................................................... 95
78. Asqırıb Allaha həmd edən kafirə nə deyilər. ............... 96
79. Evlənən üçün edilən dua. .................................................. 96
80. Evlənən və minik heyvanı alanın edəcəyi dua. .......... 96
81. Zövcə ilə yaxınlıqdan əvvəl edilən dua. ........................ 97
82. Qəzəblənərkən edilən dua................................................ 97
83. Müsibətə düçar olmuş kimsəni görərkən edilən dua. ........................................................................................ 97
84. Məclisdə nə deyilir. ........................................................... 98
85. Məclisin kəffarəsi................................................................ 98
86. [Ğafəra-Llahu lək] – “Allah səni bağışlasın!” – deyən kimsə üçün edilən dua. ...................................................... 99
87. Sənə yaxşılıq edən şəxsə edilən dua................................ 99
88. Allahın onun vasitəsilə Dəccaldan qoruduğu dualar.99
89. “Səni Allah üçün sevirəm” deyən kəs üçün edilən dua. ........................................................................................ 99
90. Malını sənə təklif edən kimsə üçün edilən dua. ....... 100
91. Borcu qaytararkən borc verənə edilən dua. ............. 100
92. Allaha şərik qoşmaqdan qorxanın edəcəyi dua. ...... 100
93. "Allah sənə bərəkət versin" - deyən kimsəyə edilən dua. ...................................................................................... 101
94. Pis əlamətə qarşı edilən dua.......................................... 101
95. Minik vasitəsinə minərkən edilən dua. ....................... 101
96. Səfər duası. ........................................................................ 102
97. Kəndə və ya şəhərə daxil olarkən edilən dua........... 103

98. Bazara daxil olarkən edilən dua. ..................................... 104
99. Minik vasitəsi büdrədikdə edilən dua. .......................... 104
100. Müsafirin sakinlər üçün etdiyi dua. ............................ 105
101. Sakinlərin müsafir üçün etdiyi dua. ............................ 105
102. Səfər zamanı təkbir və zikr etmək.............................. 105
103. Müsafirin səhərə yaxın etdiyi dua. .............................. 106
104. Səfərdə və ya başqa bir yerdə mənzil başına çatdıqda edilən dua. ......................................................................... 106
105. Səfərdən qayıdarkən edilən zikr. ................................. 106
106. Sevindirici və ya xoşagəlməyən bir işlə rastlaşan şəxs nə deməlidir. ........................................................................ 107
107. Peyğəmbərə, Allahın salavatı və salamı onun üzərinə olsun, salavat gətirməyin fəziləti. ............................................ 108
108. Salamı yaymaq. ............................................................... 109
109. Kafir salam verdikdə, onun salamının cavabı necə qaytarılır? ................................................................................ 110
110. Xoruzun banlamasını və eşşəyin anqırtısını eşitdikdə edilən dua. .......................................................................... 111
111. Gecə itlərin hürməsini eşidərkən edilən dua.......... 111
112. Söydüyün şəxs üçün edəcəyin dua. ............................. 112
113. Müsəlman, müsəlmanı tərif etdikdə nə deməlidir? ....................................................................................................... 112
114. Müsəlman tərif olunduqda nə deməlidir?................ 113
115. Həcc və ya ümrə ziyarəti əsnasın-da ihramda olan şəxs necə təlbiyə etməlidir? ........................................................ 113
116. Həcərul-Əsvədə çatdıqda təkbir demək. .................. 114
117. Yəmən küncü ilə Həcərul-əsvəd arasında edilən dua. ....................................................................................................... 114
118. Səfa və Mərvə dağı üzərində dayandıqda edilən dua. ....................................................................................................... 114

119. Ərafa günü edilən dua. .................................................. 115
120. Məşərul-Haramda [müzdəlifə vadisində] edilən zikr. ..................................................................................... 116
121. Cəmərətdə hər daşı atarkən təkbir gətirmək......... 116
122. Təəccüblənərkən və ya sevinərkən edilən dua. .... 117
123. Sevindirici hadisə ilə rastlaşan kimsə nə etməlidir? ..................................................................................... 117
124. Bədənində ağrı hiss edən kimsənin nə etməli və nə deməlidir? .......................................................................... 117
125. Özünün göz dəyməsi ilə bir şeyə zərər toxunmasından qorxan kimsənin duası.................................... 118
126. Qorxu zamanı deyilən zikr............................................ 119
127. Qurban kəsərkən nə deyilir? ........................................ 119
128. Azğın şeytanların hiyləsini dəf etmək üçün nə deyilir? ..................................................................................... 119
129. Bağışlanma diləmək və tövbə etmək. ....................... 120
130. "Subhənallah", "Əlhəmdulilləh", "Lə iləhə illallah" və "Allahu Əkbər" deməyin fəziləti. ............................................. 122
131. Peyğəmbər, sallallahu aleyhi va səlləm, necə təsbeh edərdi? ............................................................................... 129
132. Müxtəlif xeyir əməllər və hərtərəfli ədəb qaydaları. ..................................................................................... 129

✻✻✻

az24v5.0 - 26/07/2026

رئاسة الشؤون الدينية
بالمسجد الحرام والمسجد النبوي

رسالة الحرمين

# Message of The Two Holy Mosques

Guidance content for the visitors of the Holy Mosque and the Prophet's Mosque in languages.